www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu   Gündəlik qəzet 10 mart 2015-ci il   Çərşənbə axşamı   № 53 (6081)   Qiyməti   40 qəpik


**Xəbər**

## Xalq artistinin keçmiş ərinin evində qətl hadisəsi

yazısı səh.14-də

**Gündəm**

### Türkiyə-Azərbaycan hərbi ittifaqı yeni fazaya keçir



İki təbii müttəfiqin son vaxtlar bir-birinə daha da yaxınlaşması, intensivləşən ortaq hərbi təlimlər ən çox işğalçı Ermənistanı xofləndirib; genişlənən Ankara-Bakı hərbi əməkdaşlığı digər məkrli qüvvələrə də mesajdır...

yazısı səh.11-də

### Putin Oqtay Əsədovu və Əli Həsənovu "Dostluq" ordeni ilə təltif etdi

yazısı səh.2-də

### Hökumət siqaret mafiyasına təslim oldu...

yazısı səh.4-də

### Azərbaycanın ombudsman problemi...

yazısı səh.5-də

### "London taksiləri"nin sürücüləri oyunları gözləyir

yazısı səh.7-də

### İş adamı Aslan Aslanovun "ölüm eskadronu" qurbanlarının adlarını açıqladı

yazısı səh.10-da

### Azərbaycan manatı üçün sınaq həftəsi - yeni eniş gözlənilirmi?

yazısı səh.12-də

### Dünya tarixində məşhur zəhərlənmə hekayələri

yazısı səh.15-də

### Müəllimlərin 1 dərs saatının dəyəri 35 faiz artacaq

yazısı səh.7-də

### Nemtsovun qətli müsəlmanların üstünə atıldı

yazısı səh.8-də

### İŞİD-in qadın düşmənliyi

yazısı səh.13-də

### Bu gün Yel çərşənbəsidir

yazısı səh.15-də

## Hakim partiyadan kontur-gediş

# YAP DEPUTATLARI İLƏ BAĞLI SENSASİON ARAŞDIRMA

Demək olar ki, bütün dairələrdə başlamış araşdırma bəzi şokedici nəticələr üzə çıxarıb və deputat mandatını təhvil vermək istəməyənlər fakt qarşısında qoyulub; kimlərin YAP-ın namizədlər siyahısında olacağı bu təhlillərin sonunda bilinəcək...




yazısı səh.5-də

# Generalın qardaşının tikdirdiyi evlər sökülür

Xeyli vətəndaş Əli Nağıyevin yaxınlarının yalan vədlərinin güdazına gedib; "Motodrom" tərəfdə inşa olunmuş fərdi yaşayış evləri kompensasiya ödənmədən yerlə yeksan edilir

yazısı səh.11-də



*Mirvari Qəhrəmanlı:*

### "Gözlənilən əfvlə daha çox adam azadlığa çıxacaq"

yazısı səh.3-də



### "Hafka" kimlərə nə mesaj göndərdi?

yazısı səh.4-də



*Arif Hacılı:*

### "Qərblə Azərbaycan iqtidarı arasında yaranmış problemin çox sadə həll yolu var"

yazısı səh.6-da


Oqtay Əsədov


Əli Həsənov

## Putin Oqtay Əsədovu və Əli Həsənovu "Dostluq" ordeni ilə təltif etdi

**Rusiya Federasiyasının prezidenti Vladimir Putin Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədovu və Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovu "Dostluq" ordeni ilə təltif edib.**

APA-nın məlumatına görə, Rusiya prezidentinin martın 5-i imzaladığı Fərmanda qeyd edilir ki, O. Əsədov və Ə. Həsənov Rusiya Federasiyası ilə dostluğun və əməkdaşlığın möhkəmləndirilməsində böyük töhfəyə görə ordenə layiq görülüb.

## TANAP-ın Türkiyədən keçən hissəsinin tikintisinə martın 17-də başlanacaq

**Trans-Anadolu qaz kəmərinin (TANAP) Türkiyə ərazisindən keçən hissəsinin tikintisinə martın 17-də başlanacaq. APA-nın Türkiyənin "Anadolu" agentliyinə istinadən verdiyi xəbərə görə, bunu Türkiyənin energetika və təbii sərvətlər naziri Taner Yıldız deyib. "TANAP həm Türkiyə, həm Azərbaycan olduqca əhəmiyyətli və strateji bir layihədir", - deyə nazir qeyd edib.**

## Beynəlxalq koalisiya İŞİD-in mövqelərinə 14 hava zərbəsi endirib

**Beynəlxalq koalisiya qüvvələrinə məxsus hərbi təyyarələr İraq və Suriyada İŞİD terror qruplaşmasının mövqelərinə 14 hava zərbəsi endirib. APA-nın «Reuters» agentlyinə istinadən verdiyi xəbərə görə, bu barədə Amerika Birləşmiş Ştatlarının Mərkəzi Komandanlığı bildirib.**

Məlumata görə, koalisiya terrorçuların canlı qüvvə və hərbi texnikasına Suriyada 5, İraqda isə 9 hava zərbəsi endirib. Əməliyyat nəticəsində terrorçulara məxsus bina və nəqliyyat vasitələri məhv edilib.

## Merkel vahid Avropa ordusu yaratmaq ideyasını dəstəklədi

**Almaniya kansleri Angela Merkel vahid Avropa ordusunun yaradılması ideyasını dəstələdiyini bildirib. Musavat.com-un məlumatına görə, bu barədə dpa agentliyi xəbər yayıb. Almaniya hökumətinin rəsmi nümayəndəsi Kristian Virtsin bu xüsusda bildirdiyinə görə, Merkel hesab edir ki, Avropada dərinləşmiş hərbi əməkdaşlıq olmalıdır. Bununla belə, kanslerin fikrincə, hazırda bu, "gələcəyin layihəsidir".**

Az öncə ölkənin müdafiə naziri Ursula fon der Ylayen Avropa Birliyinin vahid ordusunu yaratmağı təklif eləmişdi. Xanım nazir onu da bildirmişdi ki, "Avropada 2-ci Dünya savaşı və soyuq müharibədən sonra formalaşmış düzəninin dağıdılmasına imkan vermək olmaz".

XİN başçısı Frank-Valter Ştaynmayer və Avropa Komissiyasının sədri Jan-Klod Yunker də bu ideyanı müdafiə edirlər.

❑ **Musavat.com**

## Küveytli din xadimi Misir piramidalarını dağıtmağı təklif edir

**Küveytli islam vaizi İbrahim əl-Kandari Misir piramidalarını məhv eləməyi təklif edib. Musavat.com-un məlumatına görə, bu barədə Misirin "əl-Vatan" nəşri xəbər yayıb. Onun sözlərinə görə, vaxtilə Misirə gələn müsəlmanların Fironlar dövrünün abidələrini dağıtmaması hələ o demək deyil ki, bunu indi eləmək olmaz.**

"Madam ki, Məhəmməd peyğəmbər (s) öz zamanında Məkkədə bütün bütləri məhv elədi, deməli, onun ardıcılları da bütpərəstliyə son qoymalıdırlar - baxmayaraq ki, Fironlar dövrünün abidələri indi pərəstiş obyektləri yox, yalnız tarixi abidələr və arxitektura obyektləridir" - deyib din xadimi.

Az öncə İŞİD lideri Əbu Bəkr əl-Bağdadi analoji təkliflə çıxış eləmişdi. O, tarixi abidələrin məhvini "dini borc" adlandırmışdı.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# İlham Əliyev Atıcılıq Mərkəzinin açılışını etdi



**Prezident İlham Əliyev, xanımı, Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri paytaxtın Biləcəri qəsəbəsində yerləşən Bakı Atıcılıq Mərkəzinin açılışında iştirak ediblər. APA-nın məlumatına görə, gənclər və idman naziri Azad Rəhimov dövlət başçısına mərkəz haqqında məlumat verib.**

Bildirilib ki, mərkəz idmanın güllə və stend atıcılığı növləri üzrə yarışların və məşqlərin keçirilməsi üçün nəzərdə tutulub. Burada yarışların yüksək səviyyədə təşkil olunması üçün hər cür şərait yaradılıb. Mərkəzin ərazisi genişləndirilərək 19,6 hektara çatdırılıb. Prezident İlham Əliyev mərkəzin rəmzi açılışını bildirən lenti kəsib. Qeyd edilib ki, Bakı Atıcılıq Mərkəzinin baş planına əsasən ərazidə inşa edilən bina və qurğuların hamısı Beynəlxalq Atıcılıq Federasiyasının tələblərinə cavab verir. Mərkəzin güllə atıcılığı binası müasir səviyyədədir. Bildirilib ki, mərkəzdə idmançılar və məşqçilər, həmçinin qonaqlar üçün mehmanxana binası da inşa edilib. Dörd mərtəbə və terrasdan ibarət binada qonaqlar üçün yüksək şərait yaradılıb. Diqqətə çatdırılıb ki, mərkəzdə 495 avtomobil yerlik yerüstü, həmçinin 26 avtomobil yerlik VIP dayanacaqlar da inşa edilib. Belə bir müasir kompleksin yaradılması "Bakı-2015" ilk Avropa Oyunları zamanı idmanın güllə və stend atıcılığı növləri üzrə yarışların yüksək səviyyədə keçirilməsinə imkan verəcək.



## Fikrət Məmmədov Ağdaşda vətəndaşları qəbul edəcək

**Prezident İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq ədliyyə naziri Fikrət Məmmədov martın 13-də Ağdaş rayonunda vətəndaşları qəbul edəcək.**

Ədliyyə Nazirliyi Mətbuat xidmətindən APA-ya verilən məlumata görə, qəbulda Ağdaş, Mingəçevir və Yevlax rayonlarında yaşayan vətəndaşların ədliyyə və məhkəmə fəaliyyəti ilə bağlı müraciətlərinə baxılacaq.

Qəbul saat 12:00-da Ağdaş şəhərindəki Heydər Əliyev Mərkəzində (ünvan: Ağdaş Rayon İcra Hakimiyyətinin yanı) keçiriləcək.

Bildirilir ki, vətəndaşlar qəbula Göyçay regional ədliyyə şöbəsi (ünvan: Göyçay şəhəri, Nizami küçəsi, 111, əlaqə telefonu: (02027) 4-30-41, (050) 383-89-92, habelə Ədliyyə Nazirliyinin 510-10-01 (əlavə 2104), 055-925-37-41 nömrəli telefonları və contact@justice.gov.az elektron poçt ünvanı vasitəsilə, eləcə də Ağdaş şəhəri Heydər Əliyev Mərkəzində yazıla bilərlər.

Eyni zamanda, vətəndaşların rahatlığı üçün ədliyyə nazirinin həmin gün keçiriləcək qəbuluna elektron qaydada birbaşa yazılmaq imkanı yaradılıb. Bu məqsədlə nazirliyin elektron xidmətlər portalına (www.exidmet.justice.gov.az) müraciət etmək lazımdır.

## "Bu il Azərbaycanı "Eurovison"da Elnur təmsil edəcək"

**"Bu il Azərbaycanı "Eurovision"da Elnur Hüseynov təmsil edəcək. Bu, rəsmi qərardır". Lent.az-ın məlumatına görə, bu sözləri "Gün üzü" verilişinə qonaq olan müğənni Nura Suri deyib. O bildirib ki, bu, dəqiq məlumatdır: "Xəbəriniz olsun ki, bu il Azərbaycanı "Eurovision"da Elnur təmsil edəcək. Ona görə "qədrini bilmədik" kimi sözlər deyilməsin, qədrini bilirik. Dəqiq məlumatdır. Bu il Elnur həmin müsabiqədə tək olacaq. Rəsmi olaraq maraqlana bilərsiniz. Bir ara təkzib olunmuşdu, sonra yenə də təsdiqlənib".**

Qeyd edək ki, E.Hüseynov Azərbaycanı eyni adlı mahnı müsabiqəsində 2008-ci ildə həmkarı Samir Cavadzadə ilə birgə təmsil etmişdi.

## Ərdoğana qarşı sui-qəsd planı...

**Almaniyanın "Der Spiegel" jurnalı son məqaləsində Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğana sui-qəsd planı barədə yazıb. ANS PRESS-in məlumatına görə, məqalədə dekabrda Almaniyada tutulan üç türk xəfiyyədən bəhs edilir. Öz aralarında danışan xəfiyyələrin danışıqları alman təhlükəsizlik orqanları tərəfindən yazılıb.**

Müəllif bildirir ki, həmin xəfiyyələrdən biri telefon danışığı zamanı Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğana sui-qəsd planı barədə danışıb. O, Ərdoğanın Ankaradakı evində çalışan aşpaz qadından şübhələndiyini bildirib. Türkiyə üçün xəfiyyəlik fəaliyyətinə görə daha bir nəfər isə Belçikada həbs edilb. Həmin dörd türkün Almaniyada və Belçikada PKK və Gülən camaatı ilə bağlı kəşfiyyat apardığı bildirilir. Hazırda onlardan üçü buraxılıb və biri hələ də həbsdədir.

## "Avropa Şurası Qarabağ münaqişəsini yerində araşdırmaqda maraqlıdır"

**"Avropa Şurasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yenidən ciddi səylə araşdırılmasına başlanılır". Bunu APA-ya açıqlamasında Azərbaycanın Avropa Şurası Parlament Assambleyasında (AŞ PA) nümayəndə heyətinin rəhbəri Səməd Seyidov bildirib.**

S. Seyidov qeyd edib ki, AŞPA-nın Dağlıq Qarabağ münaqişəsi üzrə məruzəçisi Robert Volterin martın 12-13-də Azərbaycana faktaraşdırıcı səfəri də məhz bu ciddi səylərin əsasında həyata keçirilir: "Nə qədər ermənilər buna qarşı çıxsalar da, əngəlləməyə çalışsalar da Dağlıq Qarabağ münaqişəsi Avropa Şurasında yeni ciddi səylə araşdırılmağa başlanılıb, gündəmə gətirilib".

S. Seyidov qeyd edib ki, qurum problemi yenidən yerində araşdırmaqda maraqlıdır. Qeyd edək ki, AŞPA-nın Dağlıq Qarabağ münaqişəsi üzrə məruzəçisi Robert Volter martın 12-13-də Azərbaycana faktaraşdırıcı səfər edəcək.

## "Boko Haram"ın 200 yaraqlısı öldürüldü

**Çad və Niger hərbçilərinin birgə əməliyyatı çərçivəsində "Boko Haram" terrorçu qruplaşmasının 200 yaraqlısı öldürülüb. APA-nın "Reuters" agentliyinə istinadən verdiyi xəbərə görə, hərbi əməliyyat ötən ilin noyabr ayından etibarən yaraqlıların nəzarətində olan Damasak şəhərinin silahlılardan təmizlənməsi üçün həyata keçirilib.**

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33



## Məmur oğlunun müəmmalı ölümünə dair daha bir detal

**Gədəbəyin icra başçısının 1-ci müavini Qüdrət Paşayevin oğlunun müəmmalı şəkildə dünyasını dəyişməsi haqda yazmışdıq. 2011-ci ilin sonlarında Qobustan həbsxanasının əməkdaşı, Gədəbəy Rayon İcra Hakimiyyəti başçısının 1-ci müavini Qüdrət Paşayevin oğlu Babək Paşayev qəfildən dünyasını dəyişib. Onun ölümünün azartlı oyunla əlaqəli olduğu deyilirdi.**

Aldığımız son məlumatda isə B.Paşayevin ölümünə dair daha bir maraqlı detal üzə çıxır. Bildirilir ki, həmin vaxt B.Paşayevin meyiti yaşadığı evin hamam otağında asılmış vəziyyətdə aşkar olunub. Bu hadisəyə qayıtmaqda məqsədimiz heç də kiminsə şəxsi faciəsindən istifadə etmək deyil. Məsələ ondadır ki, mərhum özü ədliyyə məmuru olub, atası icra hakimiyyətində yüksək vəzifə tutur və ən əsası mərhumun əmisi hadisə baş verəndən indiyədək Nazirlər Kabineti yanında Dövlət Felgeyder Xidmətinin rəisi vəzifəsini daşıyan general Ədalət Paşayevdir. Göründüyü kimi, kifayət qədər yüksək vəzifəli və imkanlı arxası olan bir məmurun intihar etməsi, bu intiharın səbəbinin araşdırılmaması suallar doğurur. Ən qəribəsi odur ki, intihar hadisəsinin gizlədilməsi və ört-basdır olunmasına Qüdrət və Ədalət Paşayevlərin özləri də göz yumublar. Hər halda, onların bu ölümlə bağlı susmaları belə nəticəyə gəlməyə əsas verir...

Yayılan məlumatlara inansaq, deyilənə görə, mərhum qumar oyunlarına aludə olub və külli miqdarda pul uduzub, borca düşüb, borcu ödəyə bilmədiyinə görə bu yola əl atıb. Əgər bu məlumatlar həqiqətdirsə, ortaya daha böyük suallar çıxır. Birincisi, əməkdaşlarından kifayət qədər məsuliyyət tələb olunan bir təşkilatda bu oyunlar necə oynanılır? Pulu udan kimdir? Həmin şəxsin məsuliyyəti müəyyən edilibmi? Yoxsa həmin şəxs yeni qurbanlarını məhv etməklə məşğuldur? Bundan başqa, baş vermiş olaydan sonra Paşayev qardaşlarının yüksək vəzifədə qalmaları da suallar doğurur.

❑ **E.HÜSEYNOV**

***P.S.** Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Ölkə içi

YENİ MÜSAVAT
N 53 (6081) 10 mart 2015

# "Mı iz Kirovabada"nın övladları

**Bu yaxınlarda bir qrup çox tanınmış (adbaad yazmağa ehtiyac görmürəm) şair və yazıçılar prezidentə KİV vasitəsilə müraciət etmişdilər. Müraciətdə deyilirdi ki, mərhum şair Nüsrət Kəsəmənlinin oğlu 8 illik məhbəs həyatından sonra qısa müddətdə azadlıqda olub və yenidən həbs olunub. Bu dəfə daha ağır maddə ilə ittiham olunan şairin oğlu daha uzun müddətə azadlıqdan məhrum edilib. Ədiblərimiz ölkə başçısına bildirirdilər ki, istintaq və məhkəmə ədalətli aparılmayıb, qərəzə yol verilib. Onun azadlığa çıxmasına yardım istəyirdilər.**

Mən mərhum şairimizin oğluna azadlıq arzulayıram və ədiblərimizin bu hərəkətini təqdir edirəm. Bununla belə, bu humanist müraciət ortaya bir sıra suallar çıxarır. Müraciətdə qeyd edilir ki, Nüsrət Kəsəmənlinin oğlunun istintaqı və məhkəməsi ədalətsiz və qərəzli olub. Bu necə ola bilər axı? İqtidar deyir ki, bizdə istintaq və məhkəmə çox ədalətli, yeni mövcud qanunlara tam uyğun şəkildə fəaliyyət göstərirlər. Belə çıxır ki, tanınmış ədiblərimiz iqtidarımıza, onun qurduğu istintaq və məhkəmə sisteminə böhtan atırlar?! Qərbdən Azərbaycanın istintaq və məhkəmə sistemi ilə bağlı tənqidlər gələndə bu, beynəlxalq erməni mafiyasının sifarişi ilə söylənilən yalanlar adlandırılırsa, onda ədiblərimiz də ermənilərin sifarişinimi yerinə yetiriblərmiş?

Həmin müraciətə imza atan ədiblərdən soruşuram, həmin məhkəmə prosesində iştirak etməyə-etməyə, onun qərəzli və ədalətsiz olduğunu haradan bilirsiniz? Amma siyasi məhbusların məhkəmə prosesində iştirak edən qərbli diplomatlar burada necə tükürpədici rüsvayçılıqlar yaşandığının şahidi olurlar və bu haqda öz hökumətlərinə xəbər verirlər. Hiss olunur ki, sizin də reallıqdan xəbəriniz var. Everest zirvəsinin hündürlüyünün 8848 metr olduğunu bilmək üçün hökmən alpinist olub Yer kürəsinin ən yüksək nöqtəsinə dırmaşmağa ehtiyac yoxdur. Bunun belə olduğunu bilmək üçün informasiya kifayətdir.

Elə isə deyin görüm, iqtidar üçün heç bir problem yaratmayan Nüsrət Kəsəmənlinin oğlunun istintaqında və məhkəməsində ədalətsizliyə və qərəzə yol verilirsə, onu ifşa etdiyi üçün iqtidar özünə düşmən hesab etdiyi siyasi və ictimai fəalların istintaqı və məhkəməsi ədalətli keçə bilərdimi? Sizi əmin edirəm, siyasi məhbuslara elan edilmiş ittihamların şəxsən sizin özünüzə nə qədər aidiyyəti varsa, onlara da o qədər aidiyyəti var. Özünü Azərbaycanın ziyalısı sayan ədiblər, siz Leyla Yunus, Xədicə İsmayıl, İntiqam Əliyev, Rəşadət Axundov və s. onlarla digər siyasi məhbuslarla bağlı iqtidarın rəhbərinə müraciət edə bilərsinizmi? Əlbəttə ki, yox! Sizləri yaxşı tanıyırıq. Yüksək qəbullara düşüb oğlunuz, qızınız, kürəkəniniz, gəlininiz və s. yaxın qohumlarınız üçün yağlı vəzifə diləmək sizin üçün çox vacib və şərəfli işdir. Amma bu məmləkətin xilası, normal cəmiyyətə çevrilməsi, haqqında təsirli əsərlər yaratdığınız Qarabağımızın qaytarılması, rüşvətxorluğun kökünün kəsilməsi, seçkilərin ədalətli keçirilməsi və s. üçün çarpışan insanların həbsdən azad olunması üçün müraciət etməyi özünüz üçün az qala əskiklik sayarsınız.

Ötən əsrin səksəninci illərinin sonunda, milli özünüdərk prosesinin vüsət aldığı bir dövrdə, Azərbaycan SSR-nin oyuncaq parlamentində o vaxtkı Kirovabaddan olan deputat xanım bu qədim şəhərin "Gəncə" adının qaytarılması təklifini verdi. Üstündən 3 gün keçəndən sonra "Leninqradskaya pravda" qəzetində "Mı iz Kirovabada" ("Biz Kirovabaddanıq") adlı böyük biz yazı çıxdı və altında da Kirovabad ziyalıları kimi təqdim edilən çoxlu sayda yazıçı, şair, alim və s. kəslərin adları varıydı. Onlar "Kirovabad" adıyla fəxr etdiklərini bildirirdilər və "Gəncə" adının qaytarılmasına ehtiyac olmadığını sübut etməyə çalışırdılar. Ey Nüsrət Kəsəmənlinin oğlunun həbsdən azad edilməsi üçün dövlət başçısına müraciət edən ədiblər, yəqin ki, o vaxtkı kirovabadlı "ziyalıların" müraciəti, hətta sizdə ikrah doğurur. Əmin olun, üstündən bir az da keçəcək, sizin ovcunuzun içi kimi dəqiq bildiyiniz siyasi repressiyalara susqun qalmağınız insanlarda daha çox ikrah doğuracaq. Amma əmin ola bilərsiniz ki, sizin ədib istedadınıza zərrə qədər şübhə etmirəm. Ancaq kimliyinizi bəyənmirəm. Məndən soruşsalar, deyərdim ki, siz "Mı iz Kirovabada"nın övladlarısınız.

❑ **Tofiq YAQUBLU**

# "Bu əfvdə daha çox adam azadlığa çıxacaq"

## Novruzda böyük əfv olacağı xəbəri təsdiqini tapmaqdadır; **Mirvari Qəhrəmanlı:** "Hətta məhkəmə qərarı olmayan insanların da azadlığa buraxılmasına çalışırıq..."

**Novruz bayramı yaxınlaşdıqca, əfv sərəncamının veriləcəyi barədə yayılan xəbərlər təsdiqini tapmaqdadır. Siyasi məhbusların yaxınlarının bu bayramdan gözləntiləri yüksəkdir. Verilən açıqlamalar da əfvə olan ümidləri artırır.**

Çoxları hesab edir ki, Novruzda sürpriz olacaq. Əfvin daha çox siyasi məhbusa şamil ediləcəyi deyilir. Bayram öncəsi yayılan əsas xəbərlərdən biri də prezidentə müraciət edən məhbusların əfvə düşmək ehtimallarının yüksək olması ilə əlaqədardır.

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Mirvari Qəhrəmanlı** əfvlə bağlı fəaliyyətlərindən danışdı: "Mütəmadi olaraq işləyirik, əlaqə saxlayır, problemləri müzakirə edirik. Bildiyimiz kimi, İşçi Qrupunda həm hakimiyyətin, həm vətəndaş cəmiyyətinin nümayəndələri, həm də Avropa Şurasının nümayəndəsi təmsil olunur. Vətəndaş cəmiyyəti olaraq, İşçi Qrupunun iclasına hazırıq. Danışacağımız məsələlər bəllidir. Çünki qaldıracağımız problemlər çoxdur. Mənə elə gəlir ki, bu həftə iclasımız olacaq. Bayrama kimi əfv olmalıdır. Doğrudur, müzakirə etdiyimiz insanların çox hissəsi azadlıqda deyil. İşçi Qrupunun işi təkcə siyasi məhbuslarla bağlı deyil. Ölkədə hüquq anlamı çox böyükdür. Təəssüf ki, reqlamentə çox əməl olunmur. Bu vəziyyəti İşçi Qrupuna daxil olan dövlət nümayəndələrinin xarici səfərləri ilə izah etdilər. Toplaşmağımız buna görə çətindir. Çünki mən bir QHT rəhbəri kimi, iclasda iştirak edə bilmirəmsə, məni heç kəs əvəzləyə bilməz.



Bu hamıya şamil edilir. Səbəb yalnız bundan ibarətdir".

**İşçi Qrupunun üzvü əfv ərizəsi yazan 7 siyasi məhbusun azadlığa çıxacaqları barədə yayılan xəbərlərə də aydınlıq gətirdi:** "Bu, kiminsə proqnoz verməyindən irəli gəlir. Belə fikirləri yalnız Əfv Komissiyası deyə bilər. Komissiya isə heç vaxt fikirləri sızdırmır. Biz arzu edirik ki, onlar azad olunsun. Düşünmürəm ki, belə olsun. Bəyəm Qurban Məmmədov əfv ərizəsi yazmışdı? Sadəcə, Q.Məmmədovun işi qaldırdığımız məsələ əsasında müzakirə olunmuşdu. Bütün nüanslar nəzərə alınır. Biz sadəcə müəyyən sübutlar ortaya qoyuruq ki, bu şəxs təcili buraxılmalıdır. Hətta məhkəmə qərarı olmayan insanların belə azadlığa buraxılmasına çalışırıq. Leyla Yunus, İntiqam Əliyev, Rəsul Cəfərovun məsələlərini qaldırdıq. Təbii ki, bizə izah etdilər ki, onları azad edə bilmərik. Hətta məsələ qaldırmışdıq ki, ev dustaqlığına buraxın, burada bizimlə yanaşı əyləşsinlər. Təbii ki, bunun mümkün olmadığını bilirdik. Konkret sualınıza cavab olaraq bildirmək istəyirəm ki, əfv ərizəsi yazan və yazmayan arasında fərq qoyula bilməz. Sübut etdim ki, əfv yazanı da, yazmayanı da azad etdilər. Bəzən hansısa məhbus əfv yazanda, mətbuatda müzakirə mövzusuna çevrilir. Kənardan onları müşahidə etmək, özünü onların yerində təsəvvür etməmək asandır. Allah hamısının qapısını açsın".

Hüquq müdafiəçisi hesab edir ki, veriləcək əfv əvvəlkilərdən böyüklüyü ilə fərqlənəcək: "Bu əfvdə daha çox adam azadlığa çıxacaq. Əsas siyasi məhbusların üzərində dayanırıq. Əfv Komissiyasında olanlar bu bayramın özəlliyini gözəl anlayırlar. Hamısı "Yeni Müsavat"ı oxuyur. Bu sözlərimdən sonra ümid edirəm ki, onlar da barış bayramında daha çox siyasi məhbusun azadlığa çıxmaları istiqamətində müsbət addımlar atacaqlar".

❑ **Cavanşir ABBASLI**

# Müsavatçılar 15 mart mitinqinə qatılacaqmı?

## Başqan müavini bu məsələnin hələ partiyada müzakirə olunmadığını deyir, Tural Abbaslı isə aksiyada iştirakın tərəfdarıdır

**Milli Şura martın 15-i saat 15.00-da "Talana son!" şüarı ilə mitinq keçirəcək. Hələ ki BŞİH-ə mitinq üçün göndərilən məktuba cavab verilməyib. MŞ bəyan edib ki, bu mitinqin keçirilməsinin əsas səbəbi son günlər iqtisadi vəziyyətin daha da ağırlaşmasıdır. Belə ki, ərzaq məhsullarının qiymətinin artması, manatın qiymətdən düşməsi, Azərbaycan iqtisadiyyatının neftdən asılı vəziyyətə salınması, işsizliyin, yoxsulluğun səviyyəsinin yüksəlməsi və digər problemlər bu mitinqin keçirilməsini zəruri edib. Eyni zamanda siyasi məhbusların azadlığı, seçki islahatlarının aparılması tələbi də irəli sürüləcək.**



Sosial şəbəkələrdə mitinqə çağırışlar edilməkdədir, mitinqlə bağlı facebookda "event" də yaradılıb və 7000-dən artıq insan mitinqə dəvət olunub. MŞ-dən verilən məlumata görə, 15 mart mitinqinə şəhid ailələri və Qarabağ qaziləri də dəvətlidir. Onların üzləşdiyi problemlər, hökumət qarşısında tələbləri də mitinqin qətnaməsinə salınacaq.

**AXCP sədrinin müavini Əbülfəz Qurbanlı "Azadlıq"a açıqlamasında bildirib ki, bu mitinq ölkə vətəndaşlarının sifarişidir və ən yüksək səviyyədə hazırlıqlar davam etdirilir:** "...Qarşıdakı günlərdə Azərbaycan cəmiyyətinin ən müxtəlif təbəqələrinə öz mesajımızı çatdıracağıq. Ümid edirik ki, bu mitinq əvvəlki mitinqlərdən daha izdihamlı, daha coşqulu olacaq. Çünki "Talana son!" mitinqi birbaşa Azərbaycan insanının həyatı, yaşayışı, problemləri ilə bağlıdır və vətəndaşın mənafeyinə uyğundur. Hesab edirəm ki, mitinq yüksək səviyyədə baş tutacaq və xalqın ayaqda olduğunun göstəricisinə çevriləcək".

MŞ-nin bir neçə ay əvvəl keçirdiyi mitinqə quruma üzv olmayan Müsavat Partiyasının rəhbərliyi də qatılmışdı. Bəs MŞ-nin 15 mart mitinqində Müsavat partiya olaraq iştirak edəcəkmi? Fərdi şəkildə iştirak edənlər olacaqmı? İştirak edənlər olsa partiyadan buna qadağa varmı?

**Müsavat başqanının müavini Səxavət Soltanlı** bildirdi ki, bu məsələ hələ partiyada müzakirə olunmayıb.

**Müsavat Gənclər Təşkilatının sabiq sədri Tural Abbaslı isə bildirdi ki, şəxsən özü və dostları mitinqə qatılmaq fikrindədirlər:** "Çünki bu mitinq bütün xalqın üzləşdiyi problemlə bağlı keçiriləcək aksiyadır. Bütün vətəndaşlara, partiyadaşlarıma da səslənmək istəyirəm ki, bahalaşma və talançılıq əleyhinə mitinqə qoşulsunlar. Ölkədə bahalaşma, iqtisadiyyatda monopoliya hər kəsin yaşayışına təsir edir. Bu, ümummilli məsələlər sırasına aid məsələdir. Ona görə də hamının iştirakı lazımdır. Bu mitinq ümumilli problemlə bağlı keçirilən aksiya olduğu üçün mən inanmıram ki, tutalım 20 minlik mitinq alınarsa, sabah Milli Şura bundan düşərgədəki rəqiblərinə qarşı siyasi üstünlük kimi istifadə eləsin. Çünki bu mitinq siyasi gücün göstəricisi yox, bir problemə etirazın təşkilidir. Hər bir siyasi partiyanın belə anlarda vəzifə borcudur ki, bu cür etiraz aksiyalarını təşkil eləsin. Milli Şura bunu təşkil edirsə, düşünürəm ki, Müsavat Partiyasının da orada iştirak eləməsi labüddür. Müsavatın indiki rəhbərliyinə də tövsiyəm o olardı ki, mitinqdə iştirak edilsin".

**T.Abbaslı onu da dedi ki, əslində 15 mart da mitinq üçün kifayət qədər gec sayılmalıdır. Mitinq manatın ucuzlaşması baş verəndən dərhal sonra keçirilməli idi:** "Müsavat Partiyası əvvəllər bu cür hallarda təcili mitinq qərarı verirdi. Yaxşı olardı ki, indiyə qədər olduğu kimi bu dəfə də Müsavat dərhal mitinq qərarı verib onu təşkil edəydi. Lakin təəssüf ki, bu edilmədi. Milli Şura mitinq qərarı verdisə də əslində seçilən tarix düzgün seçilmədi. Bu aksiya manatın ucuzlaşmasından təxminən 1 ay sonraya təsadüf edir. Aksiyanı tez keçirmək lazım idi. Kütləviliyin necə olmasından narahatlıq keçirmədən, heç nədən çəkinmədən Müsavat Partiyası dərhal mitinq qərarı verməli idi. Amma hər halda, gələcəkdə yenə Müsavat bu cür vəziyyətlərdə öndə olacaq".

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 53 (6081) 10 mart 2015

**Uzun müddətdir "qara zolağa" düşən biznesmen, nəqliyyat naziri Ziya Məmmədovun keçmiş şəriki "Hafka" ləqəbli Hafiz Məmmədov xeyli müddət idi ki, ictimaiyyət arasında görünmürdü. Sahibi olduğu "Bakı" futbol klubunda davam edən maliyyə böhranı, Fransanın "Lans" klubuna yığılıb qalmış borcu, üstəlik, Vergilər Nazirliyinin də son günlər israrla borcunu ödəməsi tələbi onun işlərinin hələ də yaxşı getmədiyini göstərir. Xatırladaq ki, Vergilər Nazirliyi son hesabatında borcunu ödəməyən vergi ödəyiciləri siyahısına "Hafka"nın klubunun da adını daxil edib. Nazirlik futbol klubunun rəhbərliyinə vergi borcunu ödəmələri barədə xəbərdarlıq göndərib.**

# "Hafka" danışdı və kimlərə nə mesaj göndərdi?

## Hafiz Məmmədovun borcla bağlı iddiasına Mübariz Mənsimov hələ də cavab verməyib; müflisləşmiş iş adamı ona ayrılan "aylıq"dan narazıdır



H.Məmmədov, nəhayət, ötən həftəsonu AFFA-nın İcraiyyə Komitəsinin iclasında görünüb və sensasion sayıla biləcək açıqlamalar verib. O, jurnalistlərə açıqlamasında Türkiyədə yaşayan iş adamı Mübariz Mənsimovu hədəf götürüb. "Hafka" deyib ki, "Palmali" şirkəti onun rəhbəri olduğu "Baghlan group"a olan borcunu qaytarmır. "Biz "Lans" klubuna pul ödəməliyik. Bu olmasa, sabah klubun oyunçuları, azarkeşləri arasında ciddi narazılıq yarana bilər. Onlar təcili olaraq bizə olan borcunu qaytarmalıdır. Əks halda, bunun yaxşı nəticələri olmaya bilər" deyə, iş adamı bildirib.

H. Məmmədov Türkiyənin ən varlı iş adamları listəsində olan Mübariz Mənsimovun şirkətinin ona necə borclandığının təfərrüatlarını açıqlamayıb. Amma güman edilir ki, söhbət "Baghlan group"un da məşğul olduğu neft daşımalarından yığılan borcdan gedir. Məlumdur ki, Mübariz Mənsimovun biznesinin əsasını neft daşımaçılığı təşkil edir. "Palmali" Şirkətlər Qrupuna aid dənizçilik şirkəti təxminən 1,5 milyard dollarlıq varidata malikdir. Belə bir vəziyyətdə M.Mənsimovun "qürub edən" iş adamına borclanması həqiqətən də maraqlı görünür. Ehtimallara görə, "Hafka" M. Mənsimovdan bir neçə milyon borcunu istəyir. Maraqlıdır ki, Türkiyədə yaşayan iş adamı hələ də bu məsələyə aydınlıq gətirməyib.

Hafiz Məmmədovun "Baghlan group" haqda danışarkən "mənim" ifadəsini xüsusi işlətməsi də diqqət çəkir. Nəqliyyat naziri ilə aralarında olan narazılıqlar səbəbindən şərikliklərinə son verən, hakimiyyətdəki mövqeləri tam zəifləyən, biznes strukturları isə çökdürülən "Hafka"nın "Baghlan group"da hələ də para qazanması maraq doğurmaya bilməz. "Baghlan group"un xarici ölkələrə neft və neft məhsulları daşınmasında qismən paya sahib olması sirr deyildi. Düzdür, bu o qədər də böyük paralar deyil. Amma bu illik dövriyyədə milyonlarla dollar edir. Bu para isə "Hafka"nın tam iflas olmaması üçün az da olsa kömək-dir. İş adamının M.Mənsimova yönəlik "əks halda, bunun yaxşı nəticələri olmaya bilər" mesajı da onu deməyə əsas verir ki, nəqliyyat naziri ilə münasibətləri gərgin ola "Hafka"nın hələ də arxasında duran qüvvə(lər) var. Mümkündür ki, "Hafka" bu açıqlama ilə Mənsimovun hakimiyyətdəki dəstəkçilərinə "məndən borcunuzu istəyirsizsə, o zaman borcumu qaytarın" mesajı ilə susdurmaq da istəsin...

Yeri gəlmişkən, Hafiz Məmmədovun biznesinin sıxışdırılmasından yazan azpolitika.info saytı da maraqlı bir məlumatı bölüşüb. Saytın xəbərinə görə, "Hafka" nə qədər sıxışdırılsa da, tamamilə "ac" buraxılmayıb. Belə ki, əvvəllər H.Məmmədova məxsus biznes subyektlərindən əldə olunan gəlirdən ona ümumilikdə aylıq 1 milyon manat həcmində pay ayrılıb. "Məlumata görə, "Hafka" bu vəziyyətdən son dərəcə narazıdır, hətta "mən bu pulla nə edə bilərəm" deyə, narazılığını açıq şəkildə dilə də gətirir" deyə, saytın məlumatında bildirilir.

❑ Xəbər xidməti

# Hökumət siqaret mafiyasına təslim oldu...

**Hökumət manatın devalvasiyasından sonra ölkə bazarlarında yaranan xaosun qarşısını almağa qismən nail olsa da, tütün məmulatlarında qiymət artımının qarşısını almaq mümkün olmadı. Manatın ucuzlaşmasının ardından ilk olaraq siqaretin qiyməti sıçrayışla artdı. Hətta bu artım devalvasiya faizindən də artıq idi. Daha sonra cəmiyyətdə yaranan etirazlardan narahat olan hökumət siqaretin qiymətini əvvəlki həddə qaytarmağa cəhd etdi.**



**Natiq Cəfərli:** "Hökumətin sovetdən qalma üsulla bazarı tənzimləməyə çalışmaq istəyi çox ciddi problemlərə gətirib çıxaracaq"



**Vahid Əhmədov:** "İnzibati yolla uzun müddət qiymət artımının qarşısını almaq mümkün deyil"

İki gün ərzində ölkə bazarlarında siqaret yoxa çıxdı. Daha sonra hazırkı qiymətlərlə siqaret yenidən bazara qayıtdı. Ancaq bu qayıdış əhalinin arzuladığı kimi əvvəlki qiymətlərlə olmadı. Daha aşağı faizlə, devalvasiyaya uyğun olaraq bahalaşma öz sözünü dedi. Bazarlarda apardığımız müşahidələrə görə, əvvəllər 1.6 AZN-ə satılan "Kent 8" devalvasiyanın ilk günlərində 2.4 AZN idisə, hazırda 2 AZN-dir. 1.2 manata satılan "L-D" markalı siqaret devalvasiyanın ilk günlərində 1.8 AZN oldu, son dəyişiklikdən sonra 1.5 AZN-ə satılır. Əvvəllər 70 qəpiyə satılan "Classic" hazırda 90 qəpikdir. 1.6 manatlıq "Davidoff" 2 manata, 2 manatlıq "Sobranie" siqareti isə 2.5 manata satılır.

Təbii ki, bu son qiymətlər deyil. Müxtəlif market və mağazalarda qiymətlər bir-birindən fərqlənir. Bu prosesdən görünən odur ki, hökumət digər məhsulların qiymətini tənzimləməyi bacarsa da, ölkədə siqaret inhisarçılığı ilə məşğul olan şəxslər qarşısında söz keçirə bilmədi. Hər kəsə məlumdur ki, Azərbaycanda ticarətin müxtəlif sahələri ayrı-ayrı vəzifəli şəxslərin əlində cəmləşib və bir neçə şəxsin monopoliyasındadır. Həmin şəxsləri qarşısına almaq istəməyən hökumət siqaretin bahalaşması ilə barışmalı oldu və Milli Məclisin qərarı ilə aksiz dərəcələrini artıraraq büdcə gəlirlərinin artmasını təmin etməyi seçdi.

**Siqaret satışı ilə bağlı son durumu şərh edən iqtisadçı ekspert Natiq Cəfərli manatın devalvasiyasından sonra siqaretin bahalaşmasını təbii proses kimi dəyərləndirdi:** "Ümumiyyətlə, mən bu iki məsələnin bir-birindən ayrılmasının tərəfdarıyam. Siqaret və içki ilə bağlı aksiz dərəcələrinin artması heç bir ölkədə bizdə olduğu qədər kompleks yaratmır. Azərbaycan hökumətində nədənsə, bu kompleksi yaratdı və cəmiyyətdə etirazlara səbəb olmamaq üçün yenidən qiymətin aşağı endirilməsinə qərar verdi. İki-üç gün ərzində bazarda bir xaos yarandı. Sonradan qiymətlər yenə yüksəldi. Siqaret gündəlik tələbat məhsulu deyil. Burada qiymətin artması vergilərdən və aksizlərdən gələn gəlirlərin büdcəyə axması ilə nəticələnirsə, buna normal bir proses kimi baxmaq lazımdır. Dünyanın bir çox ölkələrində bu, hökumətin əlində büdcə vəsaitlərinin artırılması üçün bir vasitədir. Azərbaycan hökuməti o qədər həssas və kövrəkdir ki, bu kimi məsələlərdə ictimai rəydə narazılığın yaranmasından çəkinir. Son proseslər də bunu göstərir. Əslində isə aksizlərin və vergilərin qalxmasından sonra xaricdən gətirilən tütün məhsullarının, spirtli içkilərin qiymətinin artması çox normal haldır. Ümumiyyətlə, qiymətlərə inzibati yolla nəzarət etmək səhvdir. Dövlətin inzibati üsullara əl atması iş adamlarını digər yollara vadar edəcək. Bu, xaricdən daha keyfiyyətsiz və ucuz tütün məhsullarının ölkəyə gətirilməsinə səbəb olacaq. İş adamları qiymətləri artırmamaq üçün keyfiyyətsiz məhsulları bazara çıxaracaqlar. Bu da ərzaq təhlükəsizliyini təhdid edən bir məsələdir və insanların sağlamlıqlarına birbaşa təsir edir".

**Ekspert bildirdi ki, hökumət qiymət artımı ilə mübarizə aparmaq üçün kiçik sahibkarları deyil, iri inhisarçıları hədəfə götürməlidir:** "Xaricdən gətirilən məhsulların maya dəyərində 35 faiz artım olub. Bunu iş adamları özbaşına qarşılaya bilməzlər. Hökumətin burada atmalı olduğu addım ondan ibarətdir ki, bazarı daha çox liberallaşdırsın və daha çox məhsulun və xidmətlər təklif edən şirkətlərin sayı artsın, inzibati maneələr, inhisarçılıq və korrupsiyanı aradan qaldırsın. Bu problemləri həll etmədən, sovetdən qalma üsulla bazarı tənzimləməyə çalışmaq istəyi çox ciddi problemlərə gətirib çıxaracaq. Süni qiymət artımı ilə mübarizə ifadəsi liberal bazar anlayışı ilə ziddiyyət təşkil edir. Süni qiymət artımı ilə mübarizə normal iqtisadi məkanlarda inhisarçı şirkətlərin qiymət sövdələşməsinə getməsinin qarşını almaq üçün aparılan nəzarətdir. Yəni hər hansı şirkət bazarın 30 faizindən çoxuna nəzarət edirsə, onda dövlət çox ciddi şəkildə nəzarət edir ki, digər şirkətlərlə qiymət sövdələşməsinə getməsin".

**Ekspert süni qiymət artımı ilə mübarizə adı altında aparılan inzibati tədbirlərin kiçik və orta sahibkarlığı sıradan çıxaracağını istisna etmədi:** "Azərbaycanda isə süni qiymət artımı ilə mübarizə adı altında pərakəndə satışla məşğul olan kiçik sahibkarlarla mübarizə aparılır. Bu, absurd yanaşmadır. Pərakəndə satışla məşğul olan mağaza sahibi süni qiymət artımı ilə məşğul olmur. Bu iri inhisarçı şirkətlərin həyata keçirdiyi qiymət atımıdır. Hökumətin məqsədi budursa, elə hökumətdə təmsil olunan yüksək vəzifəli şəxslərin birbaşa və dolayısı ilə nəzarətində olan inhisarçı şirkətlərlə mübarizə aparsın. Kiçik sahibkarlarla mübarizə heç bir effekt verməyəcək. Əksinə, bu, kiçik və orta biznesi çökdürəcək. İnsanlar iş yerlərini itirəcəklər. Hökumət bu prosesdə vergiləri və aksizləri qaldıraraq daha çox gəlir əldə etməyi düşünməlidir. İnhisarçı şirkətlərin marağını deyil, dövlətin marağını önə çəkərək məhz həmin şirkətlərə tətbiq olunan aksiz vergisini artırmaqla büdcəyə ciddi şəkildə vəsaitin daxil olmasını təmin etmək olar".

**Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov da xaricdən idxal olunan məhsullarda qiymət artımının gözlənilən olduğunu bildirdi:** "Biz Milli Məclisdə qərar qəbul etmişik ki, tütün məmulatlarının, qızıl məmulatlarının və digərlərinin aksiz dərəcələrini artırmışıq və qanun mart ayının 1-dən qüvvəyə minib. Bununla əlaqədar tütün məhsullarının da qiyməti artıb. Düzdür, hökumət müəyyən qədər qiymət artımlarının qarşısını almağa çalışır. Ancaq yeni aksiz dərəcələri qüvvəyə mindikcə, artım olacaq. Hazırkı artıma gəlincə, bu məhsullar xaricdən idxal olunur və dolların bahalaşmasına görə qiymətin artması normaldır. İnzibati yolla uzun müddət qiymət artımının qarşısını almaq mümkün deyil. Ancaq artım 10-12 faizdən artıq olmamalıdır. Bahalaşmanın qarşısını inzibati yolla almaq mümkün deyil. Çünki bazarın da öz prinsipləri var. İdxal olunan malların hamısında qiymət artımı normaldır".

❑ Nərgiz LİFTİYEVA



# Hakim partiyadan kontur-gediş

# YAP deputatları ilə bağlı sensasion araşdırma

## Demək olar ki, bütün dairələrdə başlamış araşdırma bəzi narahatedici nəticələr üzə çıxarıb və deputat mandatını təhvil vermək istəməyənlər fakt qarşısında qoyulub; kimlərin YAP-ın namizədlər siyahısında olacağı bu təhlillərin sonunda bilinəcək...

**İqtidar yaxınlaşmaqda olan Avropa Oyunlarına ciddi önəm versə də, səkkiz ay sonra Azərbaycanda keçiriləcək parlament seçkiləri ilə bağlı hazırlıqlar da davam edir. Ötən saylarımızda xəbər verdiyimiz kimi, YAP noyabr seçkilərində bəzi "əvəzolunmaz" deputatlarla vidalaşmaq niyyətindədir. Hakim partiya funksionerləri öz açıqlamalarında oktyabrın sonuna yaxın açıqlanacaq namizədlər siyahısında "ciddi seçim" ediləcəyi barədə xəbərdarlıq səsləndiriblər. Məlumatlarda o da bildirilir ki, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin səhhətində problemlər olması və böyük ehtimalla noyabr seçkilərinədək bu posta yeni təyinatın olacağı bu dəfə YAP-ın siyahısının müəyyənləşməsi ilə bağlı fərqli situasiya yaradıb.**

Məlumdur ki, neçə illərdir parlament seçkilərində deputat siyahısının müəyyənləşməsində Prezident Administrasiyası (PA) rəhbərinin ciddi rolu olub. Siyahının müəyyənləşməsində hakimiyyətdaxili qruplaşmaların, xüsusilə məmur-oliqarxların mənafeyinin nəzərə alındığı aydındır. Amma YAP siyahısından deputat olmaq istəyən bəzilərinin arzusu məhz PA rəhbəri ilə şəxsi münasibətinin gərgin olması səbəbindən gerçəkləşə bilməyib. Situasiyanın dəyişməsi ilə YAP rəhbərliyinin siyahının müəyyənləşməsində ciddi mövqe üstünlüyü əldə etdiyi iddia olunur. Xəbərlərə görə, 2013-cü il seçkisindən sonra baş nazirin müavini portfelinə yiyələnən YAP-ın icra katibi Əli Əhmədovun mövqeləri son aylar xeyli möhkəmlənib. Payızda keçiriləcək seçkilərdə hakim partiyanın 125 dairədən namizədlər siyahısının müəyyən edilməsində əsas rol da Ə.Əhmədova həvalə edilib.

Siyahının müəyyənləşməsində deputat mandatını təhvil vermək istəməyənlərin ciddi müqavimət göstərdiyi, bəzi nazir övladlarının mandat həvəsinin də YAP-ın "mühafizəkar qanadı"nda narazılıq yaratdığı da söylənilən iddialar arasındadır. Amma hakim partiya bu cür narazılıqları önləmək üçün artıq ciddi hərəkətə keçib.

Belə ki, YAP bir neçə müddətdir demək olar ki, bütün dairələrdə xüsusi araşdırmaya başlayıb. Bu barədə "Yeni Müsavat"a məlumat verən mənbənin sözlərinə görə, araşdırma bəzi biabırçı nəticələr üzə çıxarıb. Məlum olub ki, Bakı və Bakıətrafı rayonların bəzilərində seçicilər öz deputatlarının hətta adını belə bilmirlər. Üstəlik, bəzi dairələrdə deputatlar onlarla seçicilərin görüşü üçün ayrılmış qəbul yerlərində olmayıblar. Bu araşdırma-sorğular Milli Məclisin qarşısına toplaşan seçicilər arasında da keçirilib və yenə ən çox narazılığın məhz Bakı rayonlarından olan deputatlardan olması müəyyən edilib. Bu yarıgizli araşdırma barədə məlumat alanlar tələsik "fəaliyyətlərində dönüş yaratmaq" istəsələr də artıq gec olub...

**YAP icra katibinin müavini Siyavuş Novruzov da belə bir araşdırma aparıldığını təsdiqləyib. O, "Trend"ə açıqlamasında bildirib ki, araşdırma üçün hər seçki məntəqəsi üzrə 3-4 nəfər təyin edilib.** "Bunlara seçicilərin öyrənilməsi üzrə təlimlər keçirilir. Burada həm seçicinin hansı partiyaya mənsub olması, siyasi baxışları, rəyləri, demoqrafik vəziyyət, seçicilərin yaşı və digər məsələlər öyrəniləcək", - deyə, S.Novruzov bildirib. YAP rəsmisi onu da deyib ki, seçki dairələrindəki problemlərin nədən ibarət olması, onları aradan qaldırmağın yolları və digər məsələlərlə bağlı geniş təhlil işləri aparılır: "Bu təhlillər bitdikdən sonra biz hansı seçki dairəsindən hansı xaraktercə malik namizəd irəli sürülə biləcəyini müəyyənləşdirəcəyik".

YAP-ın bu araşdırmaya başlaması "vurulacaq deputatlar" siyahısında adı hallananların narahatlığını daha da artırıb. Məlumatlı mənbə onu da deyib ki, Prezident Administrasiyasının rəhbəri ilə bağlı məlum müəmma da bəzilərinin çaşqınlığını artıran səbəblər sırasındadır. YAP siyahısında adını görmək arzusunda olanların hər birinə deyilib ki, yalnız bu araşdırmalar dövlət rəhbərliyinə təqdim edildikdən sonra nəticə bilinəcək. Məhz bu səbəbdən ötən seçkilərdə hətta bir neçə ay əvvəldən ürəklə deputatlıq iddialarını ortaya qoyanlar indi "bu barədə danışmağın tez olduğunu" və ya "YAP-ın qərarı nə olacaqsa..." deməklə kifayətlənirlər.

Belə görünür ki, noyabr seçkilərində YAP-ın siyahısında ciddi dəyişikliklər olacağı barədə xəbərlər gerçəyi əks etdirir və mümkün narazılığı önləmək üçün hakim partiya da kontur-gedişə məcbur olub.

❑ **"Yeni Müsavat"**

# Azərbaycanın ombudsman problemi...

## Hazırda ölkəmizdə insan haqları üzrə müvəkkillik institutu yox dərəcəsindədir; xanım ombudsmana qarşı ciddi tənqidlər var...



Elmira Süleymanova

**Martın 1-də İnsan Haqları üzrə müvəkkil (ombudsman) Elmira Süleymanovanın 80 yaşı tamam oldu. Xanım ombudsman yubiley ərəfəsində cəmiyyət və mətbuatın ciddi qınaq obyektinə çevrilməyə başlayıb. Yaşının çoxluğu ilə əlaqədar onun vəzifəsindən getməsini tələb edənlər günü-gündən çoxalır.**

Reallığa baxsaq, qeyd edə bilərik ki, hazırda Azərbaycanda bu sistem yox dərəcəsindədir. Yalnız ildə bir dəfə Milli Məclis qarşısında hesabat verdiyi zaman Ombudsman Aparatının varlığı yaddaşlara qayıdır.

Oxucularımızı qısa da olsa, ombudsmanının vəzifə, hüquqları barədə tanış etmək istədik.

Ombudsman - İsveç mənşəli sözdür. Mənası agent və ya sədr deməkdir. Parlament tərəfindən insan hüquq və azadlıqlarının müdafiəçisi kimi səlahiyyət verilən, dövlət funksiyalarının daşıyıcısı olan vəzifəli şəxslərin üzərində birbaşa parlament nəzarətini həyata keçirən, lakin onlar tərəfindən qəbul edilmiş qərarları dəyişdirmək hüququ olmayan, etibarlı və layiqli vəzifəli şəxs başa düşülür. Avropa Birliyi ölkələrində yaşayan şəxslərin, qurumların və şirkətlərin haqlarını hər hansı bir pis idarəetmə tətbiq olunması qarşısında qorumaqla vəzifələndirilmiş yoxlama qurumu və şikayət müraciəti olunan yerdir.



Natiq Miri

Bu sistemin əsas səciyyəvi cəhətlərindən biri tam müstəqilliyə malik olmasıdır. Yalnız Milli Məclis qarşısında hesabat verir. Ombudsman tamamilə azad və tərəfsiz işləyir, heç bir ölkə və ya qurumdan məsləhət və ya məlumat almır.

Ölkə prezidenti tərəfindən 5 mart 2002-ci ildə "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" fərman imzalanıb. Həmin ilin 2 iyulunda parlament tərəfindən prezidentin təqdim etdiyi üç namizəd arasından Elmira Süleymanova sədr seçilmişdi. İndiyə qədər E.Süleymanova bu qurumun sədri olaraq qalmaqda davam edir. O, həmçinin media ombudsmanı səlahiyyətlərini icra edir.

Göründüyü kimi, Ombudsman Aparatının böyük səlahiyyətləri var. Lakin bunlardan istifadə olunmur. Azərbaycanda siyasi məhbus problemi günbəgün artmaqdadır. Media iflic vəziyyətindədir. Amma ombudsman susur.

**Elmira Süleymanovaya qarşı tənqidlər artıq iqtidar daxilində də səslənməyə başlayıb. Milli Məclisin son iclasında 2014-cü ilin hesabatını təqdim edən E.Süleymanovanın çıxışı zamanı iqtidaryönlü deputat Fəzail Ağamalı təkidlə söz istəyib. Lakin sədarət onun çıxışına şərait yaratmayıb. İclasdan sonra F.Ağamalı "Yeni Müsavat"a açıqlamasında E.Süleymanovanın əleyhinə tənqidi fikirlər səsləndirib:** "Hesabatla tanış olanda məlum oldu ki, daha çox ayrı-ayrı qurumların üzərinə düşən vəzifələrin, eyni zamanda konkret söz, fikir, vicdan azadlıqlarının təşviqinə yer verilir. Həmçinin ona müraciət edənlər haqqında ayrı-ayrı qurumlarla gördüyü işlərin statistik məlumatlarına daha çox üstünlük verir. Bu isə ombudsman üçün kifayət deyil. Məni daha çox düşündürən, qayğılandıran məsələ ombudsmanın özünün imkanlarından istifadə edərək beynəlxalq səviyyədə Azərbaycanla bağlı məsələlərin qaldırılmamasıdır. Kimin nə deməsindən asılı olmayaraq yaş öz sözünü deyir. Elmira xanım öz işində ciddi dönüş yaratmalı, dövlət maraqlarına söykənərək, anti-Azərbaycan kampaniyasına ombudsman kimi öz sözünü deməli və onun qarşısında dayanmalıdır".

**Politoloq Natiq Miri hesab edir ki, Azərbaycanda ombudsmanın fəaliyyətinin olmamasının səbəbi təkcə yaşla bağlı deyil:** "Problem müvəkkilin hansı yaşda olmasında deyil, idarəetmə sisteminin mahiyyətindədir. Bu gün Azərbaycanda bəzi strukturlar formal xarakter daşıyır. Bu strukturların rəhbərləri sərbəst fəaliyyət göstərməyə malik deyillər. Təşəbbüskarlıq deyilən bir dəyər artıq yoxdur. Bu baxımdan bizdə fəaliyyət göstərən bir çox strukturlar, hətta hakimiyyət bölgüsündə iştirak edən parlament və məhkəmə hakimiyyətinin özü də formal fəaliyyət göstərir. Milli Məclis Prezident Administrasiyasından gələn sənədlərin təsdiqindən başqa heç bir fəaliyyətlə məşğul deyil. Orada gedən siyasi müzakirələr də formaldır. Görüntü xarakteri daşıyır. Sistem dəyişmədikcə, ən demokratik ruhlu gənc adam ombudsman olsa da, cızılmış çərçivədən kənara çıxa bilməyəcək. Demokratik idarə üsulu formalaşmalıdır. Bunlar olmadıqca, ombudsmanın işləməməsi təbiidir".

**Natiq Miri hazırkı ombudsmanın da Azərbaycandakı insan haqlarının durumundan razı olmadığını qeyd etdi:** "İnanmıram ki, indiki ombudsman ölkəmizdəki insan haqlarından razı olsun. Təbii ki, razı deyil. Bunu həyata keçirəcək iradəyə malik deyil. Çünki o hüquqlar ona verilməyib. Onun üçün cızılmış dairəni gözəl anlayır. Orada bu yaşda nə üçün oturduğunun fərqindədir. Təbii ki, gənclər daha enerjili, çevik, dinamik, təşəbbüskardırlar. Onların olması məqsədəuyğun ola bilər. Amma problem bunda deyil. Problem bu institutun fəaliyyət imkanını həyata keçirə bilməməsində və bu imkanın tanınmamasındadır".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 53 (6081) 10 mart 2015



# Rusiya ilə müharibə etmək mümkündürmü?

**Hüseynbala SƏLİMOV**

**8 Mart ərəfəsi, yazın gəlişi, bir-birini əvəz edən çərşənbələr çox maraqlı siyasi xəbəri–ABŞ-ın Ukraynaya 300 hərbçi göndərməsi haqdakı xəbəri bir az kölgədə qoydu, ya sadalanan amillər ucbatından, ya da ki, Ukraynaya aid xəbərlərə artıq alışdıqlarından, insanlar buna bir o qədər də diqqət ayırmadılar.**

Həm də xəbər gah təkzib olundu, gah da təsdiq. Amma Rusiyanın hərbi gücünə elə də böyük önəm verməsək də onun kəşfiyyat xidmətlərinin peşəkar olduğunu etiraf etməliyik, hər halda, Rusiyanın təhlükəsizlik xidmətləri "qulaqlarının dibində" ABŞ-ın nə etdiyindən və yaxud da etmək istədiyindən xəbərdar olmaya bilməzdilər...

Ona görə də belə hesab edirik ki, ABŞ həqiqətən də Ukraynaya məhdud canlı qüvvə və texnika göndərmişdi. Buna cavab olaraq Rusiya da Stavropolda iki aylıq hərbi əməliyyatlara başladı...

İndi maraq doğuran prosesin sonrakı inkişafıdır. Rus təhlilçiləri belə hesab edir ki, ABŞ müharibəyə həssas regionda siyasi avantüra ilə məşğuldur. Təbii ki, biz bununla razılaşa bilmərik, görünür, okeanın o tayında da təhlilçilər hər şeyi götür-qoy edirlər...

Əvvəldən demişik ki, Rusiya Ukraynada güc görməsə yerində oturmayacaq və bu bölgədə rahatlıq olmayacaq.

Heç də vacib deyil ki, Ukrayna daha ciddi hərbi əməliyyatlara başlasın, ən azı bu Minsk razılaşması deyilən prosesi də sınaqdan keçirmək lazımdır, kim bilir, bəlkə nəticəsi oldu?

Elə Ukraynadan da gələn xəbərlərdə də ilk növbədə bu ovqat duyulur, kobzarların ölkəsi maksimum dərəcədə çalışır ki, Minsk prosesi həqiqətən də bir nəticə versin, bunun üçün həm atəşkəs rejiminə riayət etməyə cəhd edir, ya da ki, özünün ağır texnikasını döyüş bölgələrindən uzaqlaşdırmağa çalışır...

Amma ölkədə başqa ovqat da var- bəzi siyasətçilər və siyasi qruplar, onların içində hakimiyyətə yaxın olanları da az deyil, Rusiyaya qarşı daha ciddi həmlə və təzyiqin tərəfdarı kimi çıxış edirlər...

Amma məsələ bir suala dirənib: Rusiya ilə müharibə etmək mümkündürmü? Əgər bir vaxt ABŞ və NATO bu sualın yaratdığı potensial baryeri aşmasaydı bəlkə də Yuqoslaviyada hələ də qanlı müharibələr gedirdi...

Amma onlar bu baryeri aşa bildilər və Yuqoslaviyaya müdaxilə etdilər. İndi də Rusiyanın hərbi mifini dağıtmağın vaxtıdır. Əslində bu mif heç də ciddi və sarsılmaz dayaqlar üstündə qərar tutmayıb...

Rusiyanın ən yaxşı vaxtında onun tam büdcəsi ABŞ-ın hərbi büdcəsinin düz yarısından azını təşkil edirdi. Rusiya mifi Əfqanıstanda dağıldı. Bəli, əfqanlar sübut etdi ki, Rusiya ilə vuruşmaq mümkündür.

Rusiya mifi Yuqoslaviyada dağıldı. ABŞ və NATO sübut etdi ki, dünya məsələlərində Rusiyanı nəzərə almamaq da olar. Rusiya mifi Çeçenistanda dağıldı, çeçenlər sübut etdi ki, bəs, kiçik bir xalq da Rusiya hərb maşınına qarşı duruş gətirə bilər...

Təbii ki, indi ABŞ və müttəfiqləri hər şey edirlər. V.Putin başını itirib və bilmir ki, nə etsin? Durub özünün və nazirlərin maaşını 10 faiz azldır ki, bəlkə bu yolla büdcəni xilas etmək mümkün oldu. Amma gülünc deyilmi?

Bundan sonra belə gülünc qərarların sayı bir az da artacaq. Təbii ki, etiraz edə bilərlər ki, Ukrayna Yuqoslaviya deyil, Rusiya o vaxt Şərqi Avropadan özünün mandatını geri çəkmişdi. Düzdür, amma elə Yuqoslaviya da Rusiyaya dost ölkə hesab edilirdi, o vaxt da "Slavyanlar qırılır!" kimi şüarlar səslənirdi.

Bəli, deyə bilərlər ki, o vaxt zaman başqa idi, Rusiya indiki Rusiya deyildi. Bu da düzdür. Amma heç indiki Rusiya da bir şey deyil, bu ölkəni, vur-tut, 200 milyard dollarlıq ehtiyat "danışdırırdı", böyük ehtimalla həmin ehtiyatı elə bu il yeyəcək və üstündən də su içəcəklər...

Deyə bilərlər ki, serblər bir başqa, ruslar özləri tamam başqa, Ukraynada qovğa olsa, ölənlər ruslar olacaq və Rusiya da buna biganə qala bilməyəcək və mütləq prosesə müdaxilə etməyə çalışacaq...

Bu da düzdür. Amma ciddi müdaxilə olanda münaqişə bölgəsində ciddi polyarlaşma da olacaq, məlum olacaq ki, bu dəfə də atan kazaklardır, ruslar, bəli, sadə ruslar heç də müharibə etmək və qırılmaq istəyində deyillər...

Burada yada İ.Kantdan bir detal düşür. Fəlsəfi paraqdiqmaları sübut etmək üçün onun gətirdiyi dəlilərin sayı onları inkar etmək üçün lazım olan dəlilərin sayı qədərdir...

Bu nə dümədir? O deməkdir ki, istənilən məntiqi sxem qüsurludur. Həyat isə daha rəngarəngdir. Görək, bu dəfə həyat həzrətləri özü nə göstərəcək?..

# Qərbdən gələn tənqidlərə müxalifətdən reaksiyalar

**Azərbaycanda keçiriləcək birinci Avropa Oyunları yaxınlaşdıqca, ölkəmizə qarşı tənqid və təzyiq xarakterli çağırışların artdığı müşahidə olunmaqdadır. Avropanın bir sıra tanınmış media orqanları son günlər xüsusi fəallıq nümayiş etdirirlər. Avropa ölkələrinə Azərbaycanda keçiriləcək Avropa Oyunlarını boykot etmək çağırışını edirlər.**

Əsas qabardılan və arqument kimi təqdim edilən isə Azərbaycanda siyasi məhbusların sayının çoxluğu, insan haqlarının durumudur. Dünyanın ən nüfuzlu media orqanlarından olan Almaniyanın "Der Spiegel", "Focus" jurnalları, Böyük Britaniyanın "The Daily Mail" qəzeti, dünyanın iki ən çoxtirajlı jurnalından biri olan "The Economist" nəşri bu mövzuya xüsusi yer ayırırlar.

Bu çağırışlara Azərbaycan müxalifətinin necə baxdığını öyrənmək üçün aparıcı partiyalardan bir neçəsi ilə əlaqə saxladıq.

**Müsavat Partiyasının başqanı Arif Hacılı** bildirdi ki, yaranmış problemi təbii hesab edir. Çünki hakimiyyət Avropa Oyunları kimi tədbirlərin ölkəmizdə keçirilməsini, bununla da Azərbaycanın sivil dünyanın bir parçası olduğunu nümayiş etdirmək istəyirsə, dünyada qəbul olunan şərtlərə də əməl etməlidir: "Azərbaycan hakimiyyəti bir çox beynəlxalq qurumlar qarşısında siyasi məhbusların olmaması, normal siyasi rəqabət şəraitinin yaradılması, azad mətbuata imkan veriləcəyi, fundamental insan haqlarının qorunacağı barədə öhdəliklər götürüb. Ona görə də indi Qərblə Azərbaycan hökuməti arasında yaranmış problemin həllinin çox sadə bir yolu var.



**Arif Hacılı:**
"Qərblə Azərbaycan iqtidarı arasında yaranmış problemin həllinin çox sadə yolu var"



**Mirmahmud Mirəlioğlu:**
"Beynəlxalq dairələr bu dövrü siyasi məhbus probleminin həlli üçün şans hesab edir"

Azərbaycan hakimiyyəti qarşıdan Novruz bayramının gəldiyini nəzərə alaraq siyasi məhbus problemini həll etməlidir. Eyni zamanda payızda parlament seçkilərinin keçiriləcəyini nəzərə alaraq, ölkədə normal seçkiqabağı şəraitin yaradılması, seçki qanunvericiliyində demokratik islahatların aparılması, bərabərhüquqlu təbliğat imkanlarının yaradılması üçün çox ciddi islahatlar aparmalıdır. Hesab edirəm ki, hakimiyyət bu addımları atsa, qeyd etdiyimiz problem aradan qalxar. Yeni Qərb mətbuatında, beynəlxalq qurumlarda Azərbaycan hakimiyyətinin fəaliyyəti ilə əlaqədar mövqelərdə dəyişiklik baş verər. Eyni zamanda Azərbaycan cəmiyyətinin özündə də qarşıdurmanın aradan qalxmasına şərait yaranar. Əgər Novruz bayramı ərəfəsində hakimiyyət bu imkanı dəyərləndirməsə, aprel ayından başlayaraq ölkədə daxili siyasi qarşıdurmanın kəskinləşməsi qaçılmaz olacaq".

**KXCP sədri Mirmahmud Mirəlioğlu hesab edir ki, tənqidlərdə və çağırışlarda qeyri-adi bir şey yoxdur. İnsan haqları müdafiəsi ilə məşğul olan müəyyən təşkilatlar hesab edir ki, Azərbaycanda siyasi məhbus probleminin həlli üçün ən uyğun zaman indidir. Ona görə də Azərbaycan hakimiyyətinə bu problemi həll etmək üçün təsir göstərməyə çalışırlar:** "Avropa Oyunlarına az qalıb və Novruz bayramı ərəfəsidir. Həmin beynəlxalq dairələr, media bu dövrü siyasi məhbus probleminin həlli üçün fürsət, şans hesab edirlər. Bilirlər ki, problem Avropa Oyunlarından sonraya qalsa, qalacaq. Düşünürlər ki, Avropa Oyunlarından sonra kimsəni buraxmayacaqlar və hətta bəlkə də daha kəskin vəziyyət olacaq. Ona görə də problemin indi həll olunması üçün yaranmış şəraitin dəyərləndirilməsi istənilir. Mən də düşünürəm ki, humanizm prinsipləri əsas götürülərək əfvlə və ya böyük bir amnistiya ilə problem həll olunar. Hətta Azərbaycan parlamentində də, hakimiyyət təmsilçisi ilə görüşlərdə də deyilib ki, bu problemin həlli ölkəmizə lazımdır. Bunu biz öz içimizdə həll eləməyi bacarmalıyıq. İmkan daxilində bu problemi həll etmək lazımdır. Beynəlxalq təşkilatların, Qərb mediasının yazdıqlarına ən tutarlı cavab problemin həlli istiqamətində əməli addım atmaqdır. Onları konkret əməllə fakt qarşısında qoymaq lazımdır ki, "bax, mən öz vətəndaşımı azad edirəm, sənə nə, indi sən qədər istəyirsən yaz". Yəni bu çağırışların, ittihamların, böhtanların qarşısını almaq Azərbaycan hökumətinin əlindədir, bunu bir saatın ərzində həll edə bilər. Sadəcə, bir addım atmaq lazımdır. Mən buradan dövlət başçısı, çox hörmətli İlham Əliyevə müraciət edirəm ki, bütün bu məsələləri həll etmək bir anın içindədir, xahiş edirəm Azərbaycan naminə bu addımı atın".

**❑ Etibar SEYİDAĞA**

# Bahalaşma müxalifətə keçənlərin sayını artırıb?

## Partiya sədrləri hələlik bu tendensiyanın müşahidə olunmadığını deyirlər, amma...

**Manatın ucuzlaşması və ərzaq və qeyri-ərzaq mallarının bahalaşması ölkədə əhalinin durumuna təsir edir. Eyni zamanda narazıların sayı getdikcə artır. Bu cür vəziyyətlər adətən istənilən ölkədə müxalifət mövqeyinə keçənlərin sayına təsir edir. Təcrübədə belədir ki, ölkədə narazıların sayı artdıqca, hakimiyyətə rəqib düşərgənin sıraları sıxlaşır.**

Azərbaycanda bu proses müşahidə olunurmu, son vaxtlar müxalifət partiyalarına qoşulanlar varmı? Bundan sonrakı dövrdə insanların müxalifət düşərgəsinə kütləvi keçməsi prosesi gedə bilərmi?

**KXCP sədri Mirmahmud Mirəlioğlu** bildirdi ki, əhalinin sosial-iqtisadi vəziyyəti pisləşdikcə, müxalifətə qoşulanların sayının artması həm nəzəriyyədə, həm də dünya təcrübəsində rast gəlinən təbii məsələdir. Azərbaycanda isə bahalaşma hələ əhalinin əksər təbəqəsinə gəlib çatmayıb, ona görə də qeyd olunan proses hələ görünmür: "Əhalinin hələ cibində son qəpikləri var, hələ özü üçün çörək, siqaret ala bilir. Hələ imkanlar var. Haqqında söhbət gedən proses Avropa Oyunları başa çatdıqdan sonra başlayacaq. Böyük bahalaşma da bu zaman başlayacaq, əhalinin narazılığı da, kütləvi müxalif mövqeyə keçmə də özünü bu zaman göstərəcək. Ölkədə bu kimi bütün proseslər olimpiadadan sonra olacaq. İndi bir sıra işlər görülür, tam bahalaşma yoxdur".

**Müsavat Partiyasının başqanı Arif Hacılı bildirdi ki, Müsavat Partiyası sıralarına Azərbaycan vətəndaşlarının daxil olması prosesi daimi bir prosesdir. Partiyanın son qurultayından sonra təşkilatın struktur fəaliyyəti güclənib:** "Müsavat Partiyasının istər mərkəzi strukturları, istər yerli strukturları daha çevik, daha dinamik fəaliyyət göstərmək imkanları əldə edib. Bunun nəticəsində və səkkizinci qurultaydan, Müsavatda olan qeyri-müəyyənliyə son qoyulduqdan sonra partiya sıralarına üzvlərin qəbulunda real artım görünməkdədir. Azərbaycan müxalifətinin tərəfdarlar sayına görə problemi yoxdur. Sadəcə, xalq hansısa fəaliyyətin nəticəsində ölkədə ciddi dəyişikliklərin olacağına inanmır. Müəyyən təbəbatları ödənən təbəqə vəziyyətdən narazı olsa da, vəziyyətə dözümlü yanaşmağa üstünlük verir. Hazırda baş verən siyasi, iqtisadi təbəddülatlarla müqayisədə ölkədə olan ictimai-siyasi vəziyyəti nisbi sakitlik kimi dəyərləndirmək olar. Ancaq bu sakitlik uzun sürməyəcək. Hesab edirəm ki, yaxın həftələrdə manatın devalvasiyası, aparılan kortəbii iqtisadi-siyasətin nəticələri əhalinin daha geniş kütlələrinə və daha böyük ziyan vurmağa başlayacaq. Aprel-may aylarından gec olmayaraq ölkədəki siyasi vəziyyət bugünkü durumdan əsaslı surətdə fərqlənəcək".

**❑ E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 53 (6081) 10 mart 2015

**2015-ci il yanvarın 16-da prezident sərəncamı ilə Bakıdakı dövlət təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin həftəlik dərs yükü norması 1,5 dəfə, aylıq vəzifə maaşları isə orta hesabla 2 dəfə artırılıb. Amma bu məsələnin icrasında yaranan problem hələ də həllini tapmayıb.**

# Müəllimlərin 1 dərs saatının dəyəri 35 faiz artacaq

## Həftədə 18 saat dərs deyən müəllim 364 manat alacaq



İlin 2 ayı geridə qalıb, amma hələ də mətbuatda, sosial şəbəkələrdə müəllimlər bu artımdan pay almadıqlarını bildirən açıqlamalar verir, şikayətlər edirlər. Ümumən, maaşları artan müəllimlərin sayı 30 min nəfərə yaxındır. Və bu artımın hansı kateqoriyaya, nə qədər faizdə artımla şamil olunacağı da sual doğurur.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsindən modern.az-a verilən açıqlamada deyilir ki, sərəncamın icrası ilə bağlı müəllimlərin dərs yükü normasının və maaşların yeni dərəcələrinə dair sənədlər paketi hazırlanıb, Təhsil, Maliyyə, Ədliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri arasında razılaşdırılaraq hökumətə təqdim edilib.

Yeni norma tətbiq ediləndən sonra müəllimlərin 1 dərs saatının dəyəri orta hesabla 35 faiz artacaq. Qüvvədə olan qanunvericiliyə görə, hazırda ilk dəfə işə başlayan ali təhsilli müəllimin tam stavka maaşı *(10-cu dərəcə)* 155 manat təşkil edir. Yəni 1 dərs saatı üçün 12.9 manat. 1 dərs saatının dəyəri müəllimlərin dərəcələri artdıqca dəyişir. Müəllimlərin dərəcələri isə onlar işə başladıqdan 5, 8, 13, 18 il tamamlanarkən buna müvafiq dəyişir.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin rəsmi açıqlamasına görə, yeni norma tətbiq ediləndən sonra müəllimlərin 1 dərs saatının dəyəri orta hesabla 35 faiz artacaq. Bu o deməkdir ki, əgər hazırda müəllim 1 dərs saatına görə 15 manat alırsa, həmin 15 manat 35 faiz artacaq *(15x35=20.25 manat)*. Alınan rəqəm *(20 manat 25 qəpik)* müəllimin həftəlik dərs saatına (məsələn, 18 saat) vurulacaq. Beləliklə, 1 dərs saatına görə 15 manat alan və həftədə 18 saat dərs deyən müəllimin maaşı sözügedən sərəncamla nəzərdə tutulan artımla birlikdə 364 manat olacaq.

Hazırda Bakıda müəllimlərin heç də hamısının dərs yükü 18 saat deyil və bundan azdır. Beləliklə, müəllimlər maaşlarındakı artımı dərəcələrindən və dərs yükündən asılı olaraq 50-150 manat arasında hiss edəcəklər.

**Təhsil Nazirliyi ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Cəsarət Valehov isə daha öncə mediaya açıqlamasında bildirib ki, prezidentin bu sərəncamı ilə dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqları diaqnostik qiymətləndirilmədən keçən müəllimlərimizin dərs yükü norması 1,5 dəfə, vəzifə maaşları iki dəfə artırılacaq. Və bu artım yanvarın 1-i 2015-ci ildən başlayaraq icra olunacaq və eyni zamanda 30 minə yaxın müəllimi əhatə edəcək. C.Valehovun izahatına görə, dərs yükü norması 12 saatdan artırılaraq 18 saata qaldırılır:** "Bəzən bizə belə bir sualla müraciət edirlər ki, diaqnostik qiymətləndirmə nədir? Bu tədbir Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasının müddəalarından biri hesab olunur. 2013-cü il oktyabrın 24-də cənab prezidentin sərəncamı ilə təsdiq olunub. O sərəncama uyğun olaraq qeyd olunan Dövlət Strategiyası tədbirlərində, eyni zamanda diaqnostik qiymətləndirimə - müəllimlərin sınaq qiymətləndirməsi ilə bağlı məqamlar vardır ki, bu 2014-cü ilin yayında keçirildi. Bu qiymətləndirmə nəticəsində ümumi diaqnostik mənzərə göz önünə gəldi. Burada iştirak etmiş 30 min müəllim, yəni burada hansı bal yığmasından, hansı nəticəni göstərməsindən asılı olmayaraq heç bir müəllimin bu məsələdən kənarlaşdırılmasından söhbət getmir. 30 min müəllimin əmək haqqının artırılması və onların qeyd elədiyim kimi, tədris yükünün olmasına adekvat olaraq artırılmasından söhbət gedir".

**❑ SEVİNC**

# "London taksiləri"nin sürücüləri oyunları gözləyir

## Cərimə meydançasına aparılan taksilərin hesabı sürücülərin canından çıxarılıb, "Bakı Taksi" MMC şofer axtarışındadır; "hotellər, bahalı restoranlar olmasa batarıq..."

**İyunda keçiriləcək Avropa Oyunları ilə əlaqədar ölkəyə 300 "London taksisi" gətirilib. Gətirilən 300 taksiyə dövlət qeydiyyat nişanı verilib. Ancaq daha əvvəl alınan "badımcan" taksilərdən 550 ədədi gömrük qeydiyyatından keçirilməmişdi.**

Bu məsələyə görə taksilər cərimə meydançasında saxlanılırdı. Mətbuatda müzakirəyə səbəb olan "rastomojka" fırıldağına görə hələ də həmin taksilərdən cərimə meydançasında saxlanılanlar var. Nəqliyyat naziri Ziya Məmmədovun "bənövşəyi" taksiləri necə gömrük qeydiyyatından keçirmədən ölkə ərazisinə gətirməsi indiyə qədər sual doğurur.

Faktiki isə bu yalan üzə çıxarıldı. Cərimə meydançasına aparılan taksilərə görə son günlər Bakı küçələrində bu maşınların azaldığı müşahidə olunur. "Bakı Taksi" MMC isə cərimə məsələsini sürücülərin üzərinə qoyub, onların günlük planını artırıb.

Günlük plan 40 manata qaldırılıb. Bu isə sürücülərin vəziyyətini çətinləşdirib. Nəqliyyat Nazirliyi isə məsuliyyəti "Bakı Taksi" MMC-nin üzərinə qoyub. Nazirlik hesab edir ki, qeydiyyatı şirkət özü həyata keçirməli idi. İndi sürücülər Avropa oyunları günlərində onlara yaradılacaq şəraitdə nəfəs alacağını düşünürlər.

Əslində planın artırılmasından narazı qalan sürücülərin bir çoxu "London" taksilərindən imtina ediblər. Buna görə də ictimai nəqliyyatda sürücü elanlarına rast gəlmək olar. Həm işdən ayrılan sürücülərin yerinə, həm də yeni gətirilən taksilərə sürücü tələbatı var.

Amma taksiləri işlətməyə sürücü tapılmır. İş elanlarına əsasən avtobus dayanacaqlarında, yol kənarlarında rast gəlmək olar. Sürücülər indiki şərtlərlə razılaşmır.

Onların qazancı özlərindən başqa hər yerə gedir. Taksi sürücüləri deyirlər ki, növbə ərzində dayanmadan işləyəndə yaxşı pul qazanmaq olar. Amma günə təxminən 2-3 müştərisi olanda qoyulan planı ödəmək olmur.

**Taksi sürücüsü deyir ki, onun 5 manata getdiyi yolu digər sürücü 3 manata gedir. Ona görə də müştəri onu seçir. Bu baxımdan taksi fəaliyyəti göstərən şirkətlərin özü bunu araşdırmalıdır.** "Bizdə həftəlik plan 240 manat edir. İşləyə bilsən də, bilməsən də budur. Bir qəpik də güzəşt yoxdur. Ona görə də çoxu dözməyib gedir. Gündəlik 40 manat plan olar? 20 manat da yanacağa veririk. Bu şərtlərlə işləmək mümkün deyil.



Sadəcə, hotellər, bahalı restoranların qarşısında müştəri tutmaq olur. Onlar da olmasa bizim qazancımız olmaz. Təmiz batarıq. İntəhası, hotelə, restorana gedən də əksər vaxt öz maşını olan adamdır. Yəni vəziyyətimiz qəlizdi. İndi də söz verirlər ki, gözləyin, olimpiyadada iş olacaq" - deyə taksi sürücüləri narazılıqlarını dilə gətirir.

Sürücülərin sözlərinə görə, işdən çıxanların əksəriyyəti "Taksi 189" xidmətinə üz tutur. Səbəb isə orada iş şərtlərinin sərfəli olmasıdır.

**Onların dediyinə görə, manatın ucuzlaşmasından sonra vəziyyət lap pisləşib. Bu taksilərə minən də azalıb:** "Vəziyyət elə gətirib ki, gərək bütün günü şəhəri dövrə vurasan. Bir yerdə dayansan, sərnişin tapmaq olmur. Şəhəri gəzirsən də, yanacaq çox işlənir. Fikir vermisinizsə, şəhərdə "London taksiləri"nin sayı azalıb. Çünki heç kim istifadə eləmir. Əksəriyyəti ya başqa işlə məşğul olur, ya da kreditə maşın götürüb işləyir,"- deyə sürücü Pərviz danışır.

Bir müddət əvvəl gündəlik planın artmasına etiraz edən bir qrup taksi sürücüsü Nəqliyyat Nazirliyinin qarşısında toplaşıb şikayət etmişdi. Onlardan bir neçəsi işdən çıxarıldı, bəziləri isə işləməkdən imtina etdi.

Hər sürücüyə 250 manat əmək haqqı verən "Bakı-Taksi" MMC şirkəti isə bu iddiaları rədd edərək bildirir ki, "London taksiləri"nə tələbat artır, sərnişinlər də razıdır, sürücülər də. Avtobuslarda vurulan elanlar isə belə demir.

Qeyd edək ki, son 5 il ərzində Azərbaycana ümumilikdə 1850 ədəd yeni taksi gətirilib. Onlardan 1000-i "London taksisi"dir. Avtomobillərin sifarişçisi qismində "Baki Taxi" MMC şirkəti çıxış edir.

Yeni taksi maşınları Böyük Britaniyanın "Manganese Bronze" şirkətindən alınır. Taksilər Çinin "Geely Automobile Holding"i tərəfindən istehsal olunaraq "Manganese Bronze" şirkətinə göndərilir.

**❑ E.SALAMOĞLU**
**Foto müəllifindir**

# Dünyada elədir, bizdə belə



**Samir SARI**

**Bizdə olan hər dərddən bütün dünyada da var. Eləcə də dünyada olan hər dərd-bəlanı bizdə də tapmaq olar. Yalnız xırda istisnalar mümkündür. Məsələn, korrupsiya və inhisarçılıq bütün dünyada var - böyük ABŞ-dan tutmuş ən xırda, "çubuş" ölkələrə qədər.**

Rüşvəti Fransada da alırlar, Filippində də, Burkina Fasoda da.

Atalar oğullarına geniş biznes şəbəkəsini Meksikada da qurur, Mərakeşdə də.

Prezidentin oğlunun prezident, nazirin oğlunun nazir, prokurorun oğlunun prokuror olması halları ABŞ, Şimali Koreya, Suriya, Filippin, Pakistan və sair bu kimi ölkələrdə rast gəlinən haldır.

İnsan haqlarının tapdanması, işgəncə halları bütün dünyada var. Quantanamo, "Əbu-Qreyb", "Evin", "Lefortovo" kimi həbsxanalardan saatlarla danışmaq olar.

İqtisadi böhran, inflyasiya, milli valyutanın dəyərsizləşməsi halları bütün dünyada var - Rusiyadan Argentinaya, Yunanıstandan İndoneziyaya qədər.

Seçkilərin saxtalaşdırılması, bir partiyanın ömürlük hakimiyyəti, silsiləvi şəkildə seçki qələbələri qazanması faktı dünyanın dünyada var - ABŞ, Yaponiya, Cənubi Koreya, Kanada, Norveç, İsveç və bu kimi azsaylı ölkələr istisna olunmaqla.

Yağış, qar və sair atmosfer çöküntüləri bütün ölkələrdə problem yaradır - Banqladeşdən ABŞ-ın Nyu-Orleanına, Çiliyə qədər.

İntihar hadisələri bəxtəvər Yaponiyadan xoşbəxt Norveçə, bədbəxt Myanmadan kasıb Ruandaya qədər bütün ölkələrdə olur - birində az, birində çox.

Yol qəzalarına şüşə kimi hamar avtobanlara malik Almaniyadan tutmuş yolsuz Zimbabveyə qədər bütün ölkələrdə rast gəlmək olar.

Qətl hadisələri Hollandiya və Danimarka kimi sakit, İraq, Suriya kimi nadinc və qaynar ölkələr də daxil olmaqla bütün dünyada baş verir.

Dünyada demək olar ki, bütün ölkələrin öz qonşuları ilə ya ərazi problemləri var, ya da vaxtilə olub. Yalnız Avstraliya, İslandiya kimi qonşusu olmayan ada-dövlətlər istisna ola bilər.

Narkomaniya bütün ölkələrdə var. Əfqanıstanda camaat kütləvi şəkildə küçədə nəşə çəkib hallanırsa, Qərb ölkələrində xüsusi yerlərdə kef edirlər.

Haram pullarla harınlayıb qudurmuş, özlərini firon sayan məmurlar dünyanın hər bir ölkəsində var - Bruneydə də, Burundidə.

Millətçilər və kosmopolitlər, eləcə də möminlər və ateistlər dünyanın bütün ölkələrində yaşayırlar və hər yerdə dalaşırlar. Sadəcə, elə ölkələr var ki, ateistləri hansı ağacın altında tutsalar, elə orda asırlar.

Bir sözlə, bütün dünyanı sarmış bütün naqisliklər, qüsurlar, problemlər hər yanda olduğu kimi bizdə də var. Ona görə də YAP başbilənləri "Bu mərətdən bütün dünyada var" deyərkən haqlıdırlar, özlərindən demirlər. Araşdırıblar.

Fərq sadəcə miqyasdadır. Normal dövlətlərdə korrupsiyaya qurşanan məmurların sayı bir-iki faizdirsə, bizdə qurşanmayanların faizi o qədərdir.

İsveçdə, Norveçdə, Hollandiyada, Finlandiyada yol qəzalarında ildə 35-40 adam həlak olursa, bizdə ayda o qədər adam ölür.

Başqa ölkələrdə təbii fəlakəti tornado, musson yağışları, səmum yeli yaradırsa, bizdə göydən yerə nə düşürsə, problem əmələ gətirir.

Firavan ölkələrdə intihara psixikasında problem olanlar əl atırsa, bizdə daha çox dolanışığın ağırlığından bezənlər bu addımı atırlar.

Başqa ölkələrdəki iqtisadi böhranın, milli valyutanın dəyərdən düşməsinin yüz cür səbəbi varsa, bizdə səbəb ya bir olar, ya iki - inhisarçılıq və inzibatçılıq.

Demokratik ölkələrdə oğullar atalarının vəzifəsini bir müddətdən sonra seçki yolu ilə tuturlarsa, bizdə həm dərhal, həm də təyinat yoluyladır.

Mədəni ölkələrdə haram pullarla qudurğanlıq edənlər cəzalandırıldığı halda, bizdə hamını onlar cəzalandırır.

Qətl hadisələri dünyanın başqa ölkələrində ciddi şeylər üstündə olar, bizdə heç nə üstündə.

Uzun sözün kəsəsi, dünyanın inkişaf etmiş ölkələrinin daxilində problemlər varsa, bizdə ölkənin özü problemlərin içindədir.

Könül istər ki, bizdən pis gündə olanlara baxıb şükür etməyək, bizdən yaxşı halda olanlara baxıb onlar kimi olmağa cəhd edək.

YENİ MÜSAVAT
N 53 (6081) 10 mart 2015



# Administrasiyadan sehrli təbəssüm

Zamin HACI
zaminhaci@gmail.com

**Bütün dünyada iqtisadi böhran şəraiti hökm sürür, İŞİD-in buldozerləri bir vaxt Rövnəq müəllimin buldozerləri Sulutəpəyə hücuma keçdiklərinə bənzər şəkildə Orta Doğunu düzləməkdədir, hətta amerikalıların Çuryumov-Gerasimenko kometinə endirdikləri, qaranlıq yerə düşüb Günəş panelləri çəzən "Fila" qurğusu da Yerdən gedən siqnallara müsbət reaksiya vermir, ancaq bütün kainatda yeganə ümidverici, daim dəyişməkdə, yenilənməkdə olan müqəddəs məkan vardır: bizim Prezident Administrasiyası. Orda həyat ilk okeandakı, o cümlədən qədim Tetis dənizindəki kimi qaynayır, yeni kadrlar ortaya çıxır, köhnələrin yeri dəyişilir, xalqımız sevinir, çəpik çalır. Gah hansısa şöbə müdiri yenilənir, gah sektor müdirlərinin yeri dəyişilir, gah prezidentə təzə köməkçi qoyulur və sairə və ilaxır.**

Örnək üçün, 4-5 gün qabaq ictimai-siyasi məsələlər şöbəsinin mətbuat və informasiya orqanları ilə iş sektorunun müdiri vəzifəsinə Cəmaləddin Quliyev qoyulmuşdur. Mən sayıram ki, *(Rəsul Quliyev demişkən)* bu təyinat ölkəmizdə KİV-lərin inkişafına böyük təkan verəcəkdir. Nə üçün? Çünki Cəmaləddin müəllimin təyinatı haqda xəbərin yanında onun fotosu da qoyulmuşdu və inanılmaz idi: Cəmaləddin müəllim həmin fotoda gülürdü! Təsəvvür edirsinizmi? Dünya yaranandan bəri bizim müqəddəs Prezident Administrasiyası tarixində üzügülər şəkil çəkdirən ilk kadr olaraq Cəmaləddin müəllim bəlkə də Ginnesin rekordlar kitabına düşmüşdür. Əgər düşməyibsə, yüz faiz alçaq erməni lobbisinin əməlidir, lazım gəlsə biz bu yolda mübarizəyə başlayaraq, öz sektor müdirimizə hər cür dəstəyi verməyə hazırıq *(Elə bu yazını da PA İSM MİO şefinə dəstək yazısı kimi təqdim edirəm. İlkin büdcə 50 manat. Aşağı yeri yoxdur)*.

Başqa yolumuz da yoxdur, çünki ilk gülən adam olaraq Cəmaləddin müəllim bizə böyük ümidlər verir. O mənada yox ki, bundan sonra Azərbaycan mediasının durumu daha da gülməli olacaqdır. Yox. Qətiyyən yox. Heç indi də gülməli yox, ağlamalı gündəyik. Ancaq müdirimizin gülüşü gələcəyə inamla baxmağa, biz yazarların tezliklə güləcəyinə əsas yaradır. Buna görə Zəngilan və Kürdəmir zəhmətkeşləri adından dərin minnətdarlığımı bildirirəm. *(Növbə onların idi, başqa mənası yoxdur)*.

İndi də keçək xalqın qarnını doyuracaq, üzünü güldürəcək xəbərlərə. İqtisadçı ekspertlər deyir ki, bizim gömrük sistemində oğrular əyləşib, o üzdən bahaçılıqdır. Misal üçün, Rusiyadan gətirilən kartofun kilosunu gömrükdə 4 qəpikdən sənədləşdirirlər, nəticədə dövlət büdcəsinə qoz qabığı da getmir, ancaq sonradan bu kartof Nəsimi bazarında 1 manata satılır.

Mənim bu kartof probleminə münasibət bildirməyə həvəsim yoxdur, üstəlik, adımız-sanımız var, qabaqdan Avropa oyunları gəlir, bizə yaraşmaz xırdaçılıq eləmək. Ən düzgünü odur ki, hörmətli oxuculardan Vasif Həsənovun məktubunu oxuyaq. Bəy çox geopolitik bir məktub yazmışdır, ümid edirəm Barak Obama da oxuyar, həyatı başa düşər:

"Hörmətli Zamin bəy, qoyun bərəkətli heyvandır, biz onun məhsullarından maksimum dərəcədə yararlanırıq. Ətindən, südündən, dərisindən, hətta qığından *(gübrə kimi)* fayda götürürük. "Qoyun" sözünün özü belə dərin hikmət, müdriklik mücəssəməsidir. Sözün əvvəlindən hər hərfi ardıcıllıqla götürdükdə mükəmməl söz oyununun şahidi oluruq: qoyun, oyun, yun, un. Hətta sonuncu n hərfi də söz kimi istifadə olunur: N saylı hərbi hissə. Tariximizdə qoyun adlı dövlətlərimiz olub: Ağqoyunlu, Qaraqoyunlu. Amma biz, cəmiyyətimiz bu sülhsevər, sakit, olduqca mədəni heyvana çox nankor münasibət bəsləyirik. İnsanlar bir-birinə müraciətdə "qoyun" sözünü təhqir anlamında yararlanır. Başqa millətlərdə Koyun, Baranov, Baranin kimi soyadlar var, bizdə isə Qoyunov *(li, zadə, soy)* soyadı yoxdur. Qısası, bu müdrik heyvan haqqında nə qədər danışsan azdır. AMEA-nın alimləri bekarçılıqdan domino, nərd oynamaqdansa bu mövzuda cild-cild əsərlər yaza bilərlər. Hətta Nobel ödülü almaq mümkündür. Hökumətimizin də məhz qoyun ilində manatın dəyərini endirməyi çox mətləblərdən xəbər verir. İşlərinizdə uğurlar arzu edirəm".

# Nemtsovun qətli müsəlmanların üstünə atıldı



## Ancaq ekspertlər rusiyalı liberal siyasətçinin müsəlmanları təhqir etdiyi üçün öldürülməsini inandırıcı saymır

**Fevralın 27-də qətlə yetirilmiş rusiyalı müxalif siyasətçi Boris Nemtsovun İslam dinini və müsəlmanları təhqir etdiyi üçün öldürüldüyü iddia olunur. Rosbalt Agentliyi hüquq-mühafizə orqanlarındakı mənbələrə istinadən bildirir ki, Boris Nemtsovun qətlində şübhəli bilinərək saxlanılan Zaur Dadayev istintaqa ifadəsində Nemtsovu dini səbəblərdən qətlə yetirdiyini iddia edib.**

Mənbə bildirib ki, Z.Dadayev bəyan edib ki, 2015-ci ilin yanvarında Nemtsovun Rusiya ərazisində yaşayan müsəlmanlar barəsində mənfi fikirlər səsləndirdiyi haqda məlumat alıb. Bundan sonra o, B.Nemtsovu qətlə yetirmək qərarına gəlib.

Qeyd edək ki, Rusiya İstintaq Komitəsi Boris Nemtsovun qətlində beş nəfərin şübhəli şəxs qismində saxlanıldığını açıqlayıb. Saxlanılanlardan biri Çeçenistan Daxili İşlər Nazirliyinin "Sever" ("Şimal") batalyonunun polk komandirinin müavini Zaur Dadayev olub. Daha iki nəfər isə Moskvada özəl mühafizə xidmətində işləyən Anzor Qubaşev və onun kiçik qardaşı olub.

Martın 8-də Basman Rayon Məhkəməsinin qərarı ilə saxlanılanlar - Həmzət Baxayev, Tamerlan Əsgərxanov, Şahid Qubaşev, Anzor Qubaşev və Zaur Dadayev barəsində həbs-qətimkan tədbiri seçilib. Onların barəsində hansı maddə ilə ittiham irəli sürüldüyü açıqlanmayıb. Z.Dadayev qətli törətdiyini etiraf etsə də, cinayətlə bağlı saxlanılan digər 4 nəfər ittihamla razılaşmayıb.

Qeyd edək ki, Zaud Dadayevin Rusiya hərbi kəşfiyyatına bağlı olan Çeçenistan DİN-in "Sever" xüsusi təyinatlı batalyonun komandir müavini olması qətlə bağlı şübhələri Rusiya xüsusi xidmətlərinin üzərinə apanb. Ancaq qətlin İslam faktoru ilə əlaqələndirilməsi yeni tendensiyadan xəbər verir. Maraqlıdır ki, ötən gün Rusiya prezidentinin sərəncamı ilə Çeçenistan prezidenti Ramzan Kadırov "Şərəf" ordeni ilə təltif olunub.

**Rusiya mediasında yayılan xəbərlərə görə, prezidentin Kadırovun təltif edilməsi barədə fərmanında qeyd olunur:** "Əmək nailiyyətlərinə, aktiv ictimai fəaliyyətinə və çoxillik vicdanlı işinə görə Ramzan Əhmədoviç Kadırov "Şərəf" ordeni ilə təltif olunsun".



**Vəfa Quluzadə:** "Bu versiya heç inandırıcı deyil"



**Arzu Nağıyev:** "Birmənalı olaraq demək olar ki, icraçılara necə təlimat verilibsə, o cür də danışacaqlar"

Məsələ burasındadır ki, mətbuatda gəzən versiyalara əsasən Z.Dadayev R.Kadırova yaxın adamdır. Onun Nemtsovun qətlində ittiham olunaraq həbs olunması əslində R.Kadırovu da şübhə altına alır. Lakin onun məhz Dadayevin "qətl etirafının" yayıldığı gün ali dövlət mükafatı ilə təltif olunması onu göstərir ki, Putin Kadırovu cəzalandırmaq niyyətində deyil.

Yeri gəlmişkən, qeyd edək ki, bir sıra müşahidəçilər bu qətllə bağlı "İslam amilinin" ortaya atılacağını daha əvvəldən də proqnozlaşdırırdılar. Onların fikrincə, hakimiyyət qətli ört-basdır etmək üçün Nemtsovun "İslam əleyhinə çıxışları və "müsəlmanları aşağıladığı üçün" qətlə yetirilməsi versiyasını irəli sürə bilər.

**Politoloq Vəfa Quluzadə AzadlıqRadiosuna müsahibəsində ortaya atılan "İslam versiyasını" inandırıcı saymadığını deyib:** "Məsələ başqadır. Boris Nemtsov müxalifət lideri idi, iqtidarın ən şiddətli tənqidçilərindən idi, o böyük bir mitinq ərəfəsində qətlə yetirildi. Buna görə də bu gün Rusiyada böyük rəy bu qətli Kremllə əlaqələndirir. Son versiya isə qəbul edilmir. Belə çıxır ki, çeçenlər Çeçenistandan durub Moskvaya gəlib belə bir qətl törədiblər? Özü də Kremlin iki addımlığında. Buna dünyanın heç bir yerində inanmırlar. Nemtsovun qızı bugünlərdə dedi ki, atasını apardığı siyasətə görə öldürüblər. O da İslama qarşı siyasət aparmırdı ki, avtoritarizmə qarşı mübarizə aparırdı. Elə ilk gündən Moskvada müstəqil dairələr, müxalifət əsl qatillərin, onun sifarişçilərinin tapılmayacağını, ortaya saxta səbəblər qoyulacağını deyirdi. Belə də oldu. Bu versiya heç inandırıcı deyil".

**Keçmiş MTN zabiti, "Trend" agentliyinin direktor müavini Arzu Nağıyevin fikrincə, bu cür versiyalar ona görə ortaya atılır ki, əsl sifarişçini tapmaq mümkün olmasın:** "Mən yenə də öz versiyamda israrlıyam. Nemtsov Rusiyada anti-müsəlman mövqeli müxalifətçi kimi tanınmayıb. Yəni mücərrəd bir ünvandır. Rusiyada anti-müsəlman qüvvələr olmağına var, yəni millətçi qüvvələr, müxtəlif təriqətlər, müxtəlif inanclı və məzhəbli dindarlar mövcuddur, unutmaq lazım deyil ki, müsəlmanlar da çoxdur. Bu, birmənalı olaraq vəziyyətin gərginləşməsinə yönəlmiş addımdır, özü də bu gün, necə deyərlər, müsəlman demokrat və patriotizmi təbliğ edən Çeçenistana, daha doğrusu, Şimali Qafqaza tərəf..."

**A.Nağıyev deyir ki, istintaqın qətlin İslam düşmənçiliyi səbəbilə törədilməsi versiyasını "sızdırması" onu göstərir ki, bu proses qətlin əsl səbəbini və sifarişçiləri gizlətməyə yönəlib:** "Birmənalı olaraq demək olar ki, icraçılara necə təlimat verilibsə, o cür də danışacaqlar, əsas mahiyyət isə istintaq vaxtı müəyyənləşə bilərdi. Əlbəttə ki, bunu istəsələr... İndi hansısa İslam təəssübkeşinin Nemtsovu qətlə yetirməsi inandırıcı versiya ola bilməz. Doğrudur, Nemtsov özünün 2007-ci ildə "Ekspert" jurnalına verdiyi müsahibəsində qeyd edib ki, Rusiyada 2 uşaqdan artıq dünyaya gətirənlərə kompensasiya verilməsi səhvdir, bu, əsasən müsəlmanlar olan regionlarda olacaq və bu qorxuludur. İkincisi isə İslamın orta əsrlər səviyyəsində qaldığını deyib və məlum kariakturaçıları müdafiə edib. Vəssalam. Ancaq indi bu cür danışan onlarla siyasətçi var. Digər tərəfdən, Nemtsovun çeçenlər tərəfindən öldürülməsi də inandırıcı deyil. Çünki hələ 1996-cı ildə Nijni Novqorodda işləyərkən Çeçenistanda müharibənin əleyhinə 1 milyon imza toplamışdı. Nemtsovun qətlinin əsas şübhəliləri başqa ünvanda axtarılmalıdır. Əslində özləri özlərini, necə deyirlər, ayağa verirlər. "Sever" batalyonunun komandirinin kim olduğu, kimlərin yaxın qohumları olduğu bəllidir. İslam versiyası isə inandırıcı görünmür..."

❑ **KƏNAN**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 53 (6081) 10 mart 2015



# Türkiyə və Azərbaycan ordusunun birgə hərbi təlimlərinin pərdəarxası

**Azərbaycan Hərbi Hava Qüvvələrinin 3 ədəd MiQ-29 qırıcı, 3 ədəd Su-25 hücum və İl-76 hərbi-nəqliyyat təyyarəsi müştərək təlimlərdə iştirak etmək məqsədilə Türkiyədəki aviabazaya gəlib. Eyni zamanda "İŞIK-2015" beynəlxalq axtarış-xilasetmə təlimlərində iştirak etmək məqsədilə Azərbaycan Hərbi Hava Qüvvələrinin 4 ədəd Mi-17 döyüş-nəqliyyat helikopterləri də təlim keçiriləcək Konyadakı aviabazada qərarlaşıb.**

Aprelin 13-dək davam edəcək təlimlər müştərək fəaliyyətlərin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət və döyüş uzlaşması imkanlarının öyrənilməsi, o cümlədən axtarış-xilasetmə və digər tapşırıqlarının yerinə yetirilməsi məqsədilə keçirilir. Qeyd edək ki, hərbi təlimlərdən az sonra Türkiyə tarixinin şərəfli günlərindən biri olan Çanaqqala zəfərinin 100-cü ildönümü ilə bağlı tədbirlər yüksək səviyyədə keçiriləcək və bayram mərasimlərinə Azərbaycan prezidenti də dəvət olunub. Bu mənada iki qardaş ölkənin son yarım ildə sayca ikinci nəhəng hərbi təlimlər keçirməsi şübhəsiz ki, qondarma "soyqırım"ın 100 illiyini keçirmək istəyən düşmənə ciddi mesajdır. Ötən ilin payızında bir ay davam edən birgə hərbi təlimlərdə on minlərlə hərbçi, o cümlədən çoxlu sayda hərbi texnika iştirak etmişdi. Bugünlərdə Türkiyə Respublikası Hərbi Hava Qüvvələri Komandanı ordu generalı Akın Öztürkün ölkəmizə rəsmi səfər etməsi də iki paytaxtın yüksək səviyyəli hərbi əməkdaşlığının növbəti mərhələyə keçməsindən xəbər verir. Qeyd edək ki, ötən ilin yazında Türkiyə, Azərbaycan, Qırğızıstan və Monqolustanın qurduğu və adına "Turan Ordusu" deyilən ortaq hərbi missiyanın mövcud olduğu barədə yazmışdıq. Bildirilirdi ki, Ankara Suriyadan kürdlərin və ermənilərin kütləvi olaraq, həm də ailələr və tayfa halında, Dağlıq Qarabağa köçürülməsindən, eyni zamanda Türkiyə, İraq və Suriyadan PKK silahlılarının bu bölgəyə sızmasından ciddi narahatdır. Dağlıq Qarabağa köç edən kürd və erməni terrorçularının həm də Türkiyəyə təhlükə yaratması səbəbindən gələcəkdə işğal olunmuş Azərbaycan ərazilərində antiterror əməliyyatlarının keçirilə biləcəyi də gələn məlumatlar arasında idi. Ekspertlər şübhə etmirlər ki, NATO ölkəsi olan Türkiyənin Azərbaycanla ortaq təlimlər keçirməsi həm də alyansın razılığı əsasında həyata keçirilib və bu da Azərbaycan ərazilərinin azad olunması ilə bağlı ümidləri artıran amillərdəndir.

**Politoloq Elxan Şahinoğlu deyir ki, Zakir Həsənov müdafiə naziri təyin olunduqdan sonra Türkiyə ilə hərbi əməkdaşlıq üst səviyyəyə qalxıb:** "Keçmiş müdafiə naziri Səfər Əbiyev Türkiyəyə ara-sıra səfərlər etsə də, qardaş ölkə ilə hərtərəfli əməkdaşlıq qurmağa tələsmirdi. Əksinə, Türkiyə generaliteti Əbiyevin bir sıra addımlarından açıq-aşkar narahat idi. Məsələn, Səfər Əbiyev Türkiyə Hərbi Akademiyasını bitirən azərbaycanlı məzunlara nazirlik sistemində müvafiq iş vermirdi, onları ən ucqar yerlərə göndərirdi. Halbuki onların hərbi biliklərindən müdafiə sistemini NATO standartlarına keçirmək üçün istifadə etmək olardı. Və ya Səfər Əbiyev türkiyəli hərbi mütəxəssisləri Azərbaycanın hərbi tədris müəssisələrindən uzaqlaşdırmışdı. Zakir Həsənov fərqli siyasət yürüdür. O, Azərbaycan ordusunu bütün mənalarda NATO standartlarına yaxınlaşdırmaqla, qardaş Türkiyə ilə birgə hərbi təlimlər keçirməklə doğru yol seçib. Aydındır ki, Azərbaycan hərbi yolla torpaqlarını azad etməyə girişsə, kimsə bizim əvəzimizə işğalçılarla savaşmayacaq. Ancaq ordunun NATO standartlarına keçidi və Türkiyə ilə birgə hərbi təlimlər həm müdafiə imkanlarımızın artması, həm də zəruri təcrübənin artması deməkdir". **E.Şahinoğlu bu hərbi ittifaqın Qarabağda antiterror əməliyyatı keçirilməsi ilə bağlı hansı faydalar verəcəyinə də münasibət bildirdi:** "Türkiyə ordusu illərdir PKK ilə mübarizə aparmaqla böyük təcrübə qazanıb. Türkiyə ordusunun dağ döyüşlərindəki savaş təcrübəsi Dağlıq Qarabağda bizə lazım olacaq. Hərbi təyyarələrimizin Türkiyədə təcrübə keçməsinin də bizim üçün vacibdir. Ümumiyyətlə, Azərbaycan ordusunun müasir döyüş texnikası ilə yanaşı həmin döyüş texnikasından yüksək səviyyədə istifadə imkanlarını da yüksəltməsinə ehtiyacı var. Bu mənada Türkiyə ilə artan birgə hərbi təlimlərin dəyəri yüksəkdir. Azərbaycan ordusu bəlli səbəblərdən nə Rusiya, nə ABŞ, nə də ki Avropa ölkələrindən biri ilə hərbi təlimlər keçirmək imkanına malikdir. Onlarla olan hərbi təlimlər simvolik xarakter daşıyır, sadəcə, qapalı otaqlarda xəritələr üzərində keçirilən təlimlərdir. Türkiyə ilə keçirilən birgə hərbi təlimlərdə isə ordunun bütün imkanlarından istifadə olunur. Necə ki, Rusiya ildə bir neçə dəfə Ermənistan ordusu ilə hərbi təlimlər keçirir, Ermənistan ordusunu faktiki Azərbaycana qarşı gücləndirir, eləcə də Azərbaycanın Türkiyənin hərbi imkanlarından geniş şəkildə istifadə etməyə ehtiyacı var".



**Elxan Şahinoğlu:**
"Türkiyə ordusunun dağ döyüşlərindəki savaş təcrübəsi Dağlıq Qarabağda bizə lazım olacaq"



**Üzeyir Cəfərov:**
"Gələcəkdə Qarabağdakı PKK-çı, o cümlədən separatçı qüvvələrə qarşı bu təlimlərdən praktiki cəhətdən istifadə edilməsi mümkündür"

**Hərbi ekspert Üzeyir Cəfərov da "Yeni Müsavat"a açıqlamasında Bakı ilə Ankaranın hərbi əməkdaşlığını yüksək qiymətləndirdi:** "Bir vaxtlar arzusunda olduğumuz Türkiyə-Azərbaycan birgə hərbi təlimləri artıq istəkdən reallığa addımlamış bir tarixi hadisədir. Ötən il ilk dəfə olaraq Azərbaycanda reallaşan belə bir möhtəşəm və son dərəcə vacib hərbi təlim, bu dəfə qardaş Türkiyə dövlətinin ərazisində keçirilir. İlk baxışdan ola bilsin ki, bu kənardan o qədər də diqqəti çəkmir. Amma bunun siyasi və hərbi mənasını, məntiqini incələyənlər, bu sahə üzrə uzmanlar gözəl anlayırlar ki, söhbət hansı dəyərlərdən və dünya miqyaslı proseslərdən gedir. Heç kimə sirr deyil ki, türk dünyasının güclənməsini istəməyən yetərincə qüvvələr mövcuddur ki, onlar hər an bizə və bizim Türkiyə kimi strateji müttəfiqimizə zərbə vurmağa hazırdırlar. Ona görə də şəxsən mənim üçün bu təlimlər sıradan adi bir tədbir deyil". Ü.Cəfərov bu təlimlərin çox uzaq perspektivlərə hesablanmış bir tədbir saydığını bildirdi: "İnşallah, biz bunun praktiki nəticələrini bir neçə il sonra hiss edəcəyik. Özü də söhbət dünya ordularında çox böyük önəm və yük daşıyan bir qoşun birləşməsindən gedir. Bu hərbi hava qüvvələri və onların yardımçı hissələridir. Şəxsi qənaətimə görə, yaxın dönəmlərdə bu təlimlərin Qarabağ məsələsində də öz təsirini göstərəcəyini istisna etmək olmaz. Bu hansı formada olacaq dəqiq deyə bilməsəm də, hər halda, antiterror əməliyyatı keçirildiyi zaman bu təlimin elementlərindən faydalanacağımız şübhəsizdir". **Hərbi ekspert istisna etmir ki, gələcəkdə Qarabağdakı PKK-çı, o cümlədən separatçı qüvvələrə qarşı bu təlimlərdən praktiki cəhətdən istifadə edilməsi mümkündür:** "İki qardaş və dost ölkənin hərbi təlimləri bu nöqteyi-nəzərdən çox böyük önəm daşıyır və bizim HHQ-in döyüş təcrübəsi toplamaq baxımından çox böyük faydası var. O ki qaldı Gümrüdəki bazada da hərbi təlimlərin keçirilməsi məsələsinə, mənə elə gəlir ki, bu təlimlər Türkiyə ərazisində keçirilən təlimlərin fonunda çox kiçik və mən deyərdim ki, diqqətdən çox kənar qalır. Prinsip etibarı ilə onları da başa düşmək lazımdır ki, erməni tərəfi daxildəki gərginliyi bir qədər səngitmək üçün öz havadarlarından hər zaman olduğu kimi kömək umur. Amma bu, o qədər də güclü effekt verməyəcək. Artıq cinayətkar Serj Sərkisyan hakimiyyəti son dərəcə çətin dönəmlərini yaşamağa başlayıb".

***

**"Avropanın təhlükəsizliyi Dağlıq Qarabağ münaqişəsinin həllindən asılıdır". Bunu "Trend"ə Polşanın Azərbaycandakı səfiri Marek Tsalka deyib. Onun sözlərinə görə, Polşa Dağlıq Qarabağ münaqişəsinin mövcudluğundan narahatdır:** "Rusiya-Ukrayna, eləcə də Şərq-Qərb münasibətlərindəki hadisələri nəzərə alaraq başa düşürük ki, bununla əlaqədar Dağlıq Qarabağ münaqişəsi presedentdir".

**M.Tsalka qeyd edib ki, məhz Dağlıq Qarabağda əsrin son rübündə bir ölkənin beynəlxalq səviyyədə qəbul olunmuş sərhədləri pozulub:** "Məhz orada bu günə qədər nizamlanmayan münaqişə alovlanıb, əslində Avropaya aid ərazidə artıq 25 ildir davam edən işğal baş verib. Bu məsələ təbii ki, Avropa siyasətinin ən yaralı yerlərindən biridir. Ən azından, Polşa tərəfinin rəsmi mövqeyi belədir".

**Səfirin sözlərinə görə, tarixən Avropada öz aralarında vuruşan xalqların köçü, ölkə sərhədlərinin dəyişməsi baş verib:** "Lakin sonralar Avropa ölkələri arasında dəyişməz sərhədlər qurulub. Balkan yarımadasında, postsovet məkanında münaqişələr və indiyə qədər həllini tapmamış Dağlıq Qarabağ münaqişəsi sonralar başlayıb. Əgər mənfi presedent yaranırsa, bütün tərəfləri qane edən qərar qəbul edilmirsə, deməli, savaşmaq və sərhədləri dəyişmək olar. Bütün bunlar XVIII və XIX əsrləri, ötən əsrin 30-40-cı illərinin totalitar rejiminin təcrübəsini xatırladır". **Diplomat əlavə edib ki, Azərbaycan regionun qabaqcıl ölkəsidir:** "Biz Azərbaycanla strateji əlaqələr qurmalıyıq. Polşa həmişə Azərbaycanın suverenliyi və müstəqilliyinin qorunmasına yardım edəcək. Polşa Avropa İttifaqı və ATƏT-in üzvü kimi imkanları daxilində siyasi və diplomatik metodlardan istifadə etməklə Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinə yardım edəcək". **Onun sözlərinə əsasən, Polşa ATƏT-in Minsk Qrupunun fəaliyyətini dəstəkləyir və arzu edir ki, bu fəaliyyət daha səmərəli olsun. M.Tsalka bildirib ki, Avropaya enerji resurslarının tədarükçüsü kimi Azərbaycan Avropa İttifaqı tərəfindən strateji tərəfdaş qismində nəzərdən keçirilməlidir:** "Əslində tərəflər artıq əməkdaşlıq edirlər, lakin əməkdaşlığın bu səviyyəsi artırılmalıdır".

**Azərbaycan Aİ ilə tərəfdaşlığı getdikcə dərinləşdiyinə görə səfir ümid edir ki, bu, Azərbaycan və Avropa İttifaqı arasında bağlanmış müqavilələrə təsir edəcək:** "Bu da öz növbəsində, Aİ üçün təhlükəsizlik məsələsidir. Polşa isə bunu dəstəkləməyə hazırdır". Diplomatın sözlərinə görə, Azərbaycan Xəzər regionunun əsas ölkəsidir, enerji resursları ilə zəngindir və olduqca maraqlı geosiyasi mövqeyə malikdir.

Bu arada Ermənistanda durum getdikcə dözülməz hala çatıb. İrəvanda qiymətlər durmadan artır. Ermənistan KİV-ləri bildirir ki, ərzaq məhsulları respublikada orta hesabla 7% bahalaşıb. Bu, Rusiyadan transfertlərin azalması fonunda baş verir. Rusiyada işləyən erməni əmək miqrantlarının ailələrinə göndərdikləri pulların miqdarı yetərincə azalıb. Artıq hesablanıb ki, Rusiya Federasiyasından bu Cənubi Qafqaz respublikasına göndərilən pul axını 172,4 mln. dollar azalıb. (ANS) Nəticədə, transfertlərdən asılı olan ailələrin ödəniş qabiliyyəti kəskin azalıb, ərzaq məhsulları və vacib xalq istehlak malları yenidən bahalaşıb. Rusiyaya sıx iqtisadi bağlarla əlaqəli olan Ermənistan üçün şimal ölkəsində baş verənlərin çox böyük önəmi var. Rusiyada isə işlər, yumşaq deyilsə, elə də yaxşı getmir. İllik inflyasiya burada artıq rekord səviyyəyə qalxaraq artıq 17% təşkil edib və artmaqda davam edir. Fizikanın birləşmiş qablar qanununda olduğu kimi, Rusiyada vəziyyət pisdirsə - Ermənistanda daha pisdir. Buna görə də Karneqi Fondunun ekspertlərinin bu Cənubi Qafqaz respublikasında etiraz aksiyalarının sayının dəfələrlə artması barədə verdiyi proqnoz, böyük ehtimalla, gerçəkləşəcək.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY



# Bizə seçki lazımdırmı?

Azər RƏŞİDOĞLU

**Azərbaycanda hər hansı bir seçkinin keçirilməsinə ehtiyac varmı? Seçki nəyə lazımdır? Seçkinin önəmi nədən ibarətdir? Demokratik dünyada belə suallar ironiya ilə qarşılanardı. Azərbaycanda isə respondentlərin önəmli hissəsi seçkinin əhəmiyyətsiz olduğunu söyləyə bilər. Doğrudan da, seçkinin nə əhəmiyyəti var ki?**

Seçkinin önəmi yeni hökumətin formalaşması ilə bağlıdır. Hər seçki yeni məmur, nazir dəyişikliyi və fərqli idarəçilik anlamına gəlir. Avropa ölkələrində hakim partiya təkrar iqtidar olursa, yenə də hökumətdə yeni komanda ilə təmsil olunur. Azərbaycanda isə Nazirlər Kabinetinin tərkibi demək olar ki dəyişmir. Kiçik və kosmetik dəyişikliklər isə insanlara pozitiv impulslar verməyə qadir deyil. Bu ölkədə nə baş nazir dəyişir, nə də ki baş molla. Belə ölkədə yaşamaq maraqsızdır. Siyasətlə məşğul olmaq isə ikiqat maraqsızdır. Söhbət yalnız seçkilərin nəticələrinin şübhə doğurmasından da getmir. Konfiqurasiyaların da dəyişməz qalması ciddi böhran yaradır. Ən azından toplananların yerini dəyişmək mümkün idi.

Normal ölkələrdə hakimiyyətin başında dayanan şəxs kimi, müxalifət liderləri də dəyişir. Azərbaycanda isə bunu müşahidə etmək mümkün deyil. Bir sıra hallarda partiya sədrləri geri çəkilir, lakin yenə də partiyanı əvvəlki kimi idarə edir. Sanki partiyalara da inhisara alıblar. İndiki müxalifət liderlərinin böyük əksəriyyəti 80-ci illərin xalq hərəkatının önündə gedənlərdir. O illərdə bir çağırışla meydanlara yüz minləri toplaya bilirdilər. Hərəkatın o zamankı və indiki liderləri elə o dövrdə anlamalıydılar ki, bu, hər zaman belə olmayacaq. İnsanların mübarizliyinin, dözümünün və inamının limiti var. Dəstəkdən sui-istifadə etmək olmazdı. Özünə vurğunluq sonda bu dərəcədə anormal vəziyyətə səbəb oldu. Meydanlara yüz minləri toplayan liderlər bu gün birlikdə kiçik bir stadiona 2-3 min insan toplamaqda çətinlik çəkirlər.

Bu gün bir-birilərinə qənim kəsilən, düşmən olan müxalifət ayrı-ayrılıqda iqtidar olmağı ağlından belə keçirə bilmir, birlik nümayiş etdirib qalib gəlsə belə, səlahiyyətlər uğrunda hansı qanlı savaşın olacağını çoxları düşünür. Bütün bunların təsadüfü olduğuna inanmaq artıq mümkün deyil. Əslində baş verənlər təkəbbür göstəricisi hesab edilə bilər. İqtidar və müxalifəti hakimiyyət hərisliyi birləşdirir. Hakimiyyət hərisliyi isə sağalmaz xəstəlikdir. Öncədən profilaktik tədbirlər həyata keçirilməlidir.

Elə bu səbəbdən də demokratik ölkələrdə eyni şəxsin on illər boyunca partiya sədri olması mümkün deyil. Demokratik düşüncə elə müxalifət partiyasından başlayır. Partiya sədri postunu ölümünə qədər idarə etmək arzusunda olanlar iqtidara gəldikdən sonra daha tezliklə diktatora çevrilə bilirlər.

Maraqlı olan başqa sualdır. Bu gün iqtidar mənsublarının bölə bilmədiyi nəsnələr az deyil. Bəzi hallarda söhbət dəyəri milyonlarla ölçülən vəsaitdən gedir. Müxalifət nəyi bölə bilmir? Azərbaycanda müxalifət təşkilatının rəhbərliyində təmsil olunmaq xüsusi imtiyazlara malik olmaq demək deyil.

Türkiyədə, Rusiyada, Avropa ölkələrində siyasətçinin müxalifət partiyalarının rəhbərliyində təmsil olunması bilinən və bilinməyən imtiyazlara sahib çıxmaq anlamına gəlir. Azərbaycanda isə tam əksinədir. Müxalifətçi olmaq həbslər, təqiblər və işsizlik deməkdir. Şübhəsiz ki, mövcud status kvonu qoruyub saxlamaq istəyən hakimiyyət kimlərisə qeyri-rəsmi himayəsi altına ala bilər. Lakin ümumilikdə götürdükdə müxalifətçilik heç bir müsbət perspektiv vəd etmir. Belə bir şəraitdə münasibətləri düşmənçilik səviyyəsinə qaldırmaq, hakimiyyətdən daha çox öz əqidədaşına nifrət püskürmək nəyə xidmət edir?

Son 20 ilin məğlubiyyəti son dərəcə əsəbi mühit yaradıb. Yüzlərlə insan onları bu acınacaqlı hala salan təbəqəyə qarşı mübarizədə öz acizliklərini ört-basdır etmək üçün elə müxalifətçi yoldaşlarına hücum təşkil edirlər.

Baş verənlər olduqca acınacaqlıdır. Kənar baxışla baxdıqda bir tərəfdə bir-birinin qanına susayan müxalifətçilər, digər tərəfdə isə bütün nifrətlərini malalamağı bacaran iqtidar dayanır. Kənar seçici kimi seçməlidir? Kim daha cəlbedici və məqbul görünür? Bu suallara cavab tapa bilməkdən ötrü müxalifətin daxili savaşına nəzər yetirmək kifayət edir...

---

**Lamiyə Quliyevanın məhbəsdə ana olması ictimailəşəndən sonra Şəmkirdə baş vermiş və illərlə araşdırılmayan bir çox cinayətlər haqda bilgilər ortaya çıxdı. İllərlə susmaq məcburiyyətində qalanlar bu gün də danışmaqda davam edirlər və yeni-yeni faktlar üzə çıxır. Bir anlıq təsəvvür edək ki, deyilənlər, yazılanlar Aslan Aslanovun deyil, müxalifət təşkilatlarından birinin ucqar kənddəki özəyinin sədri haqdadır.**



Aslan Aslanov

# İş adamı Aslan Aslanovun "ölüm eskadronu" qurbanlarının adlarını açıqladı

## Elpərəst Həsənli: "Baş Prokurorluqdan istintaq qrupunu gözləyirəm, gəlsinlər, başqa ölümlər haqda da məlumat verməyə hazıram"

Yəqin ki, bu gün həmin adamın yaxınları Bakı İstintaq Təcridxanasının qarşısında dayanıb ona gətirdikləri sovqatı ötürmək üçün yollar axtarırdılar...

Lamiyə Quliyevanın məhbəsdəykən ana olması xəbəri yanvarın 16-da yayılıb, fevralın 20-də isə Bakı Apelyasiya Məhkəməsində onu məhkəmə zalından azad ediblər. Xəbərin yayılmasından 2, L.Quliyevanın azad edilməsindən 1 ay ötür. L.Quliyeva sərbəst şəkildə başına gələnləri danışır, ona qarşı həbsdə törədilən cinayətləri detallarına qədər konkret ad çəkərək söyləyir.

### Aslan Aslanovun ətrafındakı ölümlər haqda şok məlumatlar

Araşdırma aparılması üçün başqa nə lazımdır? YAP üzvü olmaq, vaxtilə hökumətdə təmsil olunmaq cinayət törətməyə və cəzasız qalmağa yol açır?

*1-ci ölüm*

**A.Aslanovun Şəmkirin icra başçısı olarkən iş adamı Elpərəst Həsənlini həbs etdirməsi haqda yazmışdıq. İş adamı A.Aslanov haqda bir çox iddialar dilə gətirmişdi. E.Həsənli bu gün də dediklərinin araşdırılmasını tələb edir:** "Dediklərimi araşdırsınlar. Onda görəcəklər ki, Aslan Aslanov kimdir. O, Şəmkirdə icra başçısı işləyəndə çox adamlar qəfil ölüb. Şəmkir Avtobazasının müdiri Elman vardı. Aslan onun qara rəngli "Volqa"sı ilə Bakıya gedib gəlirdi.



Elpərəst Həsənli

Elmana demişdi ki, özüm Bakıya vəzifəyə gedirəm, səni öz yerimə qoyuram. Onun həyat yoldaşı Üçtəpədən idi. Şəmkirdə hamı bilir ki, o kənddə yaşayanların böyük əksəriyyəti pulludur. Onlar pulu Rusiyada qazanırlar. Elmanın qayınatası "Rayponun" sədri olmuşdu. Elman onlara demişdi ki, "Aslan gedir, yerinə məni qoyacaq, pul lazımdır". Onlar da Aslanı tanıdıqlarından Elmana pul verməkistəməyiblər. Elman deyib ki, Aslan pulu filankəsə aparıb verəcək. O şəxs həmin vaxt çox nüfuzlu idi, onun icra başçısı təyin etdirmək imkanı vardı. O adamın adı çəkildiyinə görə pulu yığıb Elmana vermişdilər. 3 milyon... O da aparıb vermişdi Aslana ki, onu vəzifəyə qoyacaq. Aradan xeyli keçəndən sonra Aslan Elmanı kabinetinə çağırıb, deyib ki, sabah yox, birigün əmrin veriləcək. Elman evinə gedəndən az sonra qəfil öldü".

**E.Həsənli deyir ki, mərhumun meyiti qeyri-adi şəkildə qaralıb:** "Elmanın meyiti qapqara olmuşdu. Camaat yasda pıçıldaşırdı, hamı Elmanın Aslanın kabinetindən gələndən sonra qəfil öldüyünü deyirdi. Camaatdan soruşdum, dedilər yəqin ki, ona da zəhər veriblər".

**E.Həsənlinin sözlərinə görə, avtobaza müdirinin müəmmalı ölümündən sonra A.Aslanov onun qohumlarını vəzifəyə təyin etdirməklə sakitləşdirib:** "Elmanın ölümündən sonra qardaşı Aydını Şəmkir Qaz İstismar İdarəsinin rəisi təyin etdirdi. Oğlunu Qazax Gömrük Keçid Məntəqəsində işə düzəltdi. Bu gün də orada işləyir".

*2-ci ölüm*

**E.Həsənli deyir ki, A.Aslanov avtobaza müdirinin oğlu kimi, Gədəbəy batalyonunun komandiri Cahangir Rüstəmovun oğlunu da vəzifəyə qoydurub, onun qohumlarını sakitləşdirib:** "Cahangir sayılıb-seçilən komandirlərdən idi, Aslanovun onun işlərinə qarışmasına imkan vermirdi. Onun maşınını Nəbi vardı, onun əli ilə minaya saldılar. Cahangir öldü, sürücüsü sağ qaldı. Bu məsələni araşdıran müstəntiqi də güllələdilər. Cahangir Rüstəmovun oğlunu da aparıb Qazaxda Gömrük Keçid Məntəqəsində işə qoydu".



Fikrət Məmmədov

*3-cü ölüm*

**E.Həsənli deyir ki, A.Aslanov icra başçısı vəzifəsinə təyin etdirəcəyi vədini çoxlarına verib:** "Üçtəpədən Hidayət İsmayılov vardı. O, uzun illər "Selmaş"ın müdiri olmuşdu, sonradan 2-ci katib işləmişdi. Aslan Aslanov ona da söz vermişdi ki, özünün yerinə icra başçısı qoyacaq və bir xeyli pulunu almışdı. Hidayət İsmayılov Aslan Aslanovun qəbulundan çıxandan 2 saat sonra gedib evində ölmüşdü. Ona da zəhər vermişdilər".

*4-cü ölüm*

**E.Həsənli deyir ki, A.Aslanovun özünün tutduğu postu vəd etdiyi şəxslər müəmmalı şəkildə və şəraitdə dünyalarını dəyişiblər:** "Ceyhun adlı şəmkirli vardı. Atası çox imkanlı idi. Həmin oğlanı Şəmkir İcra Hakimiyyətinin hüquq şöbəsinə müdir qoymuşdu. Ceyhuna da demişdi ki, Bakıya vəzifəyə gedir, yerinə onu qoyacaq. 3 milyon Ceyhunun atasından almışdı. Ceyhuna demişdilər ki, əmrini sabah oxuyacaqlar, gedək Kür çayının kənarında yeni vəzifəni qeyd edək. Başda qardaşı Elsevər, əmisi oğlu Nizami, dayısı oğlu İsa, özü və Ceyhun Kürün kənarına getmişdilər. Ceyhunun qalstuklu meyitini Mingəçevirdə "vodolaz"lar tapdı. Dedilər ki, Ceyhunu özləri itələyib Kürə atıblar. O oğlan da elə getdi".

*5-ci ölüm*

**E.Həsənli general-mayor Fikrət Məmmədovun qanını da A.Aslanovun batırdığını dedi:** "Fikrət Məmmədov öldürülməsəydi, müdafiə naziri olacaqdı. Bunu demişəm, deyəcəyəm. Onu qəzaya saldılar. Qəzadan sonra o və sürücüsü maşından düşmüşdülər. Fikrət Məmmədov camaatı sakitləşdirib demişdi ki, maşın əzilibsə, düzələcəklər. Həmin vaxt Aslan Aslanov başda olmaqla, qardaşı Elsevər, əmisi oğlu Əziz, dayısı oğlu İsa və 2 gürcüstanlı qəza yerinə çatmışdılar. Fikrət Məmmədov Aslanı görəndə başa düşmüşdü ki, bu, quramadır. Camaata da demişdi ki, qoymayın, bu adamlar məni vuracaq. Fikrət Məmmədovun qollarını burub başının arxasından çəkiclə vurmuşdular. Əgər o qəzaya düşmüşdüsə, xəsarətləri başının ön hissəsində olardı. Başının arxası necə əzilə bilərdi? Onu öldürdülər. Müdafiə Nazirliyindən Murad Həmidov gəlib onun meyitini apardı".

*6-cı ölüm*

**E.Həsənli A.Aslanovun qardaşı Elsevər Aslanovun maşınla Şəmkir sakinini vurub öldürdüyünü də bildirib:** "Həmin kişi hər gün piyada 5 kilometr yol gedirdi ki, ayaqları açılsın. Elsevər bazardan aşağıda yerləşən restoranda yeyib-içəndən sonra oradan çıxmışdı və onu maşınla vurmuşdu. Kişi elə orada ölmüşdü. Aslan həmin ölümü Sahib adında birinin boynuna qoydu və sonradan onu yol polisində işə düzəltdi. Həmin Sahibə sonradan bazar da açdı. O kişinin də qanı elə batdı".

### Siyavuş Novruzov dedi ki...

**E.Həsənli deyir ki, dediklərinin Baş Prokurorluqda araşdırılmasını istəyir:** "Aslanla bağlı bu məsələlər ortaya çıxandan sonra YAP-çı deputat Siyavuş Novruzov dedi ki, mətbuatda yazılanlar araşdırılmalıdır. Əgər düzdürsə, Aslan Aslanov, düz deyilsə, deyən adamlar məsuliyyətə cəlb olunmalıdırlar. Siyavuş Novruzov bunu Milli Məclisdə dedi. Mən Baş Prokurorluqdan istintaq qrupunu gözləyirəm. Gəlsinlər, başqa ölümlər haqda da məlumat verməyə hazıram".

❑ E.MƏMMƏDƏLİYEV

*P.S. Yazıda adı keçən hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

YENİ MÜSAVAT
N 53 (6081) 10 mart 2015

**Azərbaycanla Türkiyə arasında hərbi və hərbi texniki sahədə əməkdaşlıq güclənməkdədir. Bunu xüsusilə də ötən ilin avqustundan etibarən - cəbhə bölgəsində "3 günlük müharibə"dən sonra iki qardaş ölkənin birgə hərbi təlimlərinin intensivləşməsindən görmək olar. Dərhal vurğulayaq ki, öncə Azərbaycanda, sonra da Türkiyə ərazisində reallaşan (sonuncu təzəcə başa çatıb) təlimlərin bənzəri indiyədək olmayıb. Yəni bunlar presedentsiz ortaq manevrlərdir.**

# Türkiyə-Azərbaycan hərbi ittifaqı yeni fazaya keçir

## İki təbii müttəfiqin son vaxtlar bir-birinə daha da yaxınlaşması, intensivləşən ortaq hərbi təlimlər ən çox işğalçı Ermənistanı xoflandırıb; genişlənən Ankara-Bakı hərbi əməkdaşlığı digər məkrli qüvvələrə də mesajdır...

Bakı ilə Ankara arasında hərbi əlaqələrin dinamikasında yüksələn xəttin mövcudluğunu iki ölkə arasında hərbi sahəni təmsil edən yüksək çinli rəsmilərin çoxalan qarşılıqlı səfərləri də sübut edir. Bu mənada keçən həftə Türkiyə Hərbi Hava Qüvvələrinin komandanı, ordu generalı Akin Öztürkün böyük bir nümayəndə heyəti ilə Bakıya gəlişi və onun Azərbaycan paytaxtında yüksək səviyyədə görüşlər keçirməsi, görüşlərlə eyni vaxtda isə Türkiyədə birgə hərbi təlimlərin davam etməsi kifayət qərər effektli və yadda qalan hadisə oldu.

Son olaylar həmçinin Bakı-Ankara hərbi ittifaqının yeni keyfiyyət mərhələsinə adladığı haqda bölgədəki antitürk qüvvələrə, məkrli güclərə xəbərdarlıq mesajı, ortaq güc nümayişi hesab edilə bilər. Görünən odur ki, Azərbaycan və Türkiyə iki təbii müttəfiq kimi yeni regional hədələri və çağırışları, bölgədə formalaşan olduqca mürəkkəb və təhlükəli prosesləri bütün ciddiliyi ilə diqqətə alır.

Qürurvericidir ki, bu təhdidlərin qarşısının alınmasında Bakı və Ankara məhz sinxron, ölçülü-biçili, operativ və preventiv xarakterli addımlar atmaq kursu götürüb. Belə addımların önümüzdəki aylarda genişlənəcəyini söyləmək olar. O sırada Azərbaycan üçün təcrübəli və savadlı hərbi mütəxəssislərin hazırlanması işinin genişlənəcəyi gözləniləndir.

Ərazisinin 20 faizi işğal altında olan Azərbaycandan ötrü NATO üzvü Türkiyə ilə hərbi sahədə əlaqələrin bütün parametrlər üzrə inkişafı ikiqat vacibdir. Ən azı, o baxımdan ki, Qarabağ konflikti zonasında status-kvo əbədilik deyil və indiki kimi qalmayacaq. Əksinə, xarici amillərin təsiri altında vəziyyətin hər an nəzarətdən çıxıb kardinal şəkildə dəyişməsi və qaynar fazaya keçməsi riski Rusiyanın son aqressiv davranışları fonunda əhəmiyyətli ölçüdə artıb.

Söhbət həmçinin prezident Putinin Avrasiya layihələrinə Azərbaycanı qoşmaq naminə "Qarabağ kartı"ndan istifadə ehtimalının güclənməsindən, Kremlin Ukraynaya görə Güney Qafqazda Qərbdən revanş götürmək istəyindən gedir. Deməli, Bakı-Ankara yaxınlaşmasını fors-major vəziyyətlərdə iki qardaş ölkənin hazırlıqsız yaxalanmaması zərurəti də diktə edir. Mübaliğəsiz demək olar ki, Azərbaycanın təhlükəsizliyinin və müstəqilliyinin təminatı məsələsində indi heç vaxt olmadığı qədər Türkiyənin rolu, önəmi və təsiri artıb.

Ölkələrimiz arasında güclənən hərbi əməkdaşlıq, heç şübhəsiz, Azərbaycan Silahlı Qüvvələrinin NATO standartlarına daha effektli və problemsiz keçidi üçün də zəruridir. Hər halda, Bakı bəlli və obyektiv səbəblərdən Şimali Atlantika alyansına qoşula bilməsə də, qardaş Türkiyənin imkan və potensialından, hərbi quruculuq sahəsindəki nəhəng təcrübəsindən tam şəkildə yararlanmaq şansına malikdir.




Bu və digər səbəblərdən iki qardaş arasında genişlənən hərbi əməkdaşlıq sövq-təbii olaraq hamıdan çox, təcavüzkar Ermənistanı narahat edir. Bunu erməni KİV-lərində gedən şərh və təhlillərdən, Azərbaycan-Türkiyə hərbi ittifaqından, ortaq hərbi manevrlərdən dolayı artan xofdan sezmək çətin deyil.

Erməni elektron portallarının birində gedən yazıların birində bu xof və qorxu hissi aydınca əks olunub. Sitat: **"Azərbaycan Silahlı Qüvvələrində türkiyəli təlimatçıların, zabitlərin, həmçinin xüsusi hazırlıq keçmiş hərbçilərin mövcudluğu getdikcə daha güclü şəkildə öz təsdiqini tapmaqdadır. Bu, cəbhə xəttindəki əməliyyatlarda guya türkiyəli hərbçilərin heç bir rolunun olmadığı haqda Azərbaycan təbliğatını təkzib edir".**

Portal bir az da irəli gedərək iddia edib ki, guya Türkiyə Ordusunun briqada generalı Nevzat Taşdelerin rəhbərliyi altında Azərbaycanda 50 türkiyəli hərbi təlimatçı fəaliyyət göstərir. **"Onlardan ikisi Azərbaycanın müdafiə nazirini məsləhətçiləridir. Daha birisi eyni işi Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargahında görür və Baş Qərargah rəisi Nəcməddin Sadıkovun müşaviri sayılır. Azərbaycanın bütün növ qoşun hissələrinin komandanlığının hər bir ilə iki Türkiyə təlimatçısı işləyir. Daha 5 təlimatçı Azərbaycanın xüsusi təyinatlı dəstələri olan "Mavi beretlər"də çalışır"**, - deyə erməni nəşri yazıb.

Əlbəttə ki, bu, düşmən tərəfinin öz interpretasiyasıdır. Ancaq hətta sadalananlar doğrudursa belə, qəribə heç nə yoxdur. Azərbaycan suveren, müstəqil dövlətdir və istəsə öz ərazisində, məsələn, Naxçıvanda Türkiyə hərbi bazası da yerləşdirə bilər. Hər halda, Azərbaycan və Türkiyənin qorxusundan 2048-ci ilədək Rusiyanın rəsmi forpostu olmağa razılıq vermiş təcavüzkar Ermənistanda gərək buna təəccüblənməsinlər.

İşğal davam etdikcə, həm Ermənistanın blokadası, həm də Bakı-Ankara hərbi ittifaqı durmadan güclənəcək və genişlənəcək. Bu təbiidir - iki ölkənin qardaşlığı və dostluğu kimi...

❑ **Siyasət şöbəsi**

# Generalın qardaşının tikdirdiyi evlər sökülür

## Xeyli vətəndaş Əli Nağıyevin yaxınlarının yalan vədlərinin güdazına gedib; "Motodrom" tərəfdə inşa olunmuş fərdi yaşayış evləri kompensasiya ödənmədən yerlə yeksan edilir

**Bir vaxtlar "Motodrom" adlanan yaşayış massivinin indi yalnız adı qalıb. Vaxtilə müxalifətin mitinqləri təşkil olunan sahədə hazırda müxtəlif layihələr həyata keçirilməkdədir.**

Odur ki, bəzilərindən "Motodrom" soruşanda belə tanımırlar. Çünki bu ərazi Bakı avtovağzalı kimi tanınmaqdadır.

Massiv artıq nəinki avtovağzal, o cümlədən "Avtovağzal" metro stansiyası, depo tikintisi, habelə Bakı Dairəvi-1 yolunun çəkilişi üçün meydançaya çevrilib. Bütün bu layihələr isə öz növbəsində "Motodrom"dakı tikililərin də sökülməsi ilə nəticələnir.

Üstəlik, Avropa Oyunları ilə əlaqədar Bakı Atıcılıq Mərkəzinin bu sahədə inşa olunması yeni bir strateji əhəmiyyətli yeri formalaşdırıb. Ötən gün sözügedən ərazidə görülən işlər və sökülən evlərin aqibəti ilə tanış olarkən öyrəndik ki, elə martın 9-da prezidenti İlham Əliyev, xanımı, Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri Bakı Atıcılıq Mərkəzinin açılışında iştirak ediblər.



Gənclər və idman naziri Azad Rəhimov dövlət başçısına mərkəz haqda məlumat verib. Mərkəz idmanın güllə və stend atıcılığı növləri üzrə yarışların və məşqlərin keçirilməsi üçün nəzərdə tutulub.

Mərkəzin ərazisi genişləndirilərək 19,6 hektara çatdırılıb. Mərkəzdə idmançılar və məşqçilər, həmçinin qonaqlar üçün mehmanxana binası da inşa edilib. Kompleksin yaradılması "Bakı-2015" ilk Avropa Oyunları zamanı idmanın güllə və stend atıcılığı növləri üzrə yarışların keçirilməsinə imkan verəcək.

### Evlər sökülüb, pulu isə...

"Motodrom"da görülən digər işlər isə lap əvvəldən başlanılıb. "Azəryolservis" ASC və "Bakı Metropoliteni" QSC nümayəndələri buradakı bəzi evlərin və həyətlərin ərazisini ölçüblər. Sakinlərə deyiblər ki, ölçülmüş evlər sökülləcək.

Üstəlik, sökülləcək evlərə görə nağd pulun veriləcəyi, yaxud sakinlərin başqa ərazilərə köçürüləcəyi barədə də heç bir informasiya verilməyib. Odur ki, mülk sahibləri nigaran qalıb.



**"Avtovağzal" metro stansiyası, Bakı Atıcılıq Mərkəzi və Bakı-Quba yolunun genişləndirilməsi ərazidə evlərin sökülməsi, yaşıllıqların kəsilməsi ilə müşayiət olunur; əməkdaşımız Avropa Oyunlarında atıcılıq keçiriləcək kompleksdən yazır**

Məqsəd Bakı - Rusiya magistral avtomobil yolunun üstündəki yolötürücüsünün altında yeni yolötürücülər tikmək olub. Ərazidə "Körpü-Bina Tikinti" MMC-nin texnikaları tərəfindən qazıntı işləri aparılıb. Biz ərazidə olarkən artıq xeyli işin görülməsinin şahidi olduq. "Motodrom"la Xocasən arasında üçmərtəbəli bina köçürülüb.

Sökülən binanın yerində metronun elektrik deposu tikilir. Elektrik deposuna qatarların hərəkəti üçün metronun "Avtovağzal" stansiyasından Xosasən qəsəbəsinədək mənzil-keçid funksiyalı yeraltı tunelin tikilməsinə başlanıb. Onu da öyrənirik ki, evləri sökülənlər ərazidən köçürülüb. Məcburi köçkün olanlara "Qaçqınkom" tərəfindən mənzil verilib, başqalarına isə kvadratına 1200 manatdan kompensasiya ödənildiyi bildirilir.

Şahidi oluruq ki, Bakı-Sumqayıt avtomobil yolunun genişləndirilməsi başa çatmaq üzrədir. Artıq tikinti prosesi "Motodrom"un kənarında davam etdirilir. Artıq avtovağzaldan "20 Yanvar" istiqamətində yerləşən şam ağaclarından ibarət meşəlik zonası da bu layihəyə qurban verilir. Ərazidə yaşıllıqlar kəsilir.

Sökülən evləri Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin rəis müavini general Əli Nağıyevin yaxınlarının tikdiyi deyilir. Bu məlumatı həmin ərazidən fərdi yaşayış evləri almış sakinlər "Yeni Müsavat"a veriblər. Onların sözlərinə görə, tikinti işlərinə generalın qardaşı Vəli Nağıyev rəhbərlik edir. O, bu işləri Azər adlı yaxın adamının əli ilə görüb. Sakinlərin redaksiyamıza verdikləri məlumata görə, Vəli Nağıyev və Azər *(soyadını dəqiqləşdirə bilmədik-red.)* ev alan insanları arxayın salıblar ki evlər sökülməyəcək. Sökülsə də kompensasiya alacaqlar. Amma göründüyü kimi, Nağıyevlər və onların ətrafı sadəcə insanlara quru vəd vəriblərmiş.

### Meşəlik səhraya çevrilir

Nəzərə alsaq ki, genişləndirilməkdə olan yol həmin meşəlikdən keçəcək, onda ümumiyyətlə yaşıllıq qalmayacağını söyləmək olar. Amma yolun genişləndirilməsi "Motodrom"da yaşayanların və evi sökülməyənlərin nəqliyyat vasitələrindən sərbəst istifadə etməsini asanlaşdıracaq.

Kəsəsi, "Motodrom"un üç layihənin reallaşdırılması nəticəsində xəritədə yalnız adı qalıb- "Avtovağzal" stansiyası, Atıcılıq Mərkəzi və Bakı-Quba yolunun genişləndirilməsi.

Xatırladaq ki, "Azəryolservis" ASC-nin mətbuat xidmətinin rəhbəri Pünhan Mürsəliyev də bu haqda danışmışdı. Bildirmişdi ki, Bakı-Quba-Rusiya dövlət sərhədi avtomobil yolunun "Avtovağzal dairəsi" adlanan ərazisinin "Bakı Dairəvi-1" avtomobil yoluna birləşdirilməsi məqsədilə yeni yol tikilir.

Sumqayıt istiqamətindən gələn Beynəlxalq Avtovağzaldan Qazax-Gürcüstan sərhədi, Ələt-Astara-İran sərhədi və Hacıqabul-Horadiz istiqamətində sərnişin daşıyan avtobuslar Bakı-Sumqayıt yoluna daxil olmadan Respublika Stend Atıcılığı İdman Kompleksinə və "Bakı Dairəvi-1" avtomobil yoluna maneəsiz çıxa biləcəklər.

❑ **E.SALAMOĞLU**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 53 (6081) 10 mart 2015

# Azərbaycan manatı üçün sınaq həftəsi - yeni eniş gözlənilir?

Ekspertlər bildirirlər ki, vəziyyət təhlükəli həddədir, Mərkəzi Bankın bankların valyuta risklərini tənzimləməkdən imtina etməsi stress yaradacaq...

**Milli valyuta yenidən devalvasiyaya uğraya bilər. Mərkəzi Bankın kommersiya banklarına göndərdiyi "nəzarəti təxirəsalma" sənədi də bu ehtimalları gücləndirir. Ekspertlər bildirirlər ki, bu qərar bankların vəziyyətini də çətinləşdirəcək.**

MB-nin göndərdiyi məktubda qeyd olunur ki, bu ilin sonunadək açıq valyuta mövqeyi limitləri tətbiq edilməyəcək. Mərkəzi Bank bankların valyuta risklərini tənzimləməyəcək və onlara nəzarət etməyəcək. Ekspertlər isə qeyd edirlər ki, bununla ölkədə fəaliyyət göstərən bankların valyuta riskləri arta bilər.

Həmçinin vurğulanır ki, MB-nin valyuta ehtiyatları son 3 ayda ən aşağı həddə düşüb. Qurum son üç ayda valyuta ehtiyatının 27 faizini itirib. Dekabr-fevral aylarında ehtiyat təxminən 4 milyard dollar azalıb.

Əksər ekspertlər banklara göndərilən məktubla bağlı bildirirlər ki, ölkədə valyuta riskləri artır. Bu məktub bankların "başlı-başına buraxılmasının" işarəsi kimi də göstərilir. Bildirilir ki, əsas məqsədinə, yəni qiymətlərin sabitliyinin təmin edilməsinə nail ola bilməyən Mərkəzi Bank manatın və bank sisteminin gələcək taleyinə görə məsuliyyəti üzərindən atmaq istəyir. Yəni bundan sonra banklar istədiyini edə bilər və Mərkəzi Bank heç nəyə qarışmayacaq. Ekspertlərin fikrincə, neftin qiyməti artmasa, yaxın bir ildə manatın növbəti devalvasiya ehtimalı çox böyükdür. Mərkəzi Bankın məktubu da bunu təsdiqləyir.

**Ekspert Natiq Cəfərli isə məsələ ilə bağlı musavat.com-a bildirib ki, tezliklə kəskin devalvasiyanın olacağını gözləmir:** "Çünki biznes sahibləri, banklar, vətəndaşlar hələ ki kəskin devalvasiya şokunu üstündən ata bilməyib. Ona görə də növbəti devalvasiyanın olmasına, açığı, inanmıram. Mən gözləmirəm, mümkün də deyil. İqtisadiyyat bunu qaldıra bilməz. Amma görünən odur ki, Mərkəzi Bankın siyasəti və hökumətin siyasəti, məzənnəni saxlamaq üçün manata müdaxilələri minimuma endirmək və valyuta ehtiyatlarından pul xərcləməmək kursunu götürüb. Valyuta ehtiyatlarını qorumağa çalışacaq. Avroya qarşı manat dəyər qazanacaq, dollara qarşı isə manatın məzənnəsi az da olsa aşağı düşməsi ehtimalı var. Bu çərçivədə proseslərin gedəcəyini gözləmək, məncə, daha məntiqli olardı".




**Mərkəzi Bankın məktubuna gəldikdə isə N.Cəfərli bunu bankları gözləyən təhlükə adlandırıb:** "Məktubun məğzi ondan ibarətdir ki, banklar əvvəllər bütün valyuta əməliyyatlarını Mərkəzi Bankla tənzimləyirdilər, razılaşdırırdılar. Mərkəzi Bankın müəyyən kriteriyaları var idi, o kriteriyalara uyğun hərəkət edirdilər. Mərkəzi Bank bankların xarici borclarını, dollar əməliyyatlarını müəyyən dərəcədə nəzarətdə saxlayırdı. Bu isə bankları daha əminli və güvənli addım atmağa sövq edirdi. İndi isə Mərkəzi Bank bankların valyuta əməliyyatlarını tənzimləməsi yolundan çəkilir. Çox təəssüf ki, Azərbaycan banklarının da çoxlu xarici borcu var. Müxtəlif rəqəmlər səsləndirilir, ən azından bir neçə milyard dollardan söhbət gedir. Uzun illər Azərbaycan manatı çox stabil olduğundan, məzənnəsi dəyişmədiyindən və xarici bazarlarda kredit məhsulu çox ucuz olduğundan, banklar xaricdən çox ucuz faizlərlə kredit cəlb edirdilər Azərbaycana. Sonradan onların böyük əksəriyyəti əhaliyə manatla çox böyük faizlərlə istehlak krediti şəklində verilirdi. İndi isə bankların xarici borcları bir gecədə daxildəki devalvasiyaya görə 35 faiz bahalaşdı. Bankların verdiyi kreditlərin böyük əksəriyyəti manatla olduğundan, vəziyyətin getdikcə pisləşməsi ehtimalı var. Onlar ziyanın qarşılanmasında Mərkəzi Banka ümid edirdilər ki, müəyyən dərəcədə MB onlara dəstək verəcək. Əslində Mərkəzi Bankın bu məktubu, yeni bir qərar qəbul olunmasa, o deməkdir ki, banklar artıq MB-yə ümid etməsinlər. Banklar öz problemlərini özləri həll etməyə çalışmalıdırlar. Bunun özü bank sferası, bank sektoru üçün müəyyən stress yaradacaq. Bəzi bankların xarici borclarından asılı olaraq çətin duruma düşməsi ehtimalı var. Mərkəzi Bank əgər valyuta ilə əməliyyatların tənzimləmədən çəkilirsə, xaricdən valyuta ilə borc alan bankaların borc ödəmə vaxtı çatdıqda məcburən bazardan dollar alaraq xarici borclarını ödəməyə, borcu bağlamağa çalışacaqlar. Bankların dollara ehtiyacının artması məzənnənin getdikcə daha yüksək hədlərə çatması üçün şərait yarada bilər. Yəni burada əsas təhlükəli məqam ondan ibarətdir ki, bankların özlərinin borc ödəmə zamanı gəldikdə, daha çox valyuta ehtiyacları olacaq. Daha çox valyuta ehtiyacları olduqda, bazardan daha çox valyuta almağa çalışacaqlar. Tələbat artdıqda isə təbii ki, məzənnənin qiymətində də müəyyən qədər dəyişiklik olacaq. Yəni bu məktubun məğzi bu təhlükələrdən ibarətdir".

**Ekspert Samir Əliyev isə qeyd edib ki, Mərkəzi Bankın bankları çətin situasiyada "təkbaşına buraxması" bankların manevr imkanlarını artıracaq:** "Lakin bu durum məsuliyyətsiz banklar üçün çox təhlükəlidir... Məncə, əsas məqsəd banklara dəstək verməkdir. Devalvasiyanın vurduğu zərəri bir qədər azaltmaq istəyidir. Həm əmanətlərdə, həm də kreditlərdə manat hələ ki üstünlük təşkil edir. Yəqin ki, getdikcə nisbət dolların xeyrinə dəyişəcək. Amma ötən ilin sonlarından başlayaraq banklar dollarla kredit verməyə üstünlük verirlər. Manat krediti almaq çətinləşib. Əslində banklar devalvasiyadan öncə buna başlamışdılar. Səbəb də həm də devalvasiya ehtimalından özlərini sığortalamaq idi".

❑ **Röya RƏFİYEVA**

# Bank girovları...

Azərbaycan vətəndaşlarının girovluq statistikası; ürəktutma problemləri ilə bağlı xəstəxanalara müraciət edənlər çoxalıb

**Bir neçə gün öncə Sabirabadda 4 banka borcu olan Qarabağ qazisi Cəbrayıl Həsənovun intihar etməsi manatın devalvasiyasından sonra ölkədə sosial durumun ən kritik həddə çatmasından xəbər verir. Yaşayış şərtlərinin çətinləşməsi, kütləvi işsizlik insanların əsəblərini tarıma çəkib. Statistikaya görə, bu gün 5 milyon vətəndaşın 7 milyard manat borcu var.**

Bir neçə il öncə neft bumu yaşananda iqtisadçılar hökumətin vətəndaşlara, sadə desək, pul satmağa başlayacağı haqqında proqnozlar vermişdi. Ekspertlər bildirirdilər ki, hökumət neft pulundan gəlir əldə etməyin ən asan yolunu seçəcək - kredit şəbəkəsini genişləndirəcək. Bu istiqamətin inkişaf etdirilməsi hökumət üçün bir neçə səbəbdən cəlbedici idi. Ən əsas səbəb də o idi ki, hökumət ölkədə nə azad iqtisadi mühit, nə normal rəqabətlilik şərtləri yaratmaq istəmir - bütün bunlar hökumətin kabusuna çevrilmək ehtimalı yüksək olan orta təbəqənin yaranmasını sürətləndirə bilərdi. Kredit isə faktiki olaraq vətəndaşı kredit təşkilatından asılı duruma salır.

Ölkədəki bankların, qeyri-bank kredit təşkilatlarının Azərbaycan məmurlarına aid olduğu çoxdan bilinən gerçəkdir. Bu o deməkdir ki, kredit alan şəxs faktiki olaraq qazancını, gəlirinin bir hissəsini yenidən sistem sahiblərinə qaytarır. Söhbət heç də kiçik faizlərdən getmir - Azərbaycanda bank faizləri hər zaman çox yüksək olub. Bu gün ölkədə yüz minlərlə insan var ki, onların götürdüyü kreditlərin faiz dərəcəsi 36-41 arasındadır. Yəni vətəndaş kredit götürdüyü hər 100 manat üçün kredit təşkilatına 136-141 manat qaytarmağa məhkumdur. Bank xərclərini, iri məbləğlər üçün tələb olunan "şapkanı" bura əlavə edəndə isə itkilər daha da böyüyür. Qeyd edək ki, Avropa banklarının faiz dərəcələri ortalama 2-4-dir. MDB məkanında isə ortalama 18-22. Azərbaycanın bu sahə üzrə də analoqu yoxdur.



Hökumətin "pul satmaq" siyasəti sözsüz ki, illər öncə paytaxt Bakıdan başlayıb. Bir-birinin ardınca yaranan banklar əhaliyə təxminən eyni şərtlərlə xidmət edib. Ardınca beynəlxalq maliyyə institutlarından bank-maliyyə sisteminin genişləndirilməsi üçün alınan kreditlər plastik kartların həyatımıza daxil olmasına səbəb oldu. Onu da deyək ki, vətəndaşın bəzi məqamlarda "əlindən tutan" kredit kartlarına nəzarət imkanları o qədər də sadə deyil. Portnyor satış mərkəzləri ilə, müxtəlif kampaniyalarla "bəzədilən" kredit kartlarından nə gedib-nə qaldığını bilən yalnız banklardır. İnternet üzərindən təqdim edilən kalkulyator xidmətində belə kart sahibi çıxarlarını və borclarının aydın mənzərəsini görə bilmir, xırda məbləğlərdə olsa belə fərqlər yaranır və bu, hər zaman müştərinin ziyanına olur. Yüz minlərlə kart sahibinin hər birindən hər ay alınan "qəpik-quruşlar" kredit təşkilatları üçün ciddi gəlirlərə çevrilir.

Kredit alan vətəndaşların boğazına ortaq olan ən geniş şəbəkə isə qeyri-bank kredit təşkilatlarıdır. Onları cəlbedici edən sənədləşmə işinin daha sadə olmasıdır. Banklar iş yerindən arayışı, maaşın plastik kartla verilməsini, paytaxt və iri şəhərlərə qeydiyyatı, zamini şərt kimi irəli sürdükləri halda qeyri-bank kredit qurumları bu işi şəxsiyyət vəsiqəsi, qızıl, daşınar-daşınmaz əmlak girovluğu ilə həll edirlər. Üstəlik, kreditə ehtiyacı olanlara daha yüksək məbləğlər təklif olunur. Ölkənin rəsmi iş yeri olmayan borclularının çoxu məhz qeyri-bank kredit təşkilatlarının girovudur.

Bir neçə ildir kredit təşkilatları bölgələrə də şaxələnib. Kənd-kənd gəzən səyyar banklar təsərrüfatı, mal-qarası olan şəxslərə kredit təklif edir. Əsasən 500-2000 manat arasında təklif olunan məbləğ konkret gəlir yeri olanlara o qədər də "qorxulu" rəqəm kimi görünməyə bilər. Ancaq evinə maaş gəlməyən insanlar üçün bu kreditlər sonucda kabusa çevrilir. Süd-qatıq, mer-meyvədən gələn qəpik-quruş aylıq ödənişə yetmir, hər aydan o biri aya qalıq faizlər keçir, rəqəm getdikcə böyüyür, bəziləri çıxış yolunu nisbətən yüngülləşdirilmiş şərtlərlə təklif olunan yeni kreditlər almaqda görür, sonra yenidən eyni çətinliklər yeni bankın qapısına aparır, beləcə zəncirvari proses insanların boynuna dolanır.

Bir sıra ekspertlər manatın devalvasiyasının qəfil qərar olduğunu bildirsələr də bank sistemində aylar öncədən yaşananlar bu işə hazırlıqlar getdiyini təsdiq edir. Məsələn, ötən yaydan bəzi banklar manatla kredit verilişini minimuma endirmişdi. Müraciət edən müştərilərə kredit dollarla təklif olunurdu. Maraqlıdır ki, kreditlər sənədləşmədə dollarla göstərilsə də müştəriyə manatla təqdim olunur və manatla qaytarılması istənirdi. Yeni durum yaranandan vətəndaşla bank arasında yaranan mübahisələrin heç bir ciddi nəticəsi yoxdur. Sadəcə, bir neçə bank qalan məbləğə 3 faiz endirim və müddətin uzadılmasını təklif etməklə yetərlənib. Beləliklə, vətəndaşların ödəməli olduğu məbləğ orta hesabla 30 faiz çoxalıb. Çox ciddi rəqəmdir.

Əldə etdiyimiz xəbərlərə görə, manatın devalvasiyasından sonra ölkədə intihar cəhdləri ilə yanaşı ürək-damar xəstəliklərindən əziyyət çəkənlərin sayında da ciddi artım olub. Bakıdakı xəstəxanalara infarkt, insult diaqnozu ilə hər gün cavan insanlar gətirilir. Günün birində yuxudan oyanıb borc quyusunun daha 33 faiz dərinləşdiyini görənlərin yüklənməyə ürəklərindən başqa heç nələri qalmayıb.

❑ **Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 53 (6081) 10 mart 2015

**Savaşı uşaq yaşlarında görmək bəlkə insan üçün ən böyük psixoloji travmadır. Gənc, ahıl insan savaşaqədərki həyatından hansısa işıqlı xatirələr tapıb onların istisinə qızına bilər. Ağlı kəsəndən, gözü açılandan savaş içinə düşən körpələrin isə belə şansı yoxdur. Onlar üçün oyuncaq uçqunlarda əllərinə keçənlər, teatr-tamaşa evlərindəki, məhəllələrindəki dəfn mərasimləri, musiqi silah səsləridir. Bəziləri hətta bu "musiqi"ni eşitmək "zövqündən" də məhrumdur. Suriya səfərində tanış olduğum gənc xanımın oğlu Muhəmməd kimi.**

# İŞİD-in qadın düşmənliyi

## Suriyada ən qatı Bəşər Əsəd əleyhdarı da bu gün onu müdafiə edir; çünkü iki seçim var - ya BƏƏS, ya İŞİD...
















*(Suriyadan dördüncü reportaj)*

4 yaşına keçən Muhəmməd Hələbdəndir. 3 aylıq ikən gecə həyətlərinə düşən raket onun eşitmə qabiliyyətini tamam sıradan çıxarıb. Danışmaq eşitməyə bağlı olduğu üçün dili də açılmayacaq. Bir şey istəyəndə hey anasını dürtmələyib "ıh ıh ıh ıh" deyib əl-qolla başa salır. Atası cəbhədədir, evləri dağılıb. Gənc ana onu da götürüb Dəməşqə qadınlar sığınacağına gəlib. Şəklini çəkirəm. Tez anasının telefonunu alıb mənə işarə edir ki, əlimi yanağıma qoyum - o da mənim şəklimi çəkmək istəyir. Çəkir, gülümsəyib mənə göstərir. Balaca əlləri yenə anasının üzündədi, vurur, vurur, nəsə başa salmaq istəyir... Çətin olacaq...

Dəməşqdəki uşaq sığınacağında onun kimi nə qədər uşaq gördük. Hətta Mühəmmədə həsədlə baxanlar, da var - onun anası yanındadır, döyüşdə olan atası da hərdən zəng vurur. Şəhər məktəblərindən birinin binasına yerləşdirilən sığınacaqda savaş bölgələrinin uşaqları yaşayır. Çoxu hər iki valideynini itirib. Eləsi var, yollarda, köçdə ailəsindən ayrı düşüb, kimi ölüb, kimi qalıb bilinmir. Burada onlara könüllülər baxır. Yemək-içməklərini, geyimlərini hökumət təmin edir. Ancaq yenə də əhalinin dəstəyi olmadan çətindir deyirlər. Kimin imkanı, gücü nəyə çatır yardıma gəlir. Biz binada olanda bir maşın örtü, geyim gətirmişdilər - köhnə olsa da işə yarayacağı üçün sevinirdilər.

Baxıcılar əsasən tələbələrdir. Dərsdən çıxıb sığınacaqdakı uşaqlara oxumaq-yazmaq öyrətmək üçün bura gəlirlər. Bu binadan çıxmaları təhlükəlidir, şəhərdə terrorun qurbanı ola bilərlər. Onları bir arada tutmaq üçün məşğuliyyət tapmaq lazımdır. Biz onlara dəstək vermək, təsəlli etmək üçün gəlmişdik, ancaq elə acı hekayələr dinlədik, elə acınacaqlı mənzərələr gördük ki, sözlər qəhər olub boğazımızda düyünləndi... Sanki yaşadıqları dəhşətin görüntüləri gözlərinə həkk olunub...

Savaş qoxusu və həyəcanı yağan Dəməşq küçələrindən keçib hotelə dönürük. Az sonra "Suriya çətiri" Qadınlar Cəmiyyətinin üzvləri ilə görüşəcəyik. Öyrənirik ki, cəmiyyəti övladları, yaxınları savaşda şəhid olan qadınlar təsis edib. Məqsəd ölkədə yardıma ehtiyacı olan qadınlara və uşaqlara dəstək verməkdir. Quruma Hələbdən olan Fatimə Zehman rəhbərlik edir. İŞİD-lə döyüşdə 21 və 19 yaşlı 2 oğlu şəhid olub. Uzun illər Hələb Universitetində dərs deyib. Savaş milyonlarla insan kimi onun da həyatını alt-üst edib: **"Məni bir insan, bir şəhid anası, bir suriyalı kimi ən çox məyus edən Türkiyənin ölkəmə münasibətidir. Mən Türkiyə iqtidarından soruşmaq istəyirəm - oğullarımızın ölməsinə niyə alət olduz, niyə silahlandırdınız bizə qarşı olan qüvvələri? Mən savadlı qadınam. Faktla şayiəni bir-birindən seçə bilirəm. Sadəcə, BAAS-ı hakimiyyətdən salmaq, Bəşər Əsədi devirmək üçün bizim həyatımızı niyə cəhənnəmə çevirdilər?"**

Türkiyə nümayəndə heyəti, xüsusən millət vəkili Birgül Ayman Gülərlə söhbətdə qadınlar Türkiyə iqtidarının İŞİD-ə dəstək verməsi ilə bağlı eşitdiklərini, bildiklərini sadalayırlar. Sözlərdən qəzəb, nifrət yağır.

**İŞİD-in Hələbdə törətdikləri vəhşiliklər isə sözlə ifadə edilesi deyil:** "Bilirsinizmi, İŞİD Hələb Universitetində çalışan nə qədər professor, alim, müəllim qadına zəncir vurub qul bazarında satdı... Yazıqlar olmazın zülm gördülər. Bizim yaşadığımız məhəlləyə hücum edən İŞİD bir gecədə 67 qadını evindən, ailəsinin yanından sürüyə-sürüyə apardı. O qadınlar hardadır, kimin əlindədir, bilinmir. Bu vəhşilərin qadınlara elədiyi zülmün nə adı var, nə ünvanı. Arvadının başını bağladan kişi adını dövlət rəhbəri qoyub necə başqa bir kişinin arvadının oğurlanmasına, bazarda əşya kimi satılmasına şərait yarada bilər? Onlar özlərinə İŞİD deyir, İslam dövləti quracağını bildirir - bizim dinimizdə, kitabımızda qadına, hələ o başqasının halalıdırsa, belə davranış varmı? Çatdıqları, ayaq qoyduqları yerdə ilk hədəfləri qadınlardır. Hansı kəndi tutdular, ilk fətvaları qadınlarla bağlı olur. Səhralar, dağlar səfil-sərgərdan, İŞİD zülmündən qaçan insanlarla doludur, kişilər cəbhədədir, çoxu qadınlardır - onlar nə zillət görür, Allah bilir. Bu gündən sabaha nədir, heç 10 dəqiqə sonraya ümid yoxdur".

**21 və 19 yaşlarında iki oğlu şəhid olmuş Hələbdən olan Fatimə Zehman: "Məni ən çox məyus edən Türkiyənin ölkəmə münasibətidir. Mən Türkiyə iqtidarından soruşmaq istəyirəm - oğullarımızın ölməsinə niyə alət oldunuz, niyə silahlandırdınız bizə qarşı olan qüvvələri? Mən savadlı qadınam. Faktla şayiəni bir-birindən seçə bilirəm. Sadəcə, BAAS-ı hakimiyyətdən salmaq, Bəşər Əsədi devirmək üçün bizim həyatımızı niyə cəhənnəmə çevirdilər?"**

**Qadınlar deyir ki, paytaxtda belə insanlar evlərindən çıxanda vidalaşaraq çıxırlar:** "Heç kim övladını rahat-rahat çörək almağa belə göndərə bilmir. Hər gün şəhərdə partlayış, dağıntı, ölüm var. Hökumət nəzarət etməyə çalışır, hamımız direniş göstəririk. Bu gün Suriyada vətəndaş olmayan insan yoxdur. Hər kəs səfini bəlli edib - ya hökumət düşərgəsindəsən, ya İŞİD-in tərəfində. Üçüncü seçim yoxdur. İndiki iqtidara ən kəskin münasibətdə olanlar belə bu gün Bəşər Əsədi, BAAS partiyasını dəstəkləyir. Çünki alternativ İŞİD-dir - ölüm, qan, vəhşət saçan şeytan sürüsü İŞİD".

**Kişilərin çoxu ön cəbhədə olduğu üçün dinc şəhərlərin müdafiəsində qadınların üzərinə ağır yük düşür:** "İşləyən, savadlı qadınlar təhlükəsizlik qruplarına rəhbərlik edir. İş saatı bitəndən sonra insanlar dincəlmədən təhlükəsizlik məsələləri ilə məşğul olmağa başlayırlar. Məhəllələrdə barrikadalar möhkəmləndirilir, xüsusi avadanlıqlarla şəhərlərin giriş-çıxışında maşınlar yoxlanılır. Sürücülüyü bacaran qadınlara da ehtiyac çoxdur".

**Türk heyətinin bir hissəsi də digər bir masada Suriya parlamentinin türkmən millət vəkilləri ilə müzakirələr aparır. Söhbətin qızğın yerində deputat Hassan Göklüoğlu onun telefonuna zəng gəlir:** "Xanım, heç narahat olma. Sakit bir yerdəyəm. Türkiyədən rəsmilər gəlib, danışıqdayam. Deyərəm, göz üstə. Uşaqlar qayıtdımı? Heç kim eşiyə çıxmasın".

**Bizim ləhcədə danışır. Hər qadın dışarıda olan ərindən nigaran qalır... Deputat telefonu söndürüb üzrxahlıq edir:** "Şəhər təhlükəlidir. İŞİD-in əsas hədəfi rəsmilərdir. Hamımız gündə dəfələrlə yaxınlarımızla əlaqə saxlamağa məcburuq. İndi Suriyada telefonuna zəng gələn insan açmırsa, demək, başında bir iş var".

**Hassan Göklüoğlu türkmənlərin durumundan danışır:** "Həddən artıq qəliz vəziyyət yaranıb. İŞİD türkmənlər yaşayan bölgələri tutandan sonra əhalinin bir hissəsi məcburiyyətdən onların hakimiyyətini qəbul edib. Yenə deyirəm, məcburiyyətdən. Çünki başqa çarə yoxdur. İnsanlar güclə hesablaşmağa məhkumdurlar. Əsas hissə isə təbii Bəşər Əsədin tərəfində İŞİD-ə qarşı vuruşur. Hökumət də bilir ki, türkmənlər Suriyanın parçalanmasını istəmir. Ancaq durum o qədər qarışıq, o qədər izahedilməzdir ki, insanlar ancaq yaşamaq, sağ qalmaq uğrunda mübarizə aparırlar".

**Millət vəkili ölkədəki son prezident seçkilərindən də danışır:** "Bu seçkilərin yalnız Dəməşqdə keçirildiyini deyirlər. Ancaq bu belə deyil. Suriyanın hökumət qüvvələri nəzarət edən bölgələrində seçki oldu. Mən gözümlə şahidəm ki, indiyə qədər seçkiyə getməyən insanlar, xüsusən yaşlı nəsil Bəşər Əsədə səs verməyə gəldilər".

**Parlament üzvü hökumətin bir gün də olsa maaşları, müavinətləri gecikdirmədiyindən danışır:** "Ordunun, əsgərin təminatına xüsusi fikir verilir. Hər döyüşdən sonra seçilənlər mükafatlandırılır. Hələ savaş başlayanda maaşlarda, ödənişlərdə heç bir problem yaşanmayıb, çox şükür".

**Hasan Gökoğlunun dedikləri, təbii, BAAS üzvünün, hökumətə yaxın bir şəxsin mövqeyidir. Türkiyəli heyət üzvləri onu dinlədikcə ara-sıra suallar yaranır. Əsasən də dövlətin hansı para ilə yaşaması ilə bağlı. Türkiyənin maliyyə naziri olan Abdullatif Şener hökumət maliyyəsinin qaynağı ilə maraqlanır:** "4 il savaşmaq asan məsələ deyil. Bu nəhəng xərclər deməkdir. Suriyanın neft-qaz ölkəsi olduğu bəllidir. Ciddi ehtiyatlarınız olub. Bu gün İrandan, Rusiyadan dəstək aldığınızı özünüz də gizlətmirsiniz. Rəsmilərlə görüşlərdə bu mövzulara toxunulur. Ancaq hökumətin çarxı "qonşu payı" ilə fırlana bilməz. Suriyada bu qədər ehtiyat haradandır?"

**Deputat Suriyanın daxili imkanlar, müxtəlif fondlar hesabına xərclərin öhdəsindən gəldiyindən danışır. Nə qədər tanış leksikondur... Hasan Gökoğlu onu da deyir ki, hökumətin yükünün bir hissəsini bir zamanlar ölkədə çox zəngin olan insan da çəkir:** "Suriyada zəngin insanlar Avropaya, Rusiyaya, Türkiyəyə köçüb. Hökumət özü buna şərait yaratdı. Çünki həmin insanların pulu Suriyada dəyərdən düşəcəkdi. Onlar öz imkanları ilə kənarda iş qurdular və bu gün ölkəyə ciddi yardım edirlər".

Millət vəkilinin varlı dediyi insanların böyük bir hissəsi Əsəd ailəsinin yaxınlarıdır. 1970-ci ildən Suriyaya hakimlik edən bu ailənin ökənin bütün sərvətləri üzərində sərhədsiz nəzarəti olub. Monopoliya başda olmaqla, avtoritarizmə xas bütün meyllərə bu ailənin üzvləri, yaxınları rəhbərlik edib. Məsələn, Bəşər Əsədin bibisi oğlu uzun illər Suriyanın gömrük sisteminə rəhbərlik edib. Nəhəng pullara sahib bu insana vətəndaşların nifrəti heç İŞİD-dən az olmaz. Ölkənin qapılarının kilidi yalnız onun icazəsi ilə açıla bilirmiş. İndi o və onun kimi oliqarxlar-məmurlar bütün topladıqlarını ölkəyə qaytarmağa məcburdurlar. Çünki alternativ, seçim yoxdur. Ya Suriyanın, vətəndaşın pulunu ölkənin ərazi bütövlüyünün bərpasına xərcləməli, ya da bütün devrilmiş hökumətlərin üzvləri kimi hərəsi dünyanın bir hotel otağında həyata vida etməlidir.

**Suriya həm də görkdür. Bütün oxşar rejimlər üçün.**

❑ **Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 53 (6081) 10 mart 2015

# Ölkədə yerli kərə yağlarına inam niyə azdır?

## Eyyub Hüseynov: "Alıcı bilməlidir ki, yerli məhsullar ekoloji cəhətdən daha təmizdir"
## Vahid Məhərrəmov: "Azərbaycanda heyvandarlıq və südçülükdə məhsuldarlıq kəskin dərəcədə aşağıdır"



**Azərbaycan bazarında hazırda bahalaşan ərzaq məhsullarından biri də kərə yağlarıdır. Xaricdən gətirildiyi üçün onların qiymətində 20-30 faiz qalxma var. Ümumiyyətlə, Azərbaycanda kərə yağı almaq istəyənlər "Fransa", "Yeni Zenlandiya" və Rusiya istehsalı olan kərə yağları arasında seçim etməli olurlar.**

Hətta bir sıra alıcılar Azərbaycanda kərə yağı istehsal edildiyindən xəbərsizdir. Bunu alıcılarla söhbətimiz zamanı müşahidə etdik. Satıcılar "Səba", "Möcüzə", "Kərəm yağı" kimi yerli kərə yağlarının satışda olduğunu desələr də, alıcıların olmadığını bildirdilər. Alıcıların daha çox yerli duru yağları aldığını deyən satıcılar yerli kərə yağlarının satılmadığını, məhz bu səbəbdən az sayda qəbul etdiklərini bildirdilər.

Qeyd edək ki, Azərbaycanda kifayət qədər xırda və iri buynuzlu heyvanlar və kifayət qədər keyfiyyətli kərə yağı istehsal edilməsi üçün münbit şərait var. Ancaq buna baxmayaraq, yerli yağlar az istehsal edilir. Bəs səbəb?

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov yerli kərə yağlarına bəzən nazik sellofanların əridilib qatıldığını bildirdi: "Azərbaycanda yerli kərə yağı istehsal olunur. Bu sənaye üsulu, yəni kütləvi istehsalla da olunur, kəndçilər özləri də istehsal edir. Lakin kəndçilərin istehsal etdiyi və Bakıya hər səhər vaqonlarla göndərilən camış yağlarının böyük hissəsi marqarin və piylərdən ibarətdir. Bəzən də nazik sellofanı əridib ona qarışdırırlar. Normal şəkildə sənaye üsulu ilə də kərə yağları istehsal olunur. Ancaq çox təəssüf ki, yerli kərə yağlarının alıcıları azdır. Alıcılar daha çox xarici məhsullara qaçır. Onlar bilməlidirlər ki, yerli məhsullar ekoloji cəhətdən daha təmizdir. Çünki onların tərkibinə kimyəvi maddələr qarışdırılmır. Təəssüflər olsun ki, yerli istehlakçılar elə bilirlər ki, yerli yağ belə xaricdən gətirilir. Məsələn, "Səba" kərə yağı yerli istehsal məhsuludur". Qurum sədri yerli yağlarla bağlı onlara hələ ki bir şikayət daxil olmadığını qeyd etdi.

**Kənd təsərrüfatı mütəxəssisi Vahid Məhərrəmov ölkədə kərə yağı istehsalının az olmasının səbəbini südçülüyün kəskin dərəcədə aşağı düşməsi ilə əlaqələndirdi:** "Azərbaycanda heyvandarlıq və südçülükdə məhsuldarlıq kəskin dərəcədə aşağıdır. Təsəvvür edin, ölkədə il ərzində bir inəkdən 1 ton 300 litr süd sağılır. Bunu gündəlik 305 günlük laktasiya müddətinə böləndə günə təxminən 4 litrdən bir az artıq süd düşür. Halbuki, bir kiloqram yağ almaq üçün 22 litr süddən istifadə olunur. Bu gün Azərbaycanda satılan südün bir kiloqramının dəyəri ən azı 50-60 qəpiydir. 22 litr süddən istifadə edib bir kiloqram kərə yağı alarıqsa, bunun yalnız süddə olan maya dəyəri 10-11 manat edir. Burada onun emalı, daşınması, ticarət mərkəzlərində satışı kimi digər xərcləri də var. Bu xərcləri də üstünə gələndə bizim istehsal edə biləcəyimiz südün dəyəri çox yüksək olur. Belə olan halda isə o öz alıcısını tapa bilməz. Daha çox süd və kərə yağı istehsal edən Avropa və digər ölkələrdə hər inəkdən il ərzində 6-12 ton süd alırlar. Bizdən fərqli olaraq bu ölkələrdə ən azı, 5 və 9-10 dəfə çox süd əldə edirlər. Məhsuldarlıq çox olduğu üçün onların əldə etdikləri südün maya dəyəri aşağı qiymətə olur. O ölkələrdə ki, həqiqətən keyfiyyətli kərə yağı istehsal edirlər, orada dövlət bir kiloqram kərə yağı üçün onun maya dəyərinin 50 faizini sahibkara subsidiya formasında ödəyir. Dövlət imkan yaradır ki, o, istehsal etdiyi kərə yağını ixrac edə bilsin. Burada bir sıra tədbirlər var ki, onları biz hazırkı şəraitdə apara bilmərik. Mağazalarda diqqət etsəniz görərsiniz ki, Azərbaycan istehsalı olan "Kərəm yağı" var. Bu yağı kərə yağı kimi satırlar. Alıcı da elə bilir ki, bu kərə yağıdır. Onun tərkibini isə diqqətlə oxusanız görərsiniz ki, orada inək südündən istifadə edilmədiyi qeyd edilib. Bu yağın tərkibi qatqılar, bitki yağları və kərə yağının ətrini almaq üçün aromatlaşdırıcı maddələrdən ibarətdir. Bunu da üstünə açıq şəkildə yazıblar. Mən inanmıram ki, Azərbaycanda süddən hazırlanan əsl kərə yağından kimsə istifadə etsin".

❑ **Günel MANAFLI**


## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




## Xalq artistinin keçmiş ərinin evində qətl


Yelena Maxrova

**Martın 8-də Sabunçu rayonunun Bakıxanov qəsəbəsində baş verən qətlin təfərrüatları məlum olub. "Report"un hüquq-mühafizə orqanlarından əldə etdiyi məlumata görə, qətl Azərbaycanın xalq artisti Nuriyyə Əhmədovanın keçmiş həyat yoldaşı Xanlar İbadovun evində baş verib.**

Belə ki, qətlə yetirilən Sabir Qurbanov və onunla qeyri-rəsmi nikah münasibətlərində olan Yelena Maxrova X. İbadovun evində yaşayıb. Y.Maxrova mübahisə zəminində S.Qurbanovu qətlə yetirib.

Qeyd edək ki, Sabunçu Rayon Polis İdarəsinin (RPİ) 13-cü polis bölməsi (PB) əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Y.Maxrova tutulub.

Faktla bağlı araşdırmalar davam etdirilir.

## "KamAz"la "Nissan" toqquşdu: ölən var

**Martın 8-də saat 16 radələrində Kürdəmir rayonunun Karrar kəndində avtomobil qəzası olub. Musavat.com-un Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, Göyçay şəhər sakini Çingiz Babayevin idarə etdiyi "Nissan" və Bakı şəhər sakini Röyal Məmişovun idarə etdiyi "KamAZ-5511" markalı avtomobillər toqquşub. Qəza nəticəsində Ç.Babayevin sərnişini Suraxanım Məmmədova hadisə yerində ölüb. Onun digər sərnişini isə xəstəxanaya yerləşdirilib.**

## Maştağa sakininin evindən avtomat tapıldı

**Maştağa sakininin evindən odlu silah və ona aid vasitələr aşkar edilib. Daxili İşlər Nazirliyindən verilən məlumata görə, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Ramiz Süleymanovun Maştağa qəsəbəsindəki evindən "AK-74" markalı silah, 2 patron darağı və 53 ədəd patron aşkar edilərək götürülüb. Faktla bağlı araşdırma aparılıb.**

## Bakıda "Milli Ön" terminalından 1430 manat oğurlandı

**Bakıda ödəmə terminalından pul oğurlamış Abşeron rayon sakini tutulub. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən «Trend»ə verilən məlumata görə, martın 6-da N.Nərimanov prospektində yerləşən "Komtec LTD" MMC-nin qarşısında quraşdırılmış "Milli Ön" terminalından 1430 manat oğurlanıb. Yasamal Rayon Polis İdarəsi 27-ci polis bölməsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluğu törətmiş Abşeron rayon sakini Rəşad Süleymanov tutulub.**

### Başsağlığı

**Müsavat Partiyası Binəqədi rayon təşkilatı təşkilatın sədri Rauf Ağaya əzizi İsi kişinin vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**


## Təcili satılır

**Lökbatan qəsəbəsinin mərkəzində, H.Əliyev parkının yanında 220.kv.m evrotəmirli, 2 mərtəbəli, 7 otaqlı döşəməsi parket, qapıları və pilləkənləri palıd ağacından, telefonu, qarajı, hamamı, mətbəxi, həyətində meyvə ağacları olan 3 sot torpağın üzərində tikilmiş villa**

TƏCİLİ SATILIR.

**3-cü mərtəbəni də tikmək olar (mansard).**
**Qiyməti razılaşma yolu ilə (Real qiymətdən ucuz)**
**Əlaqə telefonları:** 077 - 769 - 59 - 10; **070** - 365 - 98 - 40; 012 - 497 - 43 - 04

### Elan

**Jeleznovodsk şəhəri, stansiya Beştau, Qlinki-15 ünvanında ikimərtəbəli binanın 1-ci mərtəbəsində tam təmirli 2 otaqlı mənzil, kombi sistemi ilə təchiz olunub, avadanlıqları ilə birlikdə Bakı şəhərinin istənilən yerində mənzillə dəyişdirilir. Əlaqə nömrəsi: +79283706928**

YENİ MÜSAVAT
N 53 (6081) 10 mart 2015

# Öldürür, izi qalmır...

## Dünya tarixində məşhur zəhərlənmə hekayələri; Stalindən Putinə... kim düşmənini necə zəhərləyib?

**Son günlərin dünya miqyaslı ən səs-küylü hadisələrindən biri də Türkiyənin İstanbul şəhərində Tacikistan müxalifətinin lideri Umarali Kuvvatovun öldürülməsidir. Umarali öz evində deyil, qonaq getdiyi evdə məhv edilib. Onun həyat yoldaşı və 2 azyaşlı uşağından ibarət olan ailəsi yemək vaxtı zəhərləniblər. Ailə başçısı özünü pis hiss etdiyindən küçəyə çıxıb. Bu zaman bir nəfər onun başına sərrast atəşlə güllə vurub. Qətldən sonra onun həyat yoldaşı qohumlarına zəng edib. Bundan sonra qadın və iki uşaq huşunu itirib. Həkimlərin qənaətinə görə, ailənin yeməyinə qonaqlıqda zəhər qatılıb.**

### Stalin qaynını tənbəki ilə zəhərləyib

Bu hadisə bizi dünya miqyasında zəhərlənən siyasi liderlər, tanınmış simalar, onların hekayələrini yada salmağa sövq etdi. Heç kimə sirr deyil ki, dünyada gizli zəhərlənmə yolu ilə sui-qəsd halları daha çox siyasətdə özünü göstərib. "KQB" sistemində isə bu, çox geniş yayılmış üsul olub. Tarixi mənbələrə istinad etsək, məsələn, Stalin Trotskini dəfələrlə zəhərləmək cəhdləri edib. Əvəzində Trotskinin katibi və cangüdəni pnevmoniyaya oxşar qəribə xəstəlikdən qəfil vəfat ediblər. Stalin qurbanlarının əzabını görməyi sevən adam olub. O, zəhəri öz ailəsində də qaynı Pavel Alliluyevə qarşı işlətməkdən çəkinməyib. Onu tənbəki ilə zəhərləmişdilər. Bolşevik dövləti emiqrasiya etmiş düşmənlərə qarşı işləyirdi. Xüsusi xidmət orqanları sosializmdə yaşamaq istəməyən keçmiş vətəndaşları xaricdə də rahat buraxmırdı. Kommunist zəhərinin "əli" qonşu dövlətlərin siyasi partiyalarına da çatırdı. Qorbaçovun bir qədər boşaltdığı buxovlardan sonra - Yeltsinin zamanında da Rusiya əvvəlki üsullarından əl çəkməmişdi. Fəaliyyəti yenidən bərpa edilmiş gizli laboratoriya bu dəfə milli təhlükəsizlik adıyla işini görürdü. 2004-cü ildə Şimali Osetiyada, Beslanda götürülmüş girovlar məsələsini tədqiq edən jurnalist Anna Politovskaya az qala isti içkinin qurbanı olacaqdı. Oliqarx Boris Berezovskinin zəhərlənməsi məsələsini tədqiq edən Aleksandr Litvinenko ölkədən qaçandan sonra kitabında gizli laboratoriyanın işindən danışırdı. O, açıq şəkildə Putini ittiham etdiyindən London hotellərinin birində səhər çay içərkən zəhərləndi. Bunu biləndən açıq-aydın etdilər ki, qalanlara görk olsun.

Anatoli Sobçakın da qəribə ölümündən danışırlar. Onun ölümünü tədqiq etməyib hər şeyi zəif ürəyinin üstünə atdılar. Əslində o, mehmanxana lampasına yaxılmış, qızdıqda zəhərli buxar verən toksindən dünyasını dəyişmişdi. Litvinenkonun işinin ən qızmar vaxtında İrlandiyadan ağır vəziyyətdə qayıdan Yeqor Qaydarın vəziyyətini həkimlər «qeyri-qida zəhərlənməsi» kimi şərh etdilər.

### Bu cür məsələlər "səssiz" həll edilib

Düşünülənin əksinə olaraq, tarixdəki bir çox sui-qəsdlər səs-küylü olmayıb. Əsasən "səssizcə" həll edilib. Bu mənada sui-qəsd təkcə silahın köməyi ilə baş vermir. Hədəflərindəki insanları məhv etmək üçün min bir yolu inkişaf etdirən sui-qəsdçilər "gizli sui-qəsd" üsulu ilə bir çox siyasətçi, əsgər, alimin həyatına son veriblər.

Ancaq bu ölümlərin isbatı o qədər də asan olmadığı və çox vaxt üstü örtüldüyü üçün onun üzə çıxarılması qeyri-mümkünə çevrilir. Çünki normal görünən bir çox ölümün - Turgut Özal, Adnan Kahveci, Recep Yazıcıoğlu, Alparslan Türkeş - arxasında bəzi gizli qüvvələrin olması şübhəsi vardı.

Türkiyədə bu mövzu ilə bağlı ən maraqlı araşdırmanın müəllifi yazar Atilla Akardır. Onun "Gizli sui-qəsdlər - şübhəli ölümlər" adlı kitabında ört-basdır edilmiş qəza, intihar, xəstəlik, infarkt halları araşdırılıb. A.Akar bildirib ki, gizli sui-qəsdlə açıq sui-qəsdin


Aleksandr Litvinenko

bir-birindən xeyli fərqi var. Belə ki, birincisi məqsəd və vasitə baxımından bu sui-qəsdlər fərqlənir. Açıq sui-qəsdlər hər kəsin bilməsi üçün və hamının gözü qarşısında həyata keçirilir. Adətən toplumda qarşıdurma, sensasiya, dəhşət və ya xaos yaratmaq üçün həyata keçirilir. Halbuki gizli sui-qəsdlər belə deyil: burada məqsəd hədəfdəki insanı yox etməkdən ibarətdir.

Açıq sui-qəsd zamanı tapança, tüfəng, bomba kimi hücumlardan istifadə olunduğu halda, gizli sui-qəsdlər zamanı zəhər, xəstəlik yaradan müxtəlif mikrob yükləmələri, intihar görüntüsü yaratmaq kimi metodlardan istifadə olunur. Əlbəttə, bunların özlərinə görə iz və dəlilləri olsa da, digərləri qədər bariz deyil və bu səbəbdən də asanlıqla ört-basdır edilir.

### Zəhərli diş çöpü, yoxsa zəhərli kitab?

Müəllif öz kitabında gizli sui-qəsdin üsullarından da bəhs edib. Məlum olub ki, ildən-ilə bu metodlar daha da mükəmməlləşib və indi bu, az qala elm kimi formalaşıb. Hazırda bu mövzunu dərinliyinə qədər bilən toksikoloqlar, kimyagərlər, həkimlər, mühəndislər ixtisaslaşdırılıb. Nəticədə isə ağlınıza gələ biləcək hər şey gizli sui-qəsd vasitəsi ola bilər. Xüsusən də zəhərlər bu işdə əsas rolu oynayır. Qida və içkilərə zəhər qatmaq, zəhərli spreylər, zəhərli diş pastası, zəhərli diş çöpü, zəhərli kitab... bu kateqroiyaya aiddir.

İnfarkt yaradan dərmanlar, insan sağlamlığına zərbə vuran mikrob kokteylləri, mikrodalğa və ya radioaktiv şualarla insanın fiziki varlığı hədəfə alınır. Eləcə də intihar, maşın, motosiklet, təyyarə qəzası görüntüsü vermə üsulu da tətbiq oluna bilir. Burada Şahzadə Diananın avtomobil qəzasını da nümunə kimi yada salmaq olar.

Müəllif onu da yazıb ki, statistikaya görə, açıq sui-qəsdlər daha çoxdur. Xüsusən keçmiş dövrlərdə, saraydaxili intriqalarda gizli sui-qəsdlər çox geniş yayılmışdı. Hər padşah və ya kral zəhərlənmə riski altında olub. O səbəbdən də yanlarında hər zaman yeməklərini öncədən dadan insanlar saxlayıblar. Hazırda da bir çox prezidentlərin şəxsi heyətlərində belə şəxslər var. Onlar prezidentlərə yemək təqdim etməzdən əvvəl onun dadına baxırlar.

Müəllifin kitabında antisovet yazıçısı Lev Rebetin 1957-ci ildə infarktdan ölməsi faktı da öz əksini tapıb. Müəllif yazıb ki, bu hadisədən bir neçə il sonra DTK-da onun ölümünü təşkil edən şəxs xaricə qaçıb və Rebetin üzünə zəhərli qaz fısqırtdığını, bunun isə infarkta səbəb olduğunu etiraf edib.

### Qızdırmalı və ya yuxuda gələn zəhərlənmələr də var

Daha bir qorxulu zəhərlənmə növü isə rutsin adlı zəhər vasitəsilə mümkün olur. Rutsinlə zəhərlənən şəxs qrip və qızdırmadan əziyyət çəkir, bir neçə gündən sonra isə dünyasını dəyişir. Son dövrlərə qədər bu zəhərə çarə tapılmayıb. 1978-ci ildə Londonda dünyasını dəyişən dissident Georgi Markovun bu vasitə ilə aradan götürüldüyü deyilir. Onun bədəninə dayanacaqda avtobus gözlədiyi zaman "təsadüfən" ucunda zəhərli iynə olan çətir dəyir. Bir neçə saat sonra isə o, qızdırmadan dünyasını dəyişir.

Zəhər mərkəzi əsəb sistemini sıradan çıxarır. Beyinə güclü təsir edən bu xoşətirli qazın cüzi miqdarı beynin funksiyasının pozulmasına səbəb olur. Bir müddət davam edən xəstəlik ölümlə nəticələnir.

Digər təhlükəli zəhər Poloniyum-210-du. Adətən nüvə araşdırmalarında istifadə edilən bu maddənin 7 pikoqramı (1 pikoqram - qramın trilyonda bir hissəsidir) insan üçün ölümcül doza sayılır. Zəhər 138 günə insanın bütün orqanlarını sıradan çıxarır. Bu zəhərin yaradıcısının qızı isə kapsulun sındığı laboratoriyada bir neçə saat işləyəndən sonra xərçəng xəstəliyinə tutulub.

Yuxuda ölüm gətirən zəhərlər də az deyil. Belə zəhərlər hələ orta əsrlərdən məlumdur. Zəhərlənən insan heç bir ağrı və narahatçılıq hiss etmir. Lakin yuxuya gedəndən bir müddət sonra ürəyi dayanır. Bu zəhərlərin əksəriyyətini sonradan orqanizmdə aşkar etmək mümkün olmur.

❑ **Sevinc TELMANQIZI**

# Bu gün Yel çərşənbəsidir

## Məhz bu çərşənbə günü bütün evlərdə təmizlik işlərinə başlanılır...

**Bu gün ilaxır çərşənbələrin üçüncüsü - Yel çərşənbəsidir. Xalq arasında bu çərşənbəyə "Külək oyadan çərşənbə", "Küləkli çərşənbə" də deyilir. İnanclara görə, bu çərşənbədə oyanan yel külək oyanmış suyu, odu hərəkətə gətirir.**

Yel çərşənbəsi yelin təzəcə çıxmış otları oyadaraq, Novruzun gəlişi barədə xəbərdar etməsi ilə bağlıdır. Şifahi xalq yaradıcılığında Yelin Tanrı olması ilə bağlı müxtəlif nəğmə, əfsanə, rəvayət, mif, inanc, məsəl və sairə var. Novruz şənliklərində icra olunan Yel baba mərasimi öz kökü etibarilə qədim əcdadlarımızın Yel tanrısına etiqadı ilə bağlıdır.

Yel çərşənbəsində əsən isti, soyuq küləklər yazın ilıq nəfəsini, hənirtisini, təravətini gətirir. Gün ərzində bir neçə dəfə dəyişən külək yelin özünün təzələnməsi kimi də qəbul edilir. Külək Yel çərşənbəsində ağacların budaqlarını yelləərək onları qış yuxusundan ayıldır, tumurcuqlarını açır, buludları qovaraq bir-birinə toqquşdurub ilıq yaz yağışlarını yağdırır.

Onu da qeyd edək ki, küləyin libasları ilə xarakteri arasında da oxşarlıq var. Burada rənglərin mifik mənaları xüsusilə önəmlidir. Azərbaycan mifologiyasına görə, Ağ yel - ağ libasda, Qara yel - qara libasda, Xəzri - göy libasda, Gilavar - qırmızı libasda xarakterizə edilir. Yel Azərbaycan mifik təfəkkürünə görə, yol göstərən, bələdçi rolunu yerinə yetirir.

Yel çərşənbəsi digər çərşənbələrdən insanların fəaliyyətlə-



rində və adət - ənənələrində əks olunan fərqliliklərə görə seçilir. Məhz bu çərşənbə günü bütün evlərdə təmizlik işlərinə başlanılır. Xüsusən qadınlarımız, qızlarımız evdə tam mənada təmizliyə riayət etməyə başlayırlar. Hər bir xanım evindəki yorğan-döşəyi havaya atır və onun təzə gələn bahar nəfəsi ilə yenilənməsini, çıxan günəşin təsiri altında daha da təmizlənməsini istəyir.

Həmçinin evlərdə hər tərəf silinib təmizlənir, palazlar, xalçalar çırpılır, şüşələr, pəncərələr silinməyə başlanılır. Yel çərşənbəsinin geniş yayılmış inanclarından biri də bu çərşənbədə niyyət tutulmasıdır. Yel çərşənbəsi gecəsi söyüd ağacının altına gedib niyyət edər və Yel babanı çağırardılar. Əgər Yel baba sənin səsini eşidib əssə və söyüdün budaqlarını torpağa toxundursa, deməli, diləyin yerinə yetəcək.

Qədim adətə görə, bu çərşənbədə qəfəsdə saxlanılan quşları və heyvanları azadlığa buraxmaq lazımdır. Bu çərşənbə ilə də bağlı illərin sınağından çıxaraq bu günümüzə qədər yaşamış və özünü doğrultmuş xalq hikmətləri, atalar sözləri var. Məsələn, "Yel əsib qoz tökülüb", "Yellə gələn sellə gedər", "Yellə dost olan yelləne-yellənə qalar", "Yel bağlayanı el açar" və sairə. Yel çərşənbəsindən etibarən xanımlar artıq bayramın özü üçün tədarüklər etməyə başlayırlar. Onlar bişirəcəkləri şirniyyatlara lazım olan məmulatları indidən hazırlayırlar.

Evlərdə yenə də bütün çərşənbələrdə olduğu kimi qazanlar qaynamalıdır. Hamı evində olmalı və birlikdə süfrə başına yığışmalıdır. Süfrəyə daha çox quru meyvə və dənli bitkilərdən hazırlanmış çərəzlər düzülür. Stolun üzərində şirniyyatların olması bütün ilin şirin keçməsinin əsas göstəricisi hesab olunur. Məhz bu səbəbdən insanlar hər çərşənbə süfrədə şirin məmulatların qoyulması üçün cəhd göstərirlər. Ümumiyyətlə isə, insanlar yelin yəni küləyin insanlara xoş və şirin təəssüratlar gətirəcəyini inanırlar.

Xanımlarımızın digər çərşənbələrdə qoyduğu səməni də artıq böyümüş olur. Səməni yaşıllıq, bolluq, bərəkət, ruzi mənasını özündə birləşdirir. Onun yaşıl rəngdə olması isə baharın, yazın gəlişindən xəbər verir. Həmçinin səməni buğdadan qoyulur və onun böyüməsi üçün həmişə xanımlar su verirlər. Əlbəttə, bayramdan bir müddət əvvəl səməninin qoyulması lazımdır. Artıq Yel çərşənbəsində qismən böyümüş səməninin ortasına qırmızı lent bağlanılır. Qədim zamanlardan qırmızı bizim adət-ənənələrimizdə sevinc, ruh yüksəkliyi və xoşbəxtliyin mənasını ifadə etmişdir. Bu çərşənbədən sonra qız-gəlinlər axır çərşənbə üçün hazırlıqlar görür, qoz-fındığı ləpələyib şirniyyat hazırlığı tədarükü görürlər.

**Yel çərşənbəniz mübarək!**

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
Son səhifə
N 53 (6081) 10 mart 2015

# 71 yaşda səhra marafonu



## Dünyada bir ilk

Günəş enerjisi ilə işləyən təyyarə dünya ətrafında səyahətə başlayıb. Gecə saatlarında belə Günəş batareyaları ilə qidalanan "Solar Impulse-2" adlı təyyarə dünya rekordu qeydə almaq üçün Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidən havaya qalxıb və Oman istiqamətində uçub. Günəş təyyarəsi 5 ay ərzində çoxsaylı dayanacaqlarla əvvəlcədən müəyyən edilmiş marşrut üzrə Yer ətrafında səyahət edəcək. Bir yerlik uçan aparatın pilotu isə növbə ilə sükan arxasına keçəcək iki isveçrəli olacaq. Bunlar ekoloji təmiz texnologiyaların həvəskarı olan Andre Borşberq və Bertran Pikardır. Dayanacaqlar pilotların istirahəti və təyyarənin təmiri üçün tələb olunacaq. Təyyarənin qanadının uzunluğu 72 metrdir ki, bu da Boeing-747 təyyarəsinin qanadının uzunluğundan çoxdur. "Solar Impulse-2"nin ağırlığı isə cəmi 2,3 ton təşkil edir. "Solar Impulse-2" Günəş təyyarəsindən əvvəl istifadəyə verilən "Solar Impulse-1" aparatı 2013-cü ildə Şimali Amerika qitəsi üzərindən uçuş da daxil olmaqla, bir sıra dünya rekordlarına imza atmışdı. Lakin Yer kürəsi ətrafında dünya səyahəti üçün bu təyyarə münasib olmadığından, daha böyük ölçülü "Solar Impulse-2" adlı Günəş təyyarəsi inşa edilmişdi.

"Hər iki qütbə çatan ilk insan" adını daşıyan Ranulf Fienes yeni bir rekord qırmağa hazırlaşır. 71 yaşlı kişi 50 dərəcədən çox istidə səhrada keçiriləcək marafonda iştirak edəcək. Fienes 2 dəfə infarkt, 2 dəfə ürək əməliyyatı, 1 dəfə də xərçəngdən müalicə olunmasına baxmayaraq, bu yarışda iştirak etmək istədiyini deyir. Yaşlı kişi 6 gün ərzində 250 kilometr qaçacaq. Marafona 6 aydır hazırlaşan Fienes hər gün bir marafon məsafəsində qaçır. O, dayanmaq istəmədiyini və bu yarışı bitirməyi bacaran ən yaşlı ingilis ünvanını qazanmaq istədiyini deyib.



# 30 xəstəyə diaqnoz qoydu



Amerikada yaşayan Frankie adlı qoxubilmə hissindən istifadə edərək xəstələrə xərçəng diaqnozu qoya bilir. Arkanzas Universitetində aparılan araşdırmalar zamanı məlum olub ki, it 34 xəstənin analizlərini qoxulayaraq onlardan 30 nəfərinin xərçəng xəstəsi olduğunu müəyyənləşdirə bilib. Mütəxəssislər alman çoban it cinsindən olan köpəyin qoxu hissinin çox güclü olduğunu və bunun kimyəvi dərmanların hazırlanması zamanı onlara kömək edəcəyini deyiblər.

## İldə 36 dəfə ölür



Amerikada yaşayan Sara adlı qadın müntəzəm olaraq ölür. Qız özü bir necə dəqiqədən sonra öləcəyini bilir və sağ qalmağa ümid edərək yaşayır. 21 yaşlı Sara həkimlərin rəsmi olaraq ölü adlandırdıqları vəziyyətlə üz-üzə qalır. O, ildə onlarla klinik ölüm keçirib. İl ərzində bu ölümlərin sayı 36-ya kimi yüksəlir. Taxikardiyanın nadir növündən əziyyət çəkən qızda hər şey tutmalarla başlayır - ürək qəfildən sürətlə döyünür, təzyiq qalxır, nəfəs ritmi pozulur və ürək dayanır. Qız nəfəs almır.

"Bəzən insanlar klinik ölüm zamanı tunel, işıq gördüyünü deyirlər. Lakin mən nəfəs almasam da, ürəyim döyünməsə də ətrafımda danışılanları eşidirəm.

Qız nadir sindromdan əziyyət çəkir. O, hər dəfə vəziyyətində dəyişiklik hiss edən kimi klinikaya üz tutmağa çalışır. Hətta bir dəfə ölümünü videoya çəkməyi də təklif edib. O, bu vəziyyətdən həkimlər və tələbələrin çıxış yolu axtarıb tapması üçün bu addımı atıb. Xəstəliyə baxmayaraq gənc qız hamı kimi fəal həyat tərzi keçirməyə çalışır.



## Hər saat infarkt riski artır

Amerikadakı Medical College of Wisconsin Universitetində aparılan araşdırmalar nəticəsində məlum olub ki, oturaraq keçirilən hər saat ürək xəstəlikləri riskini 14% artırır. Yaşlı 50 olan 2031 nəfər üzərində keçirilən təcrübələr zamanı ürək xəstəlikləri riskini artıran damarlar yoxlanılıb. Günün 2-12 saatını ofisdə və ya televizor qarşısında keçirən adamların infarkt və ya ürək xəstəliklərinə tutulma ehtimalı daha çoxdur. Alimlərin sözlərinə görə, qaçmaq, fitnes və ya aerobika hərəkətləri ürək xəstəliklərini aradan qaldırır. Ofisdə çalışan adamlar arada yeriyərək bu problemi aradan qaldırmalıdırlar. Çünki hərəkətsizlik insan orqanizmi üçün siqaret qədər zərərlidir.




QOÇ - Bu gün sizin üçün olduqca maraqlı bir təqvim yaşanacaq. Əlaxüsus da saat 14-dən sonra sevindirici hadisələrin şahidi olacaqsınız. Mənəvi dəyərlərinizi qorumağa çalışın. Ağır işlərə isə girişməyin.

BUĞA - Ötən ongünlükdə icra edə bilmədiyiniz planlara yenidən baxmağınız vacibdir. Əgər özünüzü qalmaqallardan qoruya bilsəniz, axşama doğru sürprizləriniz olacaq. Pul da gözlənilir.

ƏKİZLƏR - Yaxşı olar ki, günortaya qədər mənzil şəraitində istirahət edəsiniz. Çünki həmin ərəfədə hansısa uğur gözlənilmir. Nahardan sonra isə istənilən sövdələşməniz baş tutacaq.

XƏRÇƏNG - Maliyyə problemlərinizin mövcudluğunu görən ulduzlar sizə kömək etmək istəyir. Lakin hansısa aktivlik göstərə bilmirsiniz. Gözütox olun. Bu axşam bütün dəvətləri qəbul edin.

ŞİR - Bütün vaxtınızı ailə-sevgi münasibətlərinə həsr edin. Digər insanlarla münasibətləri məhdudlaşdırın. Əks təqdirdə ovqatınız korlana bilər. Şəxsi büdcənizi artırmağa çalışın.

QIZ - Təzadlı gündür. Hadisələrin inkişafı gah müsbət, gah da mənfi istiqamətə yön ala bilər. Özünüzü gərginliyə salmayın. Heç kimin şəxsi işlərinə qarışmayın. Münasibətlərdə ciddi olun.

TƏRƏZİ - Mövcud problemlərinizin həllində ətrafınızda olan etibarlı şəxslərin köməyindən yararlanın. İndiki halda təkbaşına qərar çıxarmaq zərərinizədir. Axşam yeniliklərin şahidi olacaqsınız.

ƏQRƏB - Ay bürcünüzdə olduğundan ilk növbədə səhhətinizə fikir verin. Mübahisəli situasiyalardan qaçın. Bu gün daha çox yeni, işgüzar sövdələşmələrdə uğurlarınız mümkündür.

OXATAN - O qədər də səmərəli təqvim deyil. Bir tərəfdən səhhətinizlə bağlı xoşagəlməzliklər, digər tərəfdənsə münaqişələrə cəlb olunmağınız ovqatınıza mənfi təsir göstərə bilər.

OĞLAQ - Düşərli ərəfədir. Bəxtinizin gətirəcəyinə şübhəniz olmasın. Saat 15-18 arasını bütünlüklə sevgiyə həsr etməklə mənəvi rahatlıq tapacaqsınız. Amma səhhətinizi də qorumalısınız.

SUTÖKƏN - Qonşu və ya qohumlarınızla, eləcə də həmkarlarınızla münasibətlərinizdə yeni və müsbət mərhələ başlayacaq. Ola bilsin səfərə də çıxasınız. Saat 17-dən sonra işgüzar əlaqələri dərinləşdirin.

BALIQLAR - Öz gücünüzə nə qədər arxayın olsanız da, həlledici məqamlarda etibarlı adamların məsləhətinə qulaq asın. Axşam görəcəyiniz işlərin planını qurmaq istiqamətində sövdələşmələr aparın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 60 min dollarlıq hava




Son zamanlarda internetdə satışa çıxarılan məhsul hər kəsin diqqət mərkəzindədir. Məşhur müğənni Kanye Vestin konsertində iştirak edən bəzi dinləyicilər konsertin havasını satmağa başlayıblar. Bir çoxları konsert havasını uyğun qiymətə satmağa çalışsa da, adı açıqlanmayan bir şəxs havanı fantastik qiymətə satır. İnternetdə elan verən Kanye Vest fanatı konsert havasını 60 min dollara satdığını bildirib. Çoxları onun satdığı hava ilə maraqlansa da, alıcı tapılmayıb.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
Lisenziya N: B 114
SAYI: 5.300
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.